YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015



# Prezidentdən Xəzər dənizi ilə bağlı açıqlama

"Qazaxıstanla tam qarşılıqlı anlaşma mövcuddur..."

**Azərbaycan prezidenti İlham Əliyev aprelin 19-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayevin etimadnaməsini qəbul edib. Modern.az xəbər verir ki, səfir Beybit İsabayev fəxri qarovul dəstəsinin qarşısından keçib. Beybit İsabayev etimadnaməsini İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan prezidenti səfirlə söhbət edib.**

Xalqlarımız arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən dövlət başçısı müasir dövrdə ikitərəfli münasibətlərimizin müttəfiqlik səviyyəsinə qalxdığını məmnunluqla qeyd edib. İki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyini də vurğulayıb.

Dövlət başçısı Azərbaycan ilə Qazaxıstanın mühüm birgə iqtisadi, enerji, nəqliyyat layihələrini həyata keçirdiyini deyərək bütün bunların əməkdaşlığımızın potensialının daha da gücləndirilməsi işinə xidmət etdiyini bildirib.

İlham Əliyev Xəzərin statusunun müəyyənləşdirilməsi və Xəzər hövzəsində əməkdaşlıqla bağlı Azərbaycan ilə Qazaxıstan arasında tam qarşılıqlı anlaşmanın olduğunu diqqətə çatdırıb. Dövlət başçısı Beybit İsabayevin səfir kimi fəaliyyəti dövründə əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və ölkələrimizin regional əməkdaşlığın və təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə səylərinin daha da artırılacağına ümidvar olduğunu deyib.

Səfir Beybit İsabayev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını İlham Əliyevə çatdırıb. Qazaxıstan ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrinin ən yüksək səviyyədə bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirən səfir Beybit İsabayev fəaliyyəti dövründə əlaqələrimizin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini deyib.

Dövlət başçısı Prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş edib.



# İŞİD-in şəxsiyyət vəsiqəsi

Qadınlara şəxsiyyət vəsiqəsi istifadəsi və verilməsi qadağan olunub

**Özünü ayrı dövlət adlandıran İŞİD terror qruplaşması artıq üzvlərinə şəxsiyyət vəsiqəsi verməyə başlayıb. Anspress-in məlumatına görə, bu barədə Suriya İnsan Hüquqları Mərkəzinin yaydığı məlumatda belə deyilir. Şəxsiyyət vəsiqəsi terror qruplaşmasının 13 yaşını tamamlamış kişi üzvlərinə verilir.**

İŞİD-çilərin vəsiqəsi digər şəxsiyyət vəsiqələrindən ciddi fərqlənmir. Vəsiqədə foto, doğum tarixi və məkanı yazan məlumatlar əks olunub. Qadınların şəkil çəkdirməsi günah olduğu üçün onlara şəxsiyyət vəsiqəsi verilməsi lazım gəlməyib. Ümumiyyətlə, İŞİD-in daxili nizamnaməsinə uyğun olaraq qadınlara şəxsiyyət vəsiqəsinin verilməsi və istifadəsi qadağan olunub.

# İranın müdafiə naziri Bakıya gəlir

**İranın müdafiə və Silahlı Qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqan bu gün Azərbaycana gəlir. Anspress-in məlumata görə, iranlı nazirin işgüzar səfəri Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəsmi dəvəti çərçivəsində baş tutacaq.**

Hüseyn Dehqan bu səfərdə Azərbaycanın yüksək rütbəli hərbi və siyasi rəsmiləri ilə görüşlər aparacaq.Görüşlərdə ikitərəfli münasibətlər, hərbi əməkdaşlıqların genişləndirilməsi, həmçinin regiondakı son vəziyyətin müzakirə olunacağı gözlənilir.

Qeyd edək ki, Zakir Həsənov keçən il aprel ayında İrana rəsmi səfər etmişdi.



Hüseyn Dehqan

## Deputat bəzi məmurları zəli ilə müqayisə etdi

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa özünün facebook səhifəsində insan qanını soran zəli adlı canlı ilə bir sıra məmurların müqayisəsini aparıb.**

Fazil Mustafa zəlinin bir sıra məmurlardan daha gözü tox olduğu qənaətinə gəldiyini yazıb: "Zəlinin faydası haqqında eşitmişdim, ancaq nədənsə indiyədək istifadə etməyə riskli yanaşırdım. Bir neçə gün öncə qorxu sindromunu aşmaq üçün həkim dostumun israrı ilə zəlidən faydalanmağa başladım. Əməlli-başlı insan qanını durulduruş. Ən çox zövq aldığım isə zəlilərin müdrikliyi, gözü-könlü toxluğu idi. Deməli, zəli deyilən bu sürünən qanla qidalanır və doyandan sonra insandan əl çəkib yerə düşür. Bizdə xeyli səlahiyyətli adamlar tanıyıram ki, illərdir insanların qanını, canını, pulunu sorurlar, doydum demirlər. Yapışdıqları yerdən tutaraq yerə düşmək istəmirlər".

Deputat sonda qeyd edib ki, Azərbaycanda Allahın zəlisindən də ibrət götürəsi xeyli məziyyətlər varmış.

❑ E.SEYİDAĞA

## Nişanı qaytarılan gənc qətliam etdi

**Türkiyədə nişanı qaytarılan gənc çıxış yolunu qətliamda görüb. Anspress-in məlumatına görə, Manisa vilayətinin Soma rayonunda özəl bir mədən ocağında fəhləlik edən Özgür Çoban 24 fevralda sevdiyi Özləm Yenerlə nişanlanıb.**

Çütlük evlilik hazırlığından olarkən, qohumlar arasında narazılıqlar yaranıb. Bir-birlərini başa düşmədiklərini bildirən oğlan və qız adamları nişanı pozmağa qərar verirlər və hər iki tərəf qərarı qəbul edib. Nişanın pozulmasını qəbul etməyən Özgür Çoban avtomobil kirayələyir və Özləm Yenergilin evlərinə doğru yola çıxır. Yolda nişanlısı və ailəsinin avtomobilini görən Çoban öz maşını ilə onların qabağını kəsir.

Evdən götürdüyü tüfənglə keçmiş nişanlısını və onun atası Şaban Yeneri maşından düşürərək güllələyir. Sonra isə özünü vuraraq intihar edir. Hər üçü aldıqları güllə yarasından hadisə yerində dünyalarını dəyişiblər.

# Sabiq deputat yenidən seçkiyə qatılacaq

İkram İsrafil: "Sumqayıt və ya Şəkidən namizədliyimi vermək niyyətindəyəm"

**Müsavat Partiyasının Divan üzvü, sabiq millət vəkili İkram İsrafil partiyanın 2015-ci il parlament seçkilərində deputatlığa namizədlərinin irəli sürülməsi və özünün seçkidə iştirak edib-etməyəcəyi, iştirak edəcəyi halda hansı dairədən iddiaçı olacağı ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

İkram İsrafil bildirib ki, Müsavat Partiyası parlament seçkilərinə hazırlığın namizədlərin müəyyənləşməsi mərhələsini, demək olar ki, 60 % dairələr üzrə çatdırıb. Qalan 40% dairələr üzrə də proses davam edir.

İ.İsrafil seçkidə iştirak etmək niyyətində olduğunu açıqlayıb, eyni zamanda deyib ki, hələlik hansı dairədən namizədliyini irəli sürəcəyi barədə qəti qərara gəlməyib: "Millət vəkili olduğum dövrdə, baxmayaraq ki, Sumqayıt şəhərindən seçilmişdim, Şəki rayonu və doğulduğum Bideyiz kəndi üçün də çox əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olmuşdum. Kənddə iki ədəd su artezian quyusunun qazılması, yolun asfaltlanması, telefonlaşma, qazlaşma və sair işlərin görülməsinə nail olmuşdum. Sumqayıtda da millət vəkili olduğum 5 il ərində gördüyüm işlər barədə "Yeni Müsavat" vasitəsilə mütəmadi məlumatlar verilib. Sakinlər də görülən işlərin şahididirlər. Odur ki, həm Sumqayıtdan olan dostlarım və seçicilər, həm də Şəkidən olan seçicilər namizədliyimin verilməsini istəyirlər. Bu istəklərini mənə bildiriblər. Həm Sumqayıt, həm Şəki mənim üçün doğmadır. Ona görə də Sumqayıt və ya Şəkinin müvafiq dairəsindən namizədliyimi vermək niyyətindəyəm. Yaxın zamanda seçimimi dəqiqləşdirəcəyəm".

❑ E.SEYİDAĞA

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Ölkədə növbəti sınaq imtahanları keçirilib

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən abituriyentlər üçün aprelin 19-da ölkənin 35 şəhər və rayonunda sınaq imtahanları keçirib.**

İmtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Göygöl, Samux, Qazax, Tovuz, Şamaxı, Mingəçevir, Naftalan, Şəki, Qax, Oğuz, Ağcabədi, Göyçay, Zərdab, Ağdaş, Füzuli, Şirvan, Hacıqabul, Biləsuvar, Neftçala, Saatlı, Lənkəran, Lerik, Xaçmaz və Şabran şəhərlərində, Naxçıvan Muxtar Respublikasının Babək, Kəngərli, Ordubad, Sədərək, Culfa, Şərur və Şahbuz rayonlarında təşkil olunub.

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 48 min 49 abituriyent qeydiyyatdan keçib.

Sınaq imtahanları abituriyentlərə öz hazırlıq səviyyələrini yoxlamağa, imtahan qaydaları ilə əyani tanış olmağa kömək edir. Sınaq imtahanlarının üstün cəhətlərindən biri də bu imtahanlarda yaradılan şəraitin, ümumilikdə, imtahan prosesinin qəbul imtahanlarına tam uyğun olmasıdır. Bu imtahanlarda iştirak edən abituriyentlər özlərini real imtahan şəraitində hiss etməklə qəbul imtahanlarına psixoloji cəhətdən uyğunlaşır, ayrılmış vaxtdan səmərəli istifadə etmək bacarıqlarını inkişaf etdirirlər.

## Bakıda bu gün güclü şimal küləyi əsəcək

**Yaxın iki gün ərzində Bakıda şimal küləyi güclənəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan "Trend"ə verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, arabir tutulacaq, əsasən yağmursuz keçəcək. Bu gecə axşam cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyinin güclənəcəyi, axşam mülayimləşəcəyi gözlənilir.**

Aprelin 21-də də Bakıda nisbətən zəif şimal küləyi əsəcək. Bakıda və Abşeron yarımadasında havanın temperaturu gecə 8-12, gündüz 15-18 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında da hava əsasən yağmursuz keçəcək, lakin axşama doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq, qərb küləyi əsəcək, arabir güclənəcək.

Aran rayonlarında gecə 8-13, gündüz 17-22 dərəcə, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacağı gözlənilir.

A.Verdiyev deyib ki, bu gün havanın temperaturu dünənlə müqayisədə 1-3 dərəcə aşağı enəcək.



# Prezidentdən Xəzər dənizi ilə bağlı açıqlama

“Qazaxıstanla tam qarşılıqlı anlaşma mövcuddur...”

**Azərbaycan prezidenti İlham Əliyev aprelin 19-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Beybit İsabayevin etimadnaməsini qəbul edib. Modern.az xəbər verir ki, səfir Beybit İsabayev fəxri qarovul dəstəsinin qarşısından keçib. Beybit İsabayev etimadnaməsini İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan prezidenti səfirlə söhbət edib.**

Xalqlarımız arasında tarixi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən dövlət başçısı müasir dövrdə ikitərəfli münasibətlərimizin müttəfiqlik səviyyəsinə qalxdığını məmnunluqla qeyd edib. İki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyini də vurğulayıb.

Dövlət başçısı Azərbaycan ilə Qazaxıstanın mühüm birgə iqtisadi, enerji, nəqliyyat layihələrini həyata keçirdiyini deyərək bütün bunların əməkdaşlığımızın potensialının daha da gücləndirilməsi işinə xidmət etdiyini bildirib.

İlham Əliyev Xəzərin statusunun müəyyənləşdirilməsi və Xəzər hövzəsində əməkdaşlıqla bağlı Azərbaycan ilə Qazaxıstan arasında tam qarşılıqlı anlaşmanın olduğunu diqqətə çatdırıb. Dövlət başçısı Beybit İsabayevin səfir kimi fəaliyyəti dövründə əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və ölkələrimizin regional əməkdaşlığın və təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə səylərinin daha da artırılacağına ümidvar olduğunu deyib.

Səfir Beybit İsabayev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını İlham Əliyevə çatdırıb. Qazaxıstan ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrinin ən yüksək səviyyədə bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirən səfir Beybit İsabayev fəaliyyəti dövründə əlaqələrimizin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini deyib.

Dövlət başçısı Prezident Nursultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Qazaxıstan dövlətinin başçısına çatdırmağı xahiş edib.




# İŞİD-in şəxsiyyət vəsiqəsi

Qadınlara şəxsiyyət vəsiqəsi istifadəsi və verilməsi qadağan olunub

**Özünü ayrı dövlət adlandıran İŞİD terror qruplaşması artıq üzvlərinə şəxsiyyət vəsiqəsi verməyə başlayıb. Anspress-in məlumatına görə, bu barədə Suriya İnsan Hüquqları Mərkəzinin yaydığı məlumatda belə deyilir. Şəxsiyyət vəsiqəsi terror qruplaşmasının 13 yaşını tamamlamış kişi üzvlərinə verilir.**

İŞİD-çilərin vəsiqəsi digər şəxsiyyət vəsiqələrindən ciddi fərqlənmir. Vəsiqədə foto, doğum tarixi və məkanı yazan məlumatlar əks olunub. Qadınların şəkil çəkdirməsi günah olduğu üçün onlara şəxsiyyət vəsiqəsi verilməsi lazım gəlməyib. Ümumiyyətlə, İŞİD-in daxili nizamnaməsinə uyğun olaraq qadınlara şəxsiyyət vəsiqəsinin verilməsi və istifadəsi qadağan olunub.

# İranın müdafiə naziri Bakıya gəlir

**İranın müdafiə və Silahlı Qüvvələrə dəstək naziri general-mayor Hüseyn Dehqan bu gün Azərbaycana gəlir. Anspress-in məlumata görə, iranlı nazirin işgüzar səfəri Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəsmi dəvəti çərçivəsində baş tutacaq.**

Hüseyn Dehqan bu səfərdə Azərbaycanın yüksək rütbəli hərbi və siyasi rəsmiləri ilə görüşlər aparacaq.Görüşlərdə ikitərəfli münasibətlər, hərbi əməkdaşlıqların genişləndirilməsi, həmçinin regiondakı son vəziyyətin müzakirə olunacağı gözlənilir.

Qeyd edək ki, Zakir Həsənov keçən il aprel ayında İrana rəsmi səfər etmişdi.



Hüseyn Dehqan

## Deputat bəzi məmurları zəli ilə müqayisə etdi

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa özünün facebook səhifəsində insan qanını soran zəli adlı canlı ilə bir sıra məmurların müqayisəsini aparıb.**

Fazil Mustafa zəlinin bir sıra məmurlardan daha gözü tox olduğu qənaətinə gəldiyini yazıb: “Zəlinin faydası haqqında eşitmişdim, ancaq nədənsə indiyədək istifadə etməyə riskli yanaşırdım. Bir neçə gün öncə qorxu sindromunu aşmaq üçün həkim dostumun israrı ilə zəlidən faydalanmağa başladım. Əməlli-başlı insan qanını durulduruş. Ən çox zövq aldığım isə zəlilərin müdrikliyi, gözü-könlü toxluğu idi. Deməli, zəli deyilən bu sürünən qanla qidalanır və doyandan sonra insandan əl çəkib yerə düşür. Bizdə xeyli səlahiyyətli adamlar tanıyıram ki, illərdir insanların qanını, canını, pulunu sorurlar, doydum demirlər. Yapışdıqları yerdən tutaraq yerə düşmək istəmirlər”.

Deputat sonda qeyd edib ki, Azərbaycanda Allahın zəlisindən də ibrət götürəsi xeyli məziyyətlər varmış.

❑ E.SEYİDAĞA

## Nişanı qaytarılan gənc qətliam etdi

**Türkiyədə nişanı qaytarılan gənc çıxış yolunu qətliamda görüb. Anspress-in məlumatına görə, Manisa vilayətinin Soma rayonunda özəl bir mədən ocağında fəhləlik edən Özgür Çoban 24 fevralda sevdiyi Özləm Yenerlə nişanlanıb.**

Çütlük evlilik hazırlığından olarkən, qohumlar arasında narazılıqlar yaranıb. Bir-birlərini başa düşməmədikləri bildirən oğlan və qız adamları nişanı pozmağa qərar verirlər və hər iki tərəf qərarı qəbul edib. Nişanın pozulmasını qəbul etməyən Özgür Çoban avtomobil kirayələyir və Özləm Yenergilin evlərinə doğru yola çıxır. Yolda nişanlısı və ailəsinin avtomobilini görən Çoban öz maşını ilə onların qabağını kəsir.

Evdən götürdüyü tüfənglə keçmiş nişanlısını və onun atası Şaban Yeneri maşından düşürərək güllələyir. Sonra isə özünü vuraraq intihar edir. Hər üçü aldıqları güllə yarasından hadisə yerində dünyalarını dəyişiblər.

# Sabiq deputat yenidən seçkiyə qatılacaq

## İkram İsrafil: “Sumqayıt və ya Şəkidən namizədliyimi vermək niyyətindəyəm”

**Müsavat Partiyasının Divan üzvü, sabiq millət vəkili İkram İsrafil partiyanın 2015-ci il parlament seçkilərində deputatlığa namizədlərinin irəli sürülməsi və özünün seçkidə iştirak edib-etməyəcəyi, iştirak edəcəyi halda hansı dairədən iddiaçı olacağı ilə bağlı “Yeni Müsavat”ın suallarını cavablandırıb.**

İkram İsrafil bildirib ki, Müsavat Partiyası parlament seçkilərinə hazırlığın namizədlərin müəyyənləşməsi mərhələsini, demək olar ki, 60 % dairələr üzrə çatdırıb. Qalan 40% dairələr üzrə də proses davam edir.

İ.İsrafil seçkidə iştirak etmək niyyətində olduğunu açıqlayıb, eyni zamanda deyib ki, hələlik hansı dairədən namizədliyini irəli sürəcəyi barədə qəti qərara gəlməyib: “Millət vəkili olduğum dövrdə, baxmayaraq ki, Sumqayıt şəhərindən seçilmişdim, Şəki rayonu və doğulduğum Bideyiz kəndi üçün də çox əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olmuşdum. Kənddə iki ədəd su artezian quyusunun qazılması, yolun asfaltlanması, telefonlaşma, qazlaşma və sair işlərin görülməsinə nail olmuşdum. Sumqayıtda da millət vəkili olduğum 5 il ərində gördüyüm işlər barədə ”Yeni Müsavat" vasitəsilə mütəmadi məlumatlar verilib. Sakinlər də görülən işlərin şahididirlər. Odur ki, həm Sumqayıtdan olan dostlarım və seçicilər, həm də Şəkidən olan seçicilər namizədliyimin verilməsini istəyirlər. Bu istəklərini mənə bildiriblər. Həm Sumqayıt, həm Şəki mənim üçün doğmadır. Ona görə də Sumqayıt və ya Şəkinin müvafiq dairəsindən namizədliyimi vermək niyyətindəyəm. Yaxın zamanda seçimimi dəqiqləşdirəcəyəm".

❑ E.SEYİDAĞA

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**“Elm” tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Ölkədə növbəti sınaq imtahanları keçirilib

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən abituriyentlər üçün aprelin 19-da ölkənin 35 şəhər və rayonunda sınaq imtahanları keçirib.**

İmtahanlar Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Göygöl, Samux, Qazax, Tovuz, Şamaxı, Mingəçevir, Naftalan, Şəki, Qax, Oğuz, Ağcabədi, Göyçay, Zərdab, Ağdaş, Füzuli, Şirvan, Hacıqabul, Biləsuvar, Neftçala, Saatlı, Lənkəran, Lerik, Xaçmaz və Şabran şəhərlərində, Naxçıvan Muxtar Respublikasının Babək, Kəngərli, Ordubad, Sədərək, Culfa, Şərur və Şahbuz rayonlarında təşkil olunub.

İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 48 min 49 abituriyent qeydiyyatdan keçib.

Sınaq imtahanları abituriyentlərə öz hazırlıq səviyyələrini yoxlamağa, imtahan qaydaları ilə əyani tanış olmağa kömək edir. Sınaq imtahanlarının üstün cəhətlərindən biri də bu imtahanlarda yaradılan şəraitin, ümumilikdə, imtahan prosesinin qəbul imtahanlarına tam uyğun olmasıdır. Bu imtahanlarda iştirak edən abituriyentlər özlərini real imtahan şəraitində hiss etməklə qəbul imtahanlarına psixoloji cəhətdən uyğunlaşır, ayrılmış vaxtdan səmərəli istifadə etmək bacarıqlarını inkişaf etdirirlər.

## Bakıda bu gün güclü şimal küləyi əsəcək

**Yaxın iki gün ərzində Bakıda şimal küləyi güclənəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan “Trend”ə verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, arabir tutulacaq, əsasən yağmursuz keçəcək. Bu gecə axşam cənub-qərb küləyi əsəcək, səhər şimal-qərb küləyinin güclənəcəyi, axşam mülayimləşəcəyi gözlənilir.**

Aprelin 21-də də Bakıda nisbətən zəif şimal küləyi əsəcək. Bakıda və Abşeron yarımadasında havanın temperaturu gecə 8-12, gündüz 15-18 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında da hava əsasən yağmursuz keçəcək, lakin axşama doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq, qərb küləyi əsəcək, arabir güclənəcək.

Aran rayonlarında gecə 8-13, gündüz 17-22 dərəcə, dağlarda gecə 3-8, gündüz 10-15 dərəcə isti olacağı gözlənilir.

A.Verdiyev deyib ki, bu gün havanın temperaturu dünənlə müqayisədə 1-3 dərəcə aşağı enəcək.

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Sabir Rüstəmxanlı yenidən DAK həmsədri seçildi

## Tədbirdə Avropa Parlamentinin əsassız "erməni soyqırımı" ilə bağlı qətnaməsi kəskin tənqid edilib

**Aprelin 18-də İstanbulda Dünya Azərbaycanlıları Konqresinin (DAK) XIII qurultayı keçirilib. Türk dünyasının müxtəlif bölgələrində şəhid olmuş insanların xatirəsinin bir dəqiqəlik sükutla anılması, Azərbaycanın və Türkiyənin dövlət himnlərinin oxunması ilə başlayan qurultayda 25 ölkədən, o cümlədən ABŞ, Avstraliya, Almaniya, İsveçrə, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Polşa, Çexiya, İraqdan 152 nümayəndə və qonaq iştirak edib.**

Qurultayda Türkiyənin hakim elitasının - AKP-nin, aparıcı müxalifət partiyalarının - CHP, MHP-nin rəsmiləri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) deputatları, ülkü ocaqlarının, bu ölkədə və dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının, Güney Azərbaycan qurumlarının təmsilçiləri, Azərbaycan müxalifətçiləri, tanınmış ictimai-siyasi xadimlər, alimlər, ziyalılar iştirak ediblər.

Qurultayda əvvəlcə DAK-ın həmsədrləri Sabir Rüstəmxanlı və Firudin Pərviz Nianın hesabat məruzələri dinlənilib. Təşkilatın fəaliyyəti barədə məlumat verən məruzəçilər Avropa Parlamentinin əsassız "erməni soyqırımı" ilə bağlı qətnaməsini kəskin tənqid ediblər. Diqqətə çatdırılıb ki, XIX əsrin sonlarından başlayaraq terror və silahlı qiyamlarla Osmanlı dövlətində, o cümlədən indiki İran və Azərbaycan Respublikası ərazilərində müsəlman və türk əhaliyə qarşı amansız qırğınlar törədən ermənilər zaman-zaman öz cinayətlərini gizlətmək üçün havadarlarının dəstəyindən istifadə ediblər.



Sabir Rüstəmxanlı

DAK-ın həmsədri Sabir Rüstəmxanlı çıxışında qondarma erməni soyqırımı haqda danışıb: "Yüz ildən bəri Qərb ölkələrinin Türkiyəyə təsir mexanizmi kimi istifadə etdikləri "erməni soyqırımı" iddiası bu gün öz pik nöqtəsinə çatıb. Həqiqətdən qorxan, tarixin əsl simasını görmək istəməyənlər Türkiyə ilə təzyiq və ultimatum dili ilə danışırlar. Demokratiyadan dəm vuran ölkələrin çoxunun siması belədir. Qurultay üçün biz İstanbulu ona görə seçdik ki, sözdə "erməni soyqırımı" şousu ərəfəsində Türkiyənin yanında olaq. Zatən, biz hər zaman bərabərik, lakin indi bu birliyə daha çox ehtiyac var. Çünki bir millətik. Eyni taleni yaşayırıq. Çirkab türkə atılırsa, onun bir hissəsi bizə yapışır. Çünki Xocalı soyqırımının səbəbi orada yaşayanların Azərbaycan türkü olması idi. Bu gün dünyanın Ermənistanın işğalçılığına göz yummasının, ona "Azərbaycanı tərk et" deyilməməsinin, münaqişənin guya həlli adı altında 25 ildən bəri dondurulmasının səbəbi də bizim türk olmağımızdır. Bu səbəbdən bizim birlikdən başqa çarəmiz yoxdur".

Sabir Rüstəmxanlı deyib ki, dünya soyqırımı iddiasının yalan olduğunu bilir, lakin Türkiyənin "gəlin arxivlərimizi açaq, sənədləri araşdıraq" çağırışını eşitməzliyə vurur. Halbuki əsl soyqırımını ermənilər Azərbaycan türklərinə qarşı törədiblər. 1918-ci ildə Bakı, Şamaxı, Quba qırğınları törədildi, on minlərlə insan vəhşicəsinə öldürüldü. Təkcə Xocalı faciəsi erməni vəhşiliyinin sübutu üçün yetərlidir. Dünya Xocalı soyqırımını tanımalıdır və tanıyacaq.

Sonra təşkilati məsələlərə baxılıb. Sabir Rüstəmxanlı və Firudin Pərviz Nian yenidən Dünya Azərbaycanlıları Konqresinin həmsədrləri seçiliblər. Qurultay uydurma "erməni soyqırımı" ilə bağlı bəyanat qəbul edib. Bəyanatda saxta "erməni məsələsi" və uydurma "erməni soyqırımı" anlayışlarının siyasi gündəmə gətirilməsinin münasibət bildirilir. Qədim Azərbaycan torpaqlarında yaradılan Ermənistan dövlətinin təcavüzkar siyasətinə dair faktların yer aldığı bəyanatda Birinci Dünya müharibəsi dövründə ermənilərin Osmanlı dövlətinə qarşı silahlı cinayətlərindən, çoxsaylı xəyanətlərindən bəhs edilir. Qeyd olunur ki, bütün bu həqiqətlər avropalı tarixçilərə yaxşı məlumdur. Lakin siyasi maraqlardan ortaya çıxan ikili standartlar nəticəsində saxta "erməni soyqırımı" mövzusu ilə Türkiyəyə qarşı təzyiqlər davam etdirilir. Bəyanatda həmçinin Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı barədə həqiqətlər xatırlanır. Dünya Azərbaycanlıları Konqresi bəyan edir ki, saxta "erməni soyqırımı" mövzusu adı altında Avropada qəbul olunan siyasi qərarlara qarşı sərt mübarizəyə keçəcək.

❑ **Günel MANAFLI**

# "Bozqurdun intiqamı" filminin təqdimatı keçirilib

## Rejissor: "Əsas məqsədimiz bütöv Azərbaycanı təbliğ etmək, dünya türklərinin arzu və istəklərini insanlara çatdırmaqdır...."





**Uzun müddət idi ki, gözlənilən "Bozqurdun intiqamı" filminin təqdimatı olub. Bütöv Azərbaycan Ocaqlarının (BAO) Gənclər Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə ərsəyə gələn filmin təqdimatı Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi Qərargahında baş tutub. Təqdimatda ziyalılar, müxtəlif partiya və təşkilat üzvləri iştirak edib.**

Tədbiri giriş sözü ilə BAO təşkilatının rəhbəri Zahir Əlisoy açdı. O, təqdim olunan filmin peşəkar şəxslər tərəfindən çəkilməsə də, türk millətinin arzu və hədəflərini ifadə etmək baxımından çox əhəmiyyətli olduğunu qeyd edib. Daha sonra Zahir Əlisoyun təşəbbüsü ilə filmdən qısa tanıtım videoçarxı nümayiş edilib.

Filmin qısa təqdimatından sonra təqdbir iştirakçıları çıxış edərək film haqqında öz fikirlərini bildiriblər. BAO Mərkəzi Şurasının üzvü Bəxtiyar Tuncay filmi ərsəyə gətirən gənclərlə qürur duyduğunu deyib: "Bozqurdun intiqamı" filmi tək bir kamera ilə çəkilib, texniki imkanları aşağı olub. Filmin kollektivində yalnız bir aktyor, Ənvər Məmmədov peşəkar aktyordur. Buna baxmayaraq çox sevindirici haldır ki, həvəskar gənclər film üzərində edə biləcəklərinin ən yaxşısını bacarıblar. Məhz buna görə BAOGT ilə qürur duyuram".

Filmin mətn üzrə redaktoru, BAO Mərkəzi Şurasının üzvü Şirvan Ədili qeyd edib ki, film özü mövqeyi və ideyası baxımından Azərbaycan tarixində bir ilkdir. O, film haqqında danışaraq maraqlı açıqlamalar verib: "Bu filmdə əsas düşmənlərimiz İran, rus və fars şovinizmi ifşa olunur, qurtuluşumuz, türkçülük, turançılıq göstərilir".

Film kollektivinin yeganə peşəkar aktyoru Ənvər Məmmədov çıxış edərək bildirib ki, film heç bir maliyyə dəstəyi olmadan ərsəyə gəlib: "Film haqqında ideya yarananda rejissora dedim ki, maliyyə dəstəyi olmadan film yaratmaq mümkün deyil. Lakin gördüyünüz kimi, rejissorun iradəsi və inadkarlığı sayəsində film alındı".

Daha sonra filmin rejissoru, baş rolun ifaçısı Elşən İsmayılov çıxış edib. Rejissor bildirib ki, film fantaziyaların məhsuludur, tarixi həqiqətləri o qədər də əks etdirmir:

"Bu həm rejissor, həm də aktyor kimi ilk işimdir. Film əsasən Qarabağda baş verən olaylardan bəhs edir və deyərdim ki, ideya baxımından dəyərlidir. Filmi çəkməkdə əsas məqsədimiz bütöv azərbaycanı təbliğ etmək, dünya türklərinin arzu və istəklərini insanlara çatdırmaqdır".

Daha sonra iki hissədən ibarət "Bozqurdun intiqamı" filmi tamaşaçılara təqdim olundu. Film alqışlarla qarşılandı.

❑ **Xalidə GƏRAY**

# "Ukraynadakı siyasi qətllərdə Rusiya kəşfiyyatının da əli var"

## Elxan Şahinoğlu: "Belə qətllərin üstü adətən açılmır..."

**Aprelin 16-da saat 13.20-də Ukraynanın paytaxtı Kiyevdə Dyoqtyarevskaya küçəsində jurnalist Oles Buzina güllələnərək öldürülüb. İlkin versiyalara görə, qatillər iki nəfər olub və jurnalisti öz evinin qarşısında güllələyərək qaçıblar.**



Elxan Şahinoğlu

Qeyd edək ki, bu, aprel ayı ərzində öldürülün sayca 3-cü ictimai fəaldır. Bundan əvvəl aprelin 13-də Kiyevdə məşhur jurnalist, "ProUA" və "Obkom" internet nəşrlərinin həmtəsisçisi Sergey Suxobok, ondan iki gün sonra isə Regionlar Partiyasından olan keçmiş millət vəkili Oleq Kalaşnikov qətlə yetirilib.

Oleq Buzina rusiyameyilli jurnalist hesab olunur, o, bir neçə dəfə Kiyevdə ABŞ əleyhinə aksiyaların təşkilatçısı olub. Rusiya prezidenti Vladimir Putin "Birbaşa efir" vaxtı Oles Buzinanın qətlə yetirilməsini şərh edib. Onun sözlərinə görə bu, Ukraynada növbəti siyasi qətldir. "Avropada və Şimali Amerikada Ukraynada törədilən silsilə siyasi qətlləri və onların çox pis təhqiqatını görməməyi daha üstün tuturlar", - deyə Vladimir Putin bildirib.

Bu arada Beynəlxalq Jurnalistləri Müdafiə Komitəsi Ukraynada "Segodnya" internet qəzetinin keçmiş redaktoru Oles Buzinanın qətlinin motivlərini araşdırmağa və qatilləri tapmağa çağırıb. Ukrayna hakimiyyət orqanları bildiriblər ki, Buzina həm də 2014-cü ildə Yanukoviç hökumətinin muzdluları ilə "Maydan" tərəfdarları arasındakı toqquşmaları araşdıran təhqiqatın şahidi olub.

Ukraynadakı siyasi prosesləri araşdıran siyasi şərhçi Elxan Şahinoğlu deyir ki, bu ölkədə Maydan hadisələrindən sonra siyasi qətllərin baş verəcəyi gözlənilən idi. Ekspertə görə, Ukraynada davam edən siyasi istiqrazsızlıq və işğal xarici qüvvələrin də iştirakı ilə bu cür kriminal olaylara səbəb olur: "Ukraynada terror hallarının artacağını ötən ilin əvvəlində proqnozlaşdırmışdım. Çünki ikinci "Maydan"dan sonra ölkədə hakimiyyət boşluğu yarandı, anarxiya artdı. Buna istifadə edən Rusiya da əvvəl Krımı işğal etdi, ardından da Şərqdə separatçılara dəstək verdi. Ancaq hadisələrinin bununla yekunlaşmayacağını hiss edirdim. "Maydan"dan sonra Ukraynada sağ radikallar fəallaşdılar, içərilərində biri var idi, avtomatla icra hakimiyyətlərinin iclaslarına gələr, hamını qorxudurdu. Daha sonra onu müəmmalı şəkildə qətlə yetirdilər və bu qətldə daxili işlər naziri Arsen Avakovun marağının olduğu vurğulandı. Həmin qətlin üstü açılmadı. Bu, başlanğıc idi. Daha sonra müəmmalı qətllərin sayı artdı. Rusiya kəşfiyyatının da bu işlərdə əli var. Məsələn son zamanlar Odessa və Xarkovda ruspərəst gizli dərnəklərin sayı artıb. Həmin dərnəklərin fəalları axşamlar müxtəlif hücumlar təşkil edirlər".

Kiyevdə baş verən son qətl hadisələrinə gəlincə, E.Şahinoğlu bu qətlin ölkədə qeyri-sabitliyin daha da dərinləşməsinə hesablanmış provokasiya da ola biləcəyini düşünür. Lakin eyni zamanda ekspertin fikrincə, bu qətllər açılmayacaq: "Kiyevdə baş verən qətllərə gəldikdə isə iki versiya var. Birinci versiya bundan ibarətdir ki, həmin şəxsləri Rusiya kəşfiyyatının adamları qətlə yetiriblər. Məsələ burasındadır ki, öldürülən şəxslər Ukrayna hakimiyyətinə müxalif, Rusiya ilə sıx əlaqələrin tərəfdarı idilər. Rus kəşfiyyatı da Kiyevdə özününküləri qətlə yetirməklə bu cinayətləri Ukrayna millətçilərinin boynuna ata bilərdi. Məqsəd Ukraynadakı vəziyyəti bir az daha gərginləşdirməkdir. Çünki atəşkəs Ukrayna hakimiyyətinə fasilə yaradıb və Kiyev diqqətini daxili məsələlərin həllinə istiqamətləndirib. Bu isə görünür Moskvanın xoşuna gəlmir. İkinci versiya isə ruspərəst jurnalistləri və keçmiş deputatı elə ukraynalı millətçilər qətlə yetiriblər. Məncə, bu iki versiyadan hansı birinin həqiqət olacağını bəlkə də heç zaman öyrənə bilməyəcəyik. Belə siyasi qətllərin üstü adətən açılmır".

❑ **KƏNAN**



# Ərdoğandan "ÖNCƏ QARABAĞ" mesajı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Kritik həftəyə qədəm qoyuruq. Türkiyə 24 apreldə Çanaqqala zəfərinin, ermənilər isə saxta "soyqırım"ın 100 illiyini qeyd edəcək. Həm Türkiyə, həm də Azərbaycan üçün çox ciddi bir dönəmdir. Bu mərhələdə Türkiyə dost-düşmənini bir daha konkretləşdirmək, Azərbaycan onun, yoxsa işğalçı Ermənistanın yanında olanların çevrəsini müəyyənləşdirmək imtahanı qarşısındadır.**

Dünyada ədalətin olmadığını, beynəlxalq hüquq deyilən nəsnənin əslində maraqlar, mənafelər naminə vitrinə qoyulduğunu erməni şivənçilərinə qoşulub saxta "soyqırım"ın yüzüncü "ili"nə zülüm-zülüm ağlayan Roma Papasının, üstəlik dünyaya ədalət dərsi keçən Avropa Parlamentinin mövqeləri bir daha isbatladı.

"Erməni soyqırımı" iddialarına reaksiyalardan sonra bir daha təsdiqləndi ki, Türkiyə və Azərbaycanın bir-birindən özgə dostu yoxdur. Dünənə qədər özünü Türkiyəyə strateji müttəfiq, tərəfdaş, iqtisadi partnyor adlandıranlar bu gün Türkiyəni bir ovuc ermənin qarşısında tərksilah etməyə çalışır.

Əks təqdirdə ortada heç bir dəlil-sübut olmadığı halda, üstəlik, Osmanlı imperiyasının zamanında baş verənlərə görə, demokratiya, azadlıqlar, iqtisadi inkişaf sarıdan müsəlman dünyasına nümunə olan Türkiyəmizin üstünə bu şəkildə gəlməzdilər.

İllər boyu Türkiyənin Avropa Birliyinə üzvlüyünə gedən yolunu çeşidli bəhanələrlə kəsdilər. Hətta 30 min türkün qanını tökmüş baş PKK-çı Öcalanla bağlı tələblər irəli sürdülər, çoxdan boğazına kəndir keçirilməli olan terrorçubaşı illərdir böyük vəsaitlərin xərclənməsi hesabına bəslənilir.

Musavat.com xəbər saytlarından birinə istinadən bir siyahı yayıb: ermənilərin qətlə yetirdiyi türk diplomatlarından bəhs edir. 33 türk diplomatı erməni terrorunun qurbanı olub. Üzərinə azərbaycanlı dövlət və hökumət adamlarını da gəlsək, böyük siyahı edir.

Ermənilərin elə 1915-ci ildə Türkiyədə, Cənubi və Şimali Azərbaycanda kəsdiyi başların sayı-hesabı yoxdur. Xocalıda soyqırım dünən olub, ortada şahid-sübutlar. Ancaq dünyanın öz "həqiqəti" var. Onlar yalnız ermənilərin göz yaşlarına inanırlar.

Türklər daha ermənilər üçün nə etməlidirlər ki, dünya gücləri sakitləşsin? Hətta ölkə ictimaiyyətinin etirazına baxmayaraq, Sürixdə anlaşma protokollarını imzaladı, ölkə arxivlərini erməni tarixçilərinin üzünə açdı, 1915-ci il hadisələrini birgə araşdırmaq üçün birgə komissiyanın fəaliyyətini təklif etdi, ermənini baş nazirin müşaviri təyin etdi, acından ölən 70 minə qədər Ermənistan vətəndaşının Türkiyədə çörək qazanmasına şans verdi...Ancaq erməni ötən əsrin əvvəllərində olduğu kimi yenə xəyanətlə qarşılıq verdi.

Davamlı şəkildə erməni həyasızlığını görən prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycanı təhdid edən məsələlərdən eyni zamanda bəhs edib. Sitat: "Ermənilər qondarma erməni soyqırımı iddiaları və Qarabağın işğaldan azad edilməsi istiqamətində müsbət addımlar atsalar, onlarla hər növ əməkdaşlığa hazırıq. Bu iradəni, bu cəsarəti göstərəcək erməni siyasətçiləri, Ermənistan rəhbərliyi ilə görüşlərə, danışıqlara daim hazırıq. Lakin, öncə Qarabağ problemi həll olunmalıdır".

"Öncə Qarabağ" deyib cənab Ərdoğan. Keçən ilin sonlarında əli türk qanına batmış Sərkisayana Çanaqqala dəvətini göndərən və sülhə ümid edən Rəcəb bəy daha dəvətlə, futbol diplomatiyası ilə ermənini ram etməyin mümkünsüzlüyünü bir daha yəqin edib. Ona görə də "ÖNCƏ QARABAĞ" deyib.

Azərbaycan prezidenti Avropadakı tədbirdə erməni rəhbərliyinin Türkiyə haqqında sərsəmləməsinə cavab olaraq "burda Türkiyə yoxdur, amma mən varam" demişdi. İndi Türkiyə rəhbərliyi də ermənin yadına işğal etdiyi Qarabağı salır. Gərək daim belə olsun, biz deməsək də, istəməsək də, dostumuz kimi düşmənimiz də birdir. Ermənilərin ənənəvi sualı var: "hay es, türk es?" Sərkisyan erməni gənclərinə demişdi ki, Qarabağ məsələsi "həll etdi", gənclər də Ağrının taleyini həll etməlidir. Yəni erməni Türkiyə və Azərbaycan türkünü, dövlətini ayırmır. Onlar bizə bir millət, bir dövlət kimi baxır.

AŞPA-nın yaz sessiyasında da anti-türk müzakirələri gözlənilir. Gərək Azərbaycandan olan deputatlar düşmənin bu fitnəsini pozmaq üçün maksimum çalışsın. Çanaqqala zəfərini birgə qeyd etmək üçün Bakıdan prezident başda olmaqla çoxsaylı təmsilçilərimiz Türkiyəyə gedəcək bu həftə. Azərbaycan və Türkiyə 100 il əvvəl olduğu kimi bir yerdədir. Daim belə olması lazım. Bizim bir-birimizdən başqa kimimiz var ki..?

# Bu həftə bəzi siyasilərin məhkəmələri olacaq

## Proseslər yekunlaşmağa doğru gedir; İntiqam Əliyev ailəsi ilə görüşüb; Tofiq Yaqublunun qəzet problemi davam edir

**Bu həftə bəzi siyasi məhbusların məhkəmələri olacaq. Artıq məhkəmə prosesləri yekunlaşmaq üzrədir. Müsavatçı gənc Sirac Kərimlinin ardından İnsan Haqları Klubunun sədri Rəsul Cəfərova da hökm oxundu.**

Hazırda məhkəməsi yekunlaşmağa doğru gedən məhbuslardan biri Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevdir. Aprelin 21-də saat 14:00-da hüquq müdafiəçisinin növbəti məhkəməsi keçiriləcək. Vəkil Fəxrəddin Mehdiyev proses barədə musavat.com-a danışdı: "Müdafiə tərəfinin vəkillərinin çıxışları olacaq. Dörd vəkilin çıxışı gözlənilir. Ola bilsin ki, İntiqam bəy bu prosesdə son sözünü desin. Növbəti məhkəməyə də son söz qala bilər. Bu barədə əvvəlcədən danışmaq bir az çətindir. Amma bizim çıxışlar olacaq. Çıxışlarımız geniş olacaq. İntiqam bəyin yazıları təcridxanada ondan alınır. Biz vəkillər də ciddi yoxlamadan keçirilirik. Sonuncu dəfə aprelin 17-də onunla görüşdüm. Müdafiə çıxışları ilə bağlı söhbət etdik".

İntiqam Əliyev aprelin 19-da ailəsi ilə görüşüb. Görüş barədə hüquq müdafiəçisinin oğlu Nəcmi Əliyev məlumat verdi: "Atamla görüşdük. Elə bir yenilik yoxdur. Vəziyyəti yaxşıdır. Yenə də son sözünü əlindən almağa cəhd ediblər. Amma imkan verməyib. Məhkəməyə gələndə, yəqin ki, yenə alacaqlar. Ayağında problemlər var. Axsayır. Bütün dostlara salamları var".

Aprelin 22-də daha bir siyasi məhkəmə olacaq. Müsavat başqanının müavini Fərəc Kərimlinin keçən həftə hakimin atasının vəfat etməsi ilə əlaqədar təxirə salınan məhkəməsi keçiriləcək. Vəkil Nemət Kərimli prosesin saatının hələ bəlli olmadığını söylədi.



Müsavat başqanının həbsdəki digər müavini Tofiq Yaqublunun qəzet problemi yenə də davam edir. Başqan müavininə qəzetlər həftədə bir dəfə bir saat müddətinə oxumaq üçün verilir. T.Yaqublunun qızı Nigar Yaqublu Ombudsman və Qırmızı Xaç Komitəsinə etdiyi müraciətlərin nəticəsiz qaldığını söylədi: "Problem qalmaqda davam edir. Ombudsman və QXK-yə müraciət etmişəm. Məsələni cəzaçəkmə müəssisəsində aydınlaşdırmaq bu qurumların haqqı və vəzifə borcalarıdır. Amma təəssüf ki, maraqlanmırlar. Bütün həbsxanalarda qəzet problemi yaşanır. Görün hansı zəmanəyə gəlib çatmışıq ki, mətbuat oxumaq üçün saatla verilir".

Müsavat başqanının daha bir müavini Yadigar Sadıqovun həbsinin 2/3 hissəsinin tamam olması və azadlığa buraxılması üçün Qaradağ Rayon Məhkəməsinə etdiyi müraciətə baxılacaq. Onun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah aprelin 21-də prosesin keçiriləcəyini bildirdi: " Məhkəməsi olacaq. Başqa bir yenilik yoxdur. Hər şey əvvəlki kimidir. Səhhəti normaldır. Ürəyindəki problemlərlə bağlı dərmanlar qəbul edir".

Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının səhhətindəki problem davam edir. Şəkər xəstəliyindən əziyyət çəkən partiya sədrinin vəziyyəti qənaətbəxş deyil. N. Pənahlının həyat yoldaşı Həcər Pənahlı son durumdan söz açdı: "Telefonla danışdıq. Kamerasını dəyişiblər. Deyiblər ki, təmir işləri ilə əlaqədardır. Hazırda üç nəfərlə qalır. Bundan narazıdır. Tək qalmaq istəyir. Söz veriblər ki, kamerasını dəyişəcəklər. Amma hələ də dəyişməyiblər. Saxlanma şəraiti normaldır. Səhhəti çox ağırdır. Düzəlmək məsələsi yoxdur. Şəkər və böyrəkləri çox narahat edir. May ayındakı əfvə inamımız yoxdur. Əfvlə çıxası olsaydı, indiyə qədər çıxardı. Ən azından keçən dəfə azad olunmalı idi. Əfv ondan kənar bir sərəncama çevrilib".

NİDA-çı gənc Ömər Məmmədov ailəsi ilə görüşüb. Gənc fəalın atası Əlyar Məmmədov görüş barədə danışdı: "Ailəsi olaraq, görüşdük. Ömər əfvlə azadlığa çıxacağına inanır. Amma biz inanmırıq. Səhhəti və saxlanma şəraitində problem yoxdur".

Həbsdəki digər NİDA-çı gənc Əbdül Əbilovun anası Nurcahan Əbilova oğlu ilə görüşdüyünü söylədi: "Aprelin 18-də Əbdüllə görüşdüm. Mənə hər şeyin yaxşı olduğunu dedi. Onsuz da problemi olanda mənə demir. Əfvə düşəcəyinə inanmır. Ola bilər ki, mənə görə desin. Deyir ki, səbirsizliklə gözləməyin, axırda əfvə düşməyəndə üzülürsüz".

❑ Cavanşir ABBASLI

# Devalvasiya "Sovetski"ni xilas etdi

## Söküntü işləri dayandırılıb…

**Ötən ildən başlayaraq, neft gəlirlərinin azalması, eləcə də hökumətin Avropa Oyunları kimi böyük bir beynəlxalq tədbirə ev sahibliyi etməsi və bütün xərclərini üzərinə götürməsi bir çox iri layihələrin taleyini sual altında qoyub.**

Artıq Bakının yeni baş planına uyğun olaraq, şəhərdə aparılan söküntü-tikinti işləri təxirə salınıb. Bu layihələrdən ən böyüyü kimi "Sovetski" adlanan qədim məhəllənin sökülməsi və sakinlərin köçürülməsi prosesi dayandırılıb.

"Sovetski"də hazırda vəziyyətin necə olmasını müşahidə etmək üçün bu məhəlləyə baş çəkdik. Məlum oldu ki, burada tam bir səssizlik hökm sürür. Bu səssizliyi qədim məhəllənin dar küçələrindən keçən avtomobillərin siqnal səsləri pozurdu.

Günorta saatları olduğundan sakinlər də gözə dəymirdi. "Sovetski" müharibədən yenicə çıxmış şəhəri xatırladır. Sahiblərinin atıb getdiyi evlər və lazımsız köhnə əşyalar xarabalıq təəssüratı yaradır. Bir zamanlar içərisində sakinləri olduğu halda evləri sökən icraçılar indi boş evlərə belə, toxunmayıblar.





"Sovetski"nin hər dalanında 4-5 ailə qalıb. Onlar zamanında verilən kompensasiya ilə razılaşmayıblar. Deyirlər ki, son aylarda ümumiyyətlə, əraziyə gəlib-gedən, heç köhnə məbləği belə, təklif edən də yoxdur.

Söküntüdən sonra təmizləmə işləri aparılmadığından "Sovetski"də ara yollar təhlükəli vəziyyətdədir. Bir hissəsi sökülmüş ikimərtəbəli binaların qalan hissəsi də hər an uçub, yoldan keçənlərin başına düşə bilər. Sakinlər hər gün bu təhlükəni gözə alaraq işə, məktəbə gedib-gəldiklərini deyirlər. Söküntü prosesi zamanı evlərinin qəzalı vəziyyətə düşdüyünü, lakin buna görə onlara heç bir kompensasiya verilmədiyini deyənlər də var.

Daha bir problem isə söküntü zamanı ərazidən keçən su-kanalizasiya xətlərinin partlaması və bunun bərpa edilməməsidir. Həmsöhbətlərimiz deyir ki, partlayan su xətləri təmir olunmadan üstü torpaqla örtülüb. Neçə aydır ki, içməli su yerin altı ilə axmaqda davam edir.

Materialla daha ətraflı musavat.com saytında təqdim edilən videodan tanış ola bilərsiniz.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015

# Türkiyə və Azərbaycan üçün kritik həftə başladı

## Bu gün işinə başlayan AŞPA-nın yaz sessiyasında erməni-türk savaşı gözlənilir; ermənilər daha bir "soyqırım" həmləsinə hazırlaşır...

**Bu gün Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyası başlayacaq. Aprelin 24-dək Strasburqda keçiriləcək sessiyada Azərbaycanın AŞPA-dakı daimi nümayəndə heyəti də iştirak edəcək. Bu haqda məlumat Milli Məclisin saytında yerləşdirilib.**



Nümayəndə heyətinə Səməd Seyidov başçılıq edir. Heyətə deputatlardan Sevinc Fətəliyeva, Rövşən Rzayev, Elxan Süleymanov, Rafael Hüseynov, Qənirə Paşayeva, Aydın Abbasov, Sabir Hacıyev, Sahibə Qafarova və Fazil Mustafa daxildir.

Sessiyada Ukraynada vəziyyət, İŞİD adlanan terrorçu qrupun fəaliyyətinin nəticələri, AŞPA-dakı Rusiya nümayəndə heyətinin dondurulmuş mandatına yenidən baxılması, Monako ilə monitorinq sonrası dialoq, Avropa İnsan Haqları Konvensiyasının səmərəliliyi və s. mövzularda fikir mübadiləsi aparılacaq. Tədbirdə nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və deputatların çıxışları gözlənilir.

AŞPA-nın yaz sessiyasının Ermənistan nümayəndə heyəti ilə Türkiyə və Azərbaycan nümayəndə heyətinin mübarizə meydanına çevriləcəyi də gözlənilir. Belə ki, ermənilər Avropa Parlamentinin ötən həftə "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qətnaməyə bənzər qətnamənin AŞPA sessiyasında da qəbul edilməsinə çalışacaqlar. Yayılan məlumatlarda deyilir ki, Ermənistan nümayəndə heyəti bunun üçün konkret sənədi AŞPA sessiyasının müzakirəsinə çıxarmaq istəyirlər. Bu isə təbii ki, həm Türkiyə, həm də Azərbaycan nümayəndə heyəti tərəfindən etirazla qarşılanacaq.

Yaz sessiyası 24 apreldə də keçirildiyi üçün ermənilər nəyin bahasına olur-olsun həmin gün AŞPA-da istəklərinə nail olmaq istəyəcəklər. Sessiya salonunda çıxışlarla eyni vaxtda ermənilərin Avropadakı diaspor qurumları Avropa Şurasının binası önündə aksiya keçirməyə hazırlaşır. Avropa Şurasının binasının qarşısında aksiya keçirilməsi üçün qurumun rəhbərliyinə artıq bildiriş göndərilib, razılıq alınıb.

Avropa Şurasının iş qaydalarına görə, sessiya keçirilən günlərdə AŞ-nin binası önündə aksiya keçirilməsi üçün öncədən müraciət edilməlidir. Sessiyanın gedişinə və binaya giriş-çıxışa maneçilik yaratmayan aksiyalara hər hansı məhdudiyyət qoyulmur. Aksiyanın təhlükəsizliyinə Strasburq polisi nəzarət edəcək. Erməni diaspor qurumları aksiyanın mediada geniş yer alması üçün bir neçə ölkədən 30-a yaxın telekanal və çap mediası təmsilçisini Strasburqa dəvət edib.

Beləliklə, bu həftə Türkiyə və Azərbaycan üçün kritik həftə olacaq. Azərbaycan Milli Məclisinin üzvü Aydın Mirzəzadə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, ermənilərin AŞPA-da "erməni soyqırımı" məsələsi ilə bağlı hansısa addımlar atacağı gözləniləndir. Ancaq ermənilər heç bir ciddi nəticəyə, uğura nail ola bilməyəcəklər: "Uydurma "erməni soyqırımı"nın yüz illiyi ilə bağlı Ermənistanın nəzərdə tutduğu planların böyük bir hissəsi artıq iflasa uğrayıb. Ermənistanın İrəvanda təşkil etmək istədiyi şouya dünya dövlətlərindən ancaq Fransanın prezidentinin gələcəyi ilə bağlı xəbər yayılıb. Dünyada ermənilərin bu şousuna ciddi maraq yoxdur. Erməni diasporunun xaricdəki fəaliyyəti də uğursuzluqlarla nəticələndi. Ümumən götürdükdə erməni hiyləsinin artıq tədricən dünya tərəfindən ifşa olunduğunun fərqindədir ermənilər. Ancaq bununla belə, onlar yenə də cəhd edirlər və müxtəlif tribunalardan bunun üçün istifadə etməyə çalışırlar. AŞPA-nın yaz sessiyasında da bu məsələni qaldıracaqları istisna deyil. Mümkündür ki, bir neçə tərəfdarları ilə hansısa bəyanat yaysınlar, bununla bağlı orada bir tədbir keçirməyə cəhd etsinlər. Ancaq heç bir halda onlar AŞPA-nı öz siyasi maraqlarına uyğun hərəkət etməyə məcbur edə bilməyəcəklər. Yəni ermənilər cəhd edəcəklər ki, AŞPA "erməni soyqırımı" ifadəsini işlədən hansısa sənəd qəbul etsin, onlar cəhd edəcəklər AŞPA-nı Türkiyəyə, türk dünyasına qarşı çirkin kampaniyaya qoşsunlar. Ancaq buna nail ola bilməyəcəklər, cəhdləri uğursuzluqla nəticələnəcək. Türkiyə də, Azərbaycan da dəfələrlə bu məsələ ilə bağlı müxtəlif beynəlxalq tədbirlərdə öz mövqeyini bildirib, birgə hərəkət edib. AŞPA-nın bu sessiyasında da erməni tərəfi Türkiyə və Azərbaycan nümayəndə heyətləri tərəfindən layiqli cavablarını alacaqlar".

Azərbaycan Milli Məclisinin AŞPA-dakı nümayəndə heyətinin üzvü Fazil Mustafa isə bildirdi ki, önümüzdəki həftə, yəqin ki, gərgin müzakirələrlə keçəcək: "24 apreli də orada, yəqin ki, gərgin mübahisələr içində keçirəcəyik. Ümid edirəm ki, nümayəndə heyətimiz Azərbaycanın və Türkiyənin maraqlarını layiqincə qoruya biləcək".

❑ **Etibar SEYİDAĞA**

# Müsavat Bakı meriyasını məhkəməyə verir

## Qurumun partiyanın müraciətini cavabsız qoyması etiraz doğurub; Elman Fəttah: "Aksiyalar mütləq olacaq..."

**Xəbər verildiyi kimi, Müsavat Partiyası aprelin 19-da yürüş keçirməklə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə (BŞİH) müraciət etmişdi. Yürüş saat 16:00-da "20 Yanvar" metrostansiyasının yanından başlayaraq Həsən bəy Zərdabi küçəsindən keçməklə, "İnşaatçılar" metro stansiyasının yanındakı "Məhsul" stadionuna doğru hərəkət etməklə başlamalı idi.**

Lakin rəsmi qurum partiyanın müraciətini müsbət cavablandırmayıb. Müsavat Divanı aprelin 20-də keçiriləcək iclasında bununla bağlı qərar qəbul edəcək.

Mitinq Komitəsinin sədri, başqan müavini Elman Fəttah BŞİH-ni məhkəməyə verəcəklərini bildirdi: "BŞİH adi prosedur qaydalarını pozaraq, yürüşlə bağlı müraciətimizə nümayişkaranə şəkildə yazılı cavab verməkdən imtina etdi. Bu, ciddi şəkildə qanun pozuntusudur. Qanunvericilikdə vətəndaşların müraciətini cavablandırmaq tələbi var. BŞİH vəzifə borcunu yerinə yetirmədi. Divanın iclasında bu məsələ müzakirə olunacaq. Çox ehtimal ki, bu, məhkəmə müstəvisinə çıxacaq. Şəxsi fikrimi deyirəm. Hesab edirəm ki, rəhbərlikdə olan şəxslər də fikirlərini bildirəcəklər. Yəqin ki, BŞİH-ni məhkəməyə verəcəyik. Biz yürüşlə bağlı müraciət etmişik. BŞİH-nin bizə mitinqlə bağlı təklifinin özü qanun pozuntusudur. "Sərbəst toplaşmaq azadlığı" geniş məfhumdur. Hakimiyyət BŞİH-nin timsalında insanların hüquqlarını məhdudlaşdırır. Qapalı yerdə mitinq keçirilməsini gündəmdə saxlayır".

Elman Fəttah aksiya ilə bağlı partiyanın qarşıdakı planlarından da danışdı: "Seçki ilini yaşayırıq. Hazırda ölkə iqtisadiyyatı böhran vəziyyətindədir. Kütləvi aksiyalar Müsavatın gündəmindədir. İsrarla aksiyalarımızı davam etdirəcəyik. Müsavat BŞİH-nin planına uyğun yox, öz istədiyi şəkildə aksiyalarını keçirəcək. Hesab edirəm ki, Müsavat yenə yürüşlə bağlı müraciət etməlidir. Belə bir təklif edəcəm. "Sərbəst toplaşmaq azadlığı"nın bərpası istiqamətində fəaliyyətimizi davam etdirəcəyik. Qarşıdakı planlarımız Müsavat Divanının üzümüzə gələn iclasında müzakirə olunacaq. Bu baxımdan növbəti aksiyanın tarixini deyə bilmərəm. Qarşıdan parlament seçkiləri gəlir. Aksiyalar seçki təbliğatının tərkib hissəsidir. Bunlar mütləq olacaq. Aksiyaların tarixini Müsavat Divanı müəyyən edəcək".

❑ **Cavanşir ABBASLI**

# Yol qəzalarında Asiya amili



**Xalid KAZIMLI**

**Bu, son bir ildə yol qəzalarına, qəzalarda ölən və yaralananlara dair neçənçi yazımdır, bilmirəm, statistikasını aparmamışam. Amma bu yazılar qəzaların, qəzalarda ölənlərin və yaralananların faciəvi statistikasından doğur.**

Tək mən deyiləm, son vaxtlar başqa həmkarlarım da istər peşəkar mediada, istərsə də sosial şəbəkələrdə tez-tez bu mövzuda məlumatlar, təəssüratlar bölüşürlər.

Sanki bu, ölkənin başlıca və ciddi problemlərindən biri halına gəlib. Əslində məhz belədir.

Bir neçə gün öncə Ziya Bünyadov prospektində sürətlə işıq dirəyinə çırpılan avtomobilin ikiyə bölünməsi nəticəsində maşının salonunda həlak olan 3 gəncin faciəsi barədə işlədiyi telekanal üçün süjet hazırlayan həmkarımız Mahir Məmmədli fəaliyyəti boyunca çox qəza xəbəri hazırladığını, ancaq bu cür qandonduran mənzərə görmədiyini yazmışdı.

Şərh yazanların çoxu avtomobilin ikiyə bölünməsinə hansı sürətin səbəb olduğunu təxmin etməyə çalışırdı və nəhayət, hadisənin şahidi olan bir nəfər qeyd etdi ki, həmin avtomobil onların yanından saatda 160 kilometr sürətlə ötüb keçib və çox uzaqlaşmadan qəzaya uğrayıb.

Dünən Belçikada yaşayan satirik şair Mirzə Sakit həmin mövzuya qayıdaraq yazıb: "Bu gün yaşadığım şəhərin polis idarəsinə getdim, özümü təqdim etdikdən sonra gəlişimin məqsədini bildirdim.

Onlar da çox mədəni şəkildə məni maraqlandıran məsələnin dəqiq cavabını almağım üçün bu sahə üzrə məşğul olan polis zabitini çağırdılar, bəxtimdən həmin adam da türk idi, məni öz otağına aparıb dinlədikdən sonra statistik məlumatı açdı...

Amma onun tablosunda son məlumatlar 2013-cü ilə qədər olan məlumatlar idi.

Buna baxmayaraq, 2013-cü ildə Belçika ərazisində baş verən yol qəzalarının və həmin qəzalar nəticəsində ölən insanların sayını yazıb götürdüm.

Məlum oldu ki, bir il ərzində Belçikada 1.628 yol qəzası olub və həmin qəzalar nəticəsində ölənlərin sayı 84-dür".

Xatırladım ki, üç il öncə İsveçrədə, İsveçdə, Almaniya və Hollandiyada yaşayan həmkarlarıma (Elxan Həsənli, Rahib Kazımlı, Fəxrəddin Hacıbəyli, Kamal Qasımlı) müraciət edərək yaşadıqları ölkədə qəza statistikası barədə məlumat istəmişdim. Onların göndərdiyi rəqəmlər il ərzində yol qəzalarında ölənlərin sayının 30-60 arasında olduğunu göstərirdi. Bu o vaxt idi ki, ölkəmizdəki yol qəzalarında il ərzində 1068 adam ölmüşdü. Ondan sonrakı il bizdə ölənlərin sayı 1160-ı keçdi.

Ümumiyyətlə, son beş ildə ölkəmizdə yol qəzalarında ölənlərin sayı 1000 rəqəminin üstündə olur. Üç bu qədər də yaralanıb şikəst olanları hesaba alın.

Avropada il ərzində ölənlərin sayı ilə bizdə iki ay ərzində ölənlərin sayı təxminən eynidir.

Bəzi dostlar yazırlar ki, yol qəzalarının bu cür faciəvi statistikası Asiya ölkələrində buraxılan avtomobillərdən çox istifadə etməyimiz üzündəndir. Guya ki, Avropa maşınları Asiya avtomobillərindən daha etibarlıdır.

Əlbəttə, yol qəzalarının faciəvi statistikasında Asiya faktoru var, amma bu, avtomobillərə aid deyil. Biz Avropada istehsal olunan ən etibarlı avtomobilləri Asiya qafası ilə idarə etdiyimizə görə bu duruma düşmüşük.

"Asiya qafası ilə avtomobil idarə etmək" dedikdə, sükan arxasına içkili keçmək, yüksək sürətə meyillilik, yol hərəkəti qaydalarına məhəl qoymamaq, daima "mənə heç nə olmaz", "hamı mənə yol verməlidir, görmürlərmi gəlirəm" düşüncəsiylə hərəkət etmək, özünü göstərmək, qızışmaq və sair və ilaxır daxildir. Bunların hamısı faciəyə aparır.

Adi bir misal. Ötən həftənin ortalarında reportyorumuzla Ziya Bünyadov prospektindəki tunellər silsiləsindən keçirdik. Ondan xahiş etdim ki, tuneldə avtomobilinin qabarit işıqlarını yandıran sürücüləri saysın. Saydı və dedi ki, gördüyü 10 maşından cəmi ikisi işıqlarını yandırıb.

Tunel qaranlıq idi və üç metr irəlidəki, üç metr geridəki avtomobillər görünmürdü, amma sürücülər özlərinə zəhmət verib işıqlarını yandırmırdı, tunelə bu cür girir, bu cür də çıxırlar.

Təhlükəsizlik kəmərini qurşamamağa görə hər gün minlərlə sürücüyə cərimə yazılır, amma xeyri yoxdur, yenə də bir xeyli sürücü qurşamır, hətta daha pisi, bunu əskik iş hesab edirlər.

Nəticə isə göz qabağındadır. Nadan, bisavad, korafəhim, qaba, ötkəm adamların sürücülük vəsiqəsini pul-para ilə satın aldığı ölkədə vəziyyət bundan fərqli ola bilməz.

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015


Hacıbala Abutalıbov

# “Olimp” MTK-nın sakinləri Hacıbala Abutalıbova müraciət etdilər

## Sakinlər: “Binamızın inşası 2008-ci ildən indiyədək tamamlanmayıb, üstəlik kompleksin həyətini zəbt edib qanunsuz tikinti işləri aparırlar”

**Bakı şəhəri, Binəqədi rayonu, Əcəmi Naxçıvani 3068 ünvanında, “Elit” ticarət mərkəzinin arxasında yerləşən “Olimp” mənzil-tikinti kooperativinin binasının sakinləri 2008-ci ildən öz mənzillərində bərbad həyat tərzi sürməyə məhkum olublar. Neçə il bundan əvvəl tamamlanması nəzərdə tutulan inşaat və təmir işləri bu günə kimi yekunlaşmayıb və dayandırılıb, lakin kompleksin həyətində olan 3000 kv.m uşaqlar üçün nəzərdə tutulan sahəni zəbt edib və qeyri-qanuni yolla orada tikintini davam etdirirlər. Bu barədə müsavat.coma binanın sakinləri məlumat veriblər.**

Sakinlərin sözlərinə görə, bu haqda onlar BŞİH-nə dəfələrlə müraciət etmişlər və keçən il BŞİH rəhbərliyi məsələni aydınlaşdırmaq üçün oraya nümayəndələrini göndərib. “BŞİH-nin əməkdaşları kompleksin texniki layihəsi ilə tanış olandan sonra həyətdəki bütün qeyri-qanuni tikililəri sökməyə qərar veriblər, lakin bu günə qədər heç bir tədbir görülməyib. Həyətimizin zəbt olunması davam olunur, tikintilər intensiv şəkildə gecə-gündüz aparılır və bizim - payçıların - hüquqlarımızın pozulması yenə də davam olunur. Bizi heç kəs saymır və eşitmək istəmir. Bir azdan həyətimizdən bir şey qalmayacaq. Binəqədi rayonunda hər gün müxtəlif yerlərdə abadlaşdırma işləri aparılır, qeyri-qanuni tikintilər sökülür, lakin bizim kompleksimiz unudulub. Bütün bunlara görə biz bu günədək kupçalarımızı ala bilmirik və öz evlərimizə qeydiyyata düşə bilmirik”, - deyə kompleksin sakini, əmək veteranı Məmməd Eyvazov söyləyib.

Həmin binanın həyəti, qarajı, blok və hətta yolları da normal yaşayış şərtlərinə uyğun gəlmir və MTK rəhbərliyi tərəfindən heç bir abadlaşdırma işləri aparılmır. Bundan başqa, sakinlər “Olimp” MTK-nın işçiləri tərəfindən onlardan qeyri-qanuni yolla pul yığılmasından narazıdırlar və onlar BŞİH-nin başçısı Hacıbala Abutalıbova müraciət göndəriblər. Müraciətdə deyilir: “Son 7-8 il müddətində ”OLİMP" MTK-da daimi şəkildə, rəsmi olaraq hansı vəzifəni icra etdiyini bilmədiyimiz, lakin MTK haqqında bütün məlumatlardan xəbərdar olan Fazil Xəlilov adlı bir şəxs çalışır. Bu şəxs heç bir məsuliyyət daşımasa da, qüvvədə olan qanunlara zidd olaraq hazırda binada yaşayan sakinlərdən, onun səlahiyyətinə aidiyyəti olmayan “kommunal xidmətlər” üçün müqavilə bağlamadan pul yığır. Həmçinin maşınların park olunmasına görə avtomobil sahiblərindən də əlavə pul toplayır və heç bir sənəd bizimlə imzalamaq istəmir ki, bu proses rəsmiləşdirilsin. Bu yığılan pulların rəsmi olaraq haraya və kimlərə getməsindən də yalnız bu şəxs xəbərdardır. Cari ilin 11 mart tarixində F.Xəlilov bizim binanın sakinlərini - payçılarını ofisinə çağıraraq bildirdi ki, binamızın tez bir zamanda dövlət qeydiyyatından keçməsi üçün sakinlər Bakı Şəhər İcra Hakimiyyətini məhkəməyə verməlidir. Nə üçün MTK rəhbərliyini yox, BŞİH-ni məhkəməyə verməyə bizi təhrik etdiyini soruşduqda, o, “belə lazımdır, bu variant daha uyğun düşünülüb” cavabını verdi. Hesab edirik ki, “cənab” F.Xəlilov, onun arxasında duran və onu istiqamətləndirən şəxslər çox yanılırlar və sakinləri də yanlış yola yönəltməyə çalışırlar. Məhz bu səbəbdən, biz Sizə müraciət edib, bu problemlərə müdaxilə etmənizi və “Olimp” MTK yaşayış kompleksinin dövlət qeydiyyatından keçməsi prosesini qısa müddətdə başa vurmasını MTK rəhbərliyindən tələb etmənizi Sizdən xahiş edirik!"

Bundan başqa, kompleksin sakini Məmməd Eyvazovun sözlərinə görə, “Olimp” MTK-da uzun müddətdir ki, heç direktor vəzifəsini icra edən səlahiyyətli şəxs yox idi: “MTK-nın əməkdaşları bizimlə çox kobud rəftar edirlər. Sədr buralara gəlmir, bütün işləri Fazil Xəlilova həvalə edib. Bu günlərdə isə MTK-da yeni şəxslər ortaya çıxıblar (Lətif və Bahadur müəllim) və Fazil Xəlilov bildirib ki, bundan sonra pul yığımı ilə onlar məşğul olacaqlar. Sakinlər bütün bunlardan çox narazıdırlar və belə davam olunsa, ”Olimp" MTK-nın 1200 sakini artıq daha yüksək dövlət strukturlarına müraciət edəcək. Xahiş edirik ki, bu məsələdə bizə köməklik göstərəsiniz ki, biz tezliklə normal şəraitdə yaşaya bilək".

❑ M.MAHRIZLI

# Vergilər Nazirliyində silahlı insident ola bilər

## Nazirliyin əsassız həbslərlə bağlı dəfələrlə gündəmə gələn Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində kadr təyinatı ilə bağlı ciddi qalmaqal yetişir; səbəblər - bu yazıda...

**Vergilər Nazirliyi Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində (VCİAD) silahlı insident ola bilər. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, VCİAD-da son vaxtlar baş verən hadisələr orada çalışan hər kəsin əsəblərini tarıma çəkib.**

Qaynağımız qeyd edir ki, aprelin 15-də VCİAD İstintaq İdarəsinin rəisi, polkovnik Şahin Rüstəmov çox hörmətsiz şəkildə təqaüdə göndərilib: “Departamentin rəisi Vidadi Məmmədov qocaman istintaqçı, 20 ildən çox istintaq orqanlarında rəhbər vəzifələrdə çalışmış Şahin Rüstəmovu növbəti məzuniyyət vaxtı təqaüdə göndərib. Vidadi Məmmədov Departamentin təməlini qoyan ağsaqqalı bir iclas edib hədiyyə verməklə hörmətli şəkildə yola salmadı. Şahin Rüstəmov 40 ildir ki, hüquq-mühafizə orqanlarında işləyirdi, peşəkar, savadlı idi”.

Mənbə bildirir ki, Vidadi Məmmədov Şahin Rüstəmovun yerinə 1986-cı ildə anadan olmuş, heç 1 il belə müstəntiq işləməyən, mayor rütbəsini nəyə görə vaxtından əvvəl aldığı bilinməyən Elmir Şirinovu hazırlayır: “Bu şəxs olduqca orta səviyyəli hüquqşünas, əvvəllər Vergilər Nazirliyində Məmmədovla birlikdə işləmiş, sonradan VCİAD-da vəziyyətin daxildən öyrənilməsi üçün onun tərəfindən göndərilib. Elmir Şirinov VCİAD-da müstəntiq işləyib, 1 neçə aydan sonra Vidadi Məmmədov onu bölmə rəisi, sonra şöbə rəisi, az sonra isə idarə rəisinin müavini vəzifəsinə təyin etdirib. Onun yerinə isə yenə də Məmmədovun yaxını, qrup yoldaşı Tariyel Tağıyev gətirilib.



Yəni Elmir Şirinov toparlayıb öz yanına yığdığı müstəntiqləri yenə rəisin favoriti olan Tariyel Tağıyevə təhvil verib. Tariyel və Vidadi Məmmədov hüquqşünas diplomlarını bir neçə il əvvəl alıblar”.

Qaynağın sözlərinə görə, hazırda Departamentin İstintaq İdarəsi 2 yerə bölünüb: “Bizimlə işləyən” və bizim olmayan müstəntiqlər var. Şirinovun dəstəsində Nəriman Məcidov, Zamiq Bağırov, Taleh Mənsimov və s.-dir. Lakin onlar heç də yalnız büdcəyə işləmirlər. Bu gün guya dövlət büdcəsini doldurmaq məqsədi ilə sabiq gömrük rəisi Tahir Əliyev demişkən “rüsum da, pul da yığırıq”. Amma yığılan məbləğlərin hansının özlərinə götürdükləri, hansının isə dövlətə ödənilən rüsum olduğunu kimsə bilmir. Hazırda hamı Vidadi Məmmədovu gözləyir. Rəsmi olaraq Qurban Mehrəliyev rəisi əvəz etsə də, müstəntiqlərə onun otağına getmək qadağan olunub".

Mənbəmiz bildirir ki, yaranmış vəziyyət hər an silahlı münaqişəyə çevrilə bilər: “Bu gün İstintaq İdarəsi rəisinin 3 müavini var və onlardan ikisi formaldır - Ruslan Səfər oğlu Əbiyev və Qurban Mehrəliyev. Əlbəttə ki, bütün iş yükünü öz çiyinlərində Elmir Şirinov vətənə böyük sevgi ilə daşıyır. E.Şirinovun polkovniklərə, polkovnik-leytenantlara rəis təyin etmək səlahiyyətində olması V.Məmmədovun Vergilər Nazirliyi üzərində böyük bir qələbəsidir. E.Şirinovla müstəntiqlərin münasibətləri kəskindir, otağında daim qışqır-bağırdır”.

Qaynağımız əlavə edir ki, VCİAD əsassız həbslərlə bağlı dəfələrlə gündəmə gəlib. Bundan sonra da qurumun diqqət mərkəzində olacağı şübhəsizdir: “Məsələ ondadır ki, belə bir cavan kadrın - Elmir Şirinovun təyinatından sonra vergi cinayəti törətmiş oğulun əvəzinə anası da tutula bilər. Onu demək lazımdır ki, artıq Şirinova rəis deyə müraciət edənlər də var...”

İş günü olmadığından məsələ ilə bağlı Vergilər Nazirliyinin mövqeyini öyrənə bilmədik. Buna baxmayaraq, nazirliyin fikirlərini də dərc etməyə hazırıq.

❑ E.HÜSEYNOV

# Mehriban Vəzirdən Rasim Balayevə sərt cavab...

## Xalq artistinin Elçibəy hakimiyyəti barədə dedikləri etirazla qarşılandı

**Xalq artisti Rasim Balayevin aprelin 18-də “Teleqraf” qəzetində geniş müsahibəsi dərc olunub. Onun Elçibəy hakimiyyəti dövrü, siyasi partiyalar və demokratiya barədə səsləndirdiyi bəzi fikirlər cəmiyyət tərəfindən etirazla qarşılanıb.**

**Xalq artistinin əsas narazılıq doğuran fikirləri bunlardır: “Azərbaycan Xalq Cəbhəsi dövründə günlərlə meydanda qalırdım. Hadisələr elə gətirdi ki, bunlar hakimiyyətə gəldilər. Elə səhvlər buraxdılar ki, demokratiyaya nifrət elədim.**

Düşündüm ki, demokratiya belə özbaşınalıqdırsa, bunu heç istəmirəm. Heç bir partiyaya üzv olmadım, sadəcə, o proseslər zamanı hərəkata qoşuldum. Bizdə belədir ki, bir partiyaya üzv olursansa, o biri partiya sənə düşmən kimi baxır”.

Yazıçı-publisist Mehriban Vəzir bu cür fikirlərin kiminsə xoşuna gəlmək istəyindən doğduğunu söylədi: “1988-ci ildən sonra ölkədə baş verənləri və AXC hakimiyyətini anlamaq üçün, həmin situasiyanı xaos deyil, durğunluqdan çıxıb canlanma kimi, eləcə də, insanların mənliyi, ləyaqətinin özünə qaytarılması dövrü kimi başa düşmək üçün, müəyyən səviyyə sahibi olmaq lazımdır. Biri şair, biri rəssam, digəri yazıçıdır. Ola bilsin ki, bunlar sənət adamları olsunlar. Amma həmin dövrü anlamaq onlara nəsib olmur. Ona görə də Rasim Balayevi qınaya bilmərəm. O bilə bilməz ki, ölkədə nə baş verir. Bəlkə də kiminsə xoşuna gəlmək üçün Elçibəy hakimiyyətini pisləyib. Belədirsə, şəxsi işidir. Amma hər halda yenə deyirəm ki, həmin dövrü anlamaq üçün müəyyən siyasi,


Mehriban Vəzir


Rasim Balayev

ictimai, mədəni səviyyə olmalıdır”.

Mehriban Vəzir xalq artistinin partiyalara üzv olmaqla bağlı fikirlərinə də münasibət bildirdi: “Gedən bəzi proseslərdən o nəticəni çıxarmaq olar. Partiyalar bir-biriləri ilə düşmənçilik yox, rəqabət aparırlar. Bəzən funksionerlərin ”söz deyişməsi" həddi aşa bilər. Bu, düşmənçilik deyil. Buna müasir dünyanın tələbləri kimi baxmaq lazımdır. Dünyanın hər yerində rəqabətdə olan partiyalar “söz savaşı”nda olurlar. Sovet dövründən çıxmış, həmin dövrün təfəkkürünü bu günə qədər gətirib çıxaran adamlar üçün mövcud situasiyanı anlamaq çətindir".

R.Balayevin “demokratiya özbaşınalıqdır” fikirlərinə yazıçı-publisistin cavabı daha maraqlı oldu: “Rasim Balayev bir müddət öncə çox ağıllı söz demişdi: ”Məndən Babək, Nəsimilik gözləməyin, o gücdə deyiləm. Sadəcə, həmin rolları oynamışam". Bu qızıl hərflərlə yazılası sözdür. Onun öz gücü haqqında dedikləri həqiqət idi. Bunu hər adam da deyə bilmir. Sovet dövründən çıxan insanların əksəriyyəti Xalq Cəbhəsi dövrünü xaos adlandırırlar. Bilirsiniz niyə? Çünki uzun illər onlara insan kimi davranmağa imkan verməmişdilər. İnsan kimi özlərini ifadə edə bilməmişdilər. Əgər bir müdir gəlirdisə, ondan aşağı olan şəxs ölü kimi dayanmalı idi, səsini çıxara bilməzdi, rəhbərə heç nə demək olmazdı. İnsanlar heç nəyə etiraz etməmək, qorxu altında yaşamaq dövrünün ictimai şüurunu yaşayıblar. Ona görə də köhnə adamlar həmin dövrü xaos adlandırırlar. Buna etiraz edirəm. Qətiyyən həmin dövr xaos deyildi. Həmin dövr yeni, canlanma dövrü idi. Sovet dövrünün təfəkkürlü insanları düşdükləri situasiyanı anlamaq gücündə deyildilər. Ona görə onların dediklərinin başına ip sallamaq lazım deyil. Çünki anlamağa gücü çatmır. Xaosla demokratiyanı anlaya bilmir. Gücü çatmırsa, biz ondan heç nə gözləyə bilmərik".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015

# "Dərmanların qiymətlərinin aşağı salınması 100 faiz gözləniləndir"

## "Avromed"in təsisçisi Cavanşir Feyziyev: "Bizim qiymətlər 3 il qabaq necəydisə, bu gün də elədir"

**"Baxış bucağı"**

**Ölkə prezidentinin son xəbərdarlıqlarından sonra dərmanların qiyməti və keyfiyyəti ilə bağlı müzakirələr yenidən ciddi şəkildə gündəmə gəlib. Qeyd edək ki, dövlət başçısı hökumətin toplantısında ölkə bazarındakı dərmanların qiymətinin yüksək olduğunu deyərək idxalçılara xəbərdarlıqlar edib. Bu mövzunu ölkənin iri dərman idxalçısı və daşıyıcısı olan "Avromed" şirkətinin təsisçisi, Milli Məclisin və Mətbuat Şurasının İdarə Heyətinin üzvü Cavanşir Feyziyevlə müzakirə etdik.**



**"Monopoliya olsaydı, bazarda qiymətlər eyni olardı"**

*- Cavanşir bəy, "Avromed" şirkətinin təsisçisi olaraq dərmanların qiyməti ilə bağlı prezidentin dediklərindən şəxsən siz hansı nəticələri çıxarmısınız, Azərbaycanda dərman preparatlarının hətta qonşu ölkələrlə müqayisədə baha olması fikri ilə razılaşırsınızmı?*

- Əlbəttə, cənab prezidentin dediyi tamamilə doğrudur və bu barədə söhbətlər həm mətbuatda, həm xalq arasında çoxdan danışılır. Eyni zamanda, Milli Məclisdə də fikirlər səslənib. O cümlədən mən də iclasların birində ölkədə dərman preparatlarının baha olduğunu qeyd etmişdim.

*- Bahalığın səbəbi nədir?*

- Azərbaycanda dərmanların baha olduğunu hamı təsdiqləyir, amma bunun səbəbləri müxtəlif cür yozulur. İlk növbədə Azərbaycan vətəndaşının ağlına gələn ilk fikir o olur ki, monopoliya olduğundan qiymətlər bahadır. Amma əslində belə deyil. Azərbaycanın əczaçılıq bazarında 350-yə yaxın şirkət fəaliyyət göstərir, idxalla məşğuldur. Onlardan biri "Avromed"dir. Onların içərisində həcmcə nisbətən böyük, yaxud kiçikləri var. Müqayisə üçün deyək ki, əhalisi Azərbaycandan 7 dəfə çox olan Almaniyada idxal işi ilə cəmi iki şirkət məşğul olur. 80 milyonluq Türkiyədə iki böyük, bir neçə xırda idxalçı şirkətlər var ki, onlar ancaq spesifik tibbi məhsulların idxalı ilə məşğuldur. Azərbaycanda isə bu işlə 350 şirkət məşğul olur.

*- Ancaq daha çox "Avromed"in adı hallanır. İnhisarçı şirkətlərdən biri kimi təqdim olunur, niyə?*

- Bəli, adı hallanır. Amma inhisarçılığın əlamətləri olmalıdır. "Avromed" şirkətinin özünün idxal etdiyi məhsullar ölkəmizə gətirilən məhsulların yalnız 25 faizini təşkil edir. Məsələ bundadır ki, "Avromed" dərman idxal etməklə yanaşı, həm də dərmanların apteklərə çatdırılması üçün nəqliyyat xidməti göstərir, logistika ilə məşğul olur. Bu logistika qolu təkcə "Avromed"in idxal etdiyi dərmanları deyil, eyni zamanda, bunun üçün müraciət edən bütün digər idxalçı şirkətlərin satmaq istədiyi dərman preparatlarını da sifariş əsasında apteklərə çatdırır. Ona görə də şəhərdə gördüyünüz çoxsaylı "Avromed" maşınlarının daşıdığı sifarişlər əsasında dərman preparatlarının yalnız 25 faizini "Avromed" ölkəyə idxal edir. Qalan 75 faizi digər idxalçı şirkətlərin məhsuludur. Biz, sadəcə, onlara çatdırma xidməti göstəririk.

*- Durumu qonşu Gürcüstan və İranla müqayisə edək. Xəstələrimiz ya bu ölkələrə üz tutur, ya da dərman gətirtməyə çalışırlar. Həmin ölkələrdə də daşınma, digər xərclər var, niyə dərman bizdən ucuzdur? Bizdəki bahalıq yanacağın qiyməti ilə bağlıdır, yoxsa gömrük şərtləri ağırdır?*

- Yox, indiyə qədər izah etdiyim hissə monopoliya iddiasında olan suallarla bağlı idi. Azərbaycanın əczaçılıq bazarında monopoliya nəinki yoxdur, hətta bundan danışmaq belə mümkün deyil. Çünki bu gün 350 şirkət bu işlə məşğul olur. Bu şirkətlərin adı da hamıya məlumdur, hər birinin sənədi var, hər birinin adına xaricdən məhsul daxil olur.

*- Məntiq onu deyir ki, 350 şirkətin bir çoxu nəinki sizin kimi dörddə bir, heç olmasa onda bir idxal payına malik olmalı idi. Niyə belə deyil?*

- Kimsə bazarın 2, kimsə 5 faizini təşkil edir. Çünki bunların içərisində bir qismi var ki, yalnız spesifik dərmanları gətirir və s.

*- Yəni deyirsiniz "Avromed" hansısa gizli razılaşmaya getmir ki, digər hansısa şirkətlərin burdakı fəaliyyəti məhdudlaşdırılsın?*

- Yox, qətiyyən. Mane olsaydıq, bazarın 75 faizinə dərmanı digər şirkətlər yox, elə "Avromed" özü gətirərdi.

*- Ancaq dərman niyə qonşu ölkələrdə ucuz, bizdə bahadır, sualıma cavab almadım...*

- Çox qəribə bir situasiya var. Azərbaycanda dərman preparatları ilə bağlı olan bütün əməliyyatların həyata keçirilməsi həddindən artıq liberaldır. Heç bir ölkədə bu qədər liberallıq yoxdur. Bunun nəticəsi olaraq yüzlərlə belə şirkət yaranır və bu sahə ilə məşğul olur. Sözsüz ki, bu şirkətlər arasında bir rəqabət mühiti yaranır. Azərbaycan Səhiyyə Nazirliyi 4500 adda dərman preparatını qeydiyyatdan keçirib. "Avromed" təkcə dərman preparatı idxal etmir, eyni zamanda, qeydiyyatdan keçmiş dərman preparatlarını, tibbi vasitələri idxal edir. Həmçinin, çox sayda bioloji aktiv əlavələr, uşaq qidaları, gigiyenik-kosmetik vasitələr idxal olunur. Bunlar əczaçılıq bazarının məhsullarıdır, amma dərman deyil. İdxalla məşğul olan şirkətlərin sayı artdıqca onlar arasında rəqabət daha da güclənir.

*- Rəqabət gücləndikdə qiymət aşağı düşməlidir...*

- Bəli, burda əksi baş verir, tamamilə doğrudur. Səbəbini deyəcəyəm. Bu halda məhz rəqabətdən qiymət artımı yaranıb.

*- Hamı istəyir ki, malını satsın, alıcı da kifayət qədərdir. Sadəcə, qiymətlərin başı üstündə sanki bir dəmir əl var, yalnız yüksəldilməsini diktə edir. Elə deyilmi?*

- Yox, bu, belə deyil... Doğrudan da azad rəqabətdə qiymət aşağı düşməlidir. Ancaq əksinə, həddindən artıq azad rəqabət olduğundan bu hal baş verir.

*- Axı, əhalinin alıcılıq qabiliyyəti nəzərə alınmalıdır. Bütün bunlar nəzərə alınmırsa, son nəticədə etirazlar ölkənin rəhbərliyinə yönəlir. Bu fikri bölüşürsünüzmü?*

- Bəli, o baş verir. Ancaq dediyim kimi, 300-dən çox şirkət ölkənin idxal bazarına öz məhsullarını idxal edir. Bir çox hallarda onların idxal etdikləri mallar eyni olur. Deyək ki, bu gün 30, ya 50 şirkət bazara bint gətirir. Deməli, hər şirkət çalışır ki, onun binti daha çox satılsın. O halda isə hər bir firma özünün marketinq fəaliyyətini gücləndirir, əlavə işçilər götürür, o işçilər malı daha çox reklam etməklə, tanıtmaqla məşğul olur. Nəticədə marketinqdə uğur qazanan firmanın malı daha çox satılır. Marketinq sahəsinə qoyulan xərclər isə malın maya dəyərinin üzərinə gəlir.

*- Nə qədər?*

- Bəzi hallarda 100 faiz, bəzi hallarda 200 faiz və s.

*- Bəs, alıcı yazıq nə etsin? Amma məncə, Azərbaycanın ən ucqar nöqtəsində də ucuz dərman satılarsa, heç marketinq xidmətinə ehtiyac qalmaz və əhali İrandan dərman gətirtməkdənsə, gedib ordan alar...*

- Doğrudur. Amma dediyim hal baş verdiyinə görə və rəqabət sonsuz ola bilməz deyə, qiymətlər tənzimlənməlidir. Zərurət burda yaranır.

*- İlk addımı siz ata bilərsiniz, deyilmi?*

- "Avromed"in idxal etdiyi malların hamısı ciddi firmaların, dünyanın ən böyük istehsalçı şirkətlərinin məhsuludur. Onların nümayəndəlikləri də burdadır. Bizim şirkətin satdığı qiymətlər dövlət və eyni zamanda istehsalçı şirkət tərəfindən tənzimlənir. İmkan verməzlər ki, onların istehsal etdiyi məhsul çox baha qiymətə satılsın. Lakin o şirkətlərin ki, burda nümayəndəliyi yoxdur, onların məhsullarına rəqib olan onlarla mal mövcuddur, bu firmalar öz aralarında rəqabət apardıqca, bu rəqabətdə qalib çıxmaq üçün hər biri daha çox pul xərcləyir. Təbii olaraq bu pullar malın maya dəyərinin üzərinə gəlir.

*- Bu prosesi dayandırmağın çıxış yolu kimi nə təklif edirsiniz?*

- Yeganə çıxış yolu bu qiymətlərin son həddinin dövlət tərəfindən tənzimlənməsidir. Azərbaycan birinci ölkə deyil ki, belə hal yaşanır və sonuncu ölkə də olmayacaq. Əczaçılıq bazarı, yaxud buna bənzər digər məhsulların bazarında, yəni rəqabətin güclü olduğu sahələrdə qiymətlərin son həddi tənzimlənmirsə, fəaliyyət özü qiyməti qaldırır. Cənab prezident də eşidir, görür ki, əhalidə narazılıq var. Odur ki, hörmətli prezidentin təşəbbüsü ilə qiymətlərin tənzimlənməsi barədə qanun layihəsi hazırlanıb parlamentə göndərildi, müzakirədən sonra qəbul olundu. Bundan sonra cənab prezident özü fərmanı ilə bu qanunun tətbiqinə dair sərəncam imzaladı.

*- Ancaq yenə prezident narazıdır, xüsusilə də qiymətlərdən. Onda nə etməli?*

- Bundan sonra müvafiq icra hakimiyyəti orqanları bunun mexanizmini hazırlayıb tətbiqini həyata keçirtməlidir.

*- Amma elə prezidentin xəbərdarlığından sonra "Avromed" qiymətləri endirdiyini elan edə, nümunə göstərə bilərdi. Buna gedilə bilərmi, yoxsa dolların kursu bu ehtimalı sıfırlayıb?*

- Yox, bizim qiymətlər bir il qabaq necəydisə, bu gün də elədir. Bizim qiymətlər 3 il qabaq necə idisə, bu gün də elədir.

*- Dollardan sonra?*

- Bahalaşmayıb. Niyə? Bayaq dediyim kimi, bizimlə çalışan şirkətlər dünyanın böyük şirkətləridir. Onlar hamısı devalvasiya hadisəsi ilə müxtəlif ölkələrdə rastlaşıb. Belə hadisə baş verəndə adətən, devalvasiyadan doğan qiymət fərqi istehsalçı tərəfindən qarşılanır.

*- Deməli, bizdə dərmanlar o qədər bahadır ki, hətta həmin firmalar qiyməti qaldırsa belə, bu fəaliyyət idxalçılar üçün sərfəlidir?*

- Yox. Hansı ölkələrdə dərmanların qiyməti dövlət tərəfindən tənzimlənirsə, istehsalçı şirkətlər o ölkəyə satdıqları məhsulların qiymətini həmin qanuna uyğun tənzimləyirlər. Bu vaxta qədər Azərbaycanda belə bir qanun olmadığı üçün istehsalçı şirkətlər dərmanlarını Azərbaycana digər ölkələrə verdikləri qiymətlərdən bir az daha yüksək qiymətə satırdılar. Bu, hamıya məlum olan faktdır. Soruşanda ki, niyə Rumıniya, Bolqarıstana bizdən ucuz satırsınız, deyirdilər ki, onlarda qiymətləri tənzimləyən qanun var və biz onlara dediyimiz qiymətə versək, idxalçılar bunu sata bilməz. Ona görə də biz çox maraqlı idik ki, qiymətlər tənzimlənsin.

*- Yəni gözləyirsiniz ki, hökumətdən qərar gələcək və dərmanların qiyməti enəcək?*

- Əlbəttə.

*- Qiymətlərin aşağı salınması nə dərəcədə gözləniləndir?*

- 100 faiz gözləniləndir. Nəinki gözləniləndir, bu qanunun qayəsi, məqsədi elə budur. Baxın, deyək ki, ölkə bazarlarında eyni formulaya malik olan 20 adda dərman preparatı var. Bunun biri 3, digəri 5, o biri 12 manatadır. Hər bir şirkət həmin dərmana özünün ticarət əlavəsini qoymaqla qiymət təyin edib. Bu qiymətlərə kimsə nəzarət etmir. Ona görə də eyni dərman bazara müxtəlif qiymətə təqdim olunur. Öz-özlüyündə bu da bazarda monopoliya olmadığını sübuta yetirir. Çünki monopoliya olsaydı, bazarda qiymətlər eyni olardı. Ona görə də həmin formula üçün son qiymət həddini təyin edib desələr ki, məsələn, bu dərmanın bizim bazarda qiyməti 3-15 manat arasındadırsa, həmin müvafiq icra hakimiyyəti orqanları həmin dərmana konkret qiymət təyin edəcək, deyəcək ki, 5 manata qədər sata bilər. Deməli, adından asılı olmayaraq bütün şirkətlər dərmanı bu qiymətdən aşağı satacaq.

*- Sizə elə gəlmir ki, bu cür inzibati yol sərbəst bazarın qaydalarına uyğun gəmir?*

- Bazarı tənzimləmək üçün yeganə yol həmin qanunun qısa zamanda tətbiqindən ibarətdir.

*- Dərmanların keyfiyyətindən çoxsaylı şikayətlər var. Hətta sifarişçi tərəfin Avropa bazarına daha aşağı keyfiyyətli dərman sifariş etdiyi barədə məlumatlar var...*

- Birincisi, dünyada nüfuzlu dərman istehsalçısı olan şirkətlər elə işlərə heç kimin xahişi, müraciəti ilə getməz. Çünki bu şirkətlərin 100-200 illik tarixi var. Həmin şirkətlərin istehsal etdiyi dərmanlar dünya şöhrətli alimlərin ixtiralarına əsaslanır. Yəni onlar belə oyunlara getməzlər.

*- Amma bazarda belə dərmanlar da var...*

- Nəzəri olaraq belə hallar gizli zavodlarda, yaxud tanınmayan istehsal müəssisələrində istehsal oluna bilər. Son 10 il ərzində mən ən azı iki dəfə eşitmişəm ki, Azərbaycanda da gizli sex aşkarlanıb və insanlar həbs olunub. Yəqin ki, belə hallar başqa ölkələrdə də var, ola bilər ki, kimsə belə dərmanları ordan gətirsin. Amma Səhiyyə Nazirliyi nəzdində ekspertiza laboratoriyası var. Azərbaycana daxil olan mallardan gömrük məntəqəsində nümunələr götürülür, həmin laboratoriyaya aparılır, orda yoxlanılır, müvafiq icazə verilməsə, o mal Azərbaycan sərhədindən keçmir. Ona görə də əgər belə mal varsa, o, qaçaqmal olmalıdır. Çünki rəsmi şəkildə ölkəmizə idxal olunan bütün dərman preparatları Səhiyyə Nazirliyi tərəfindən yoxlanılır və xüsusi rəy verilir.

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015



# Cancanadır, cancana

Zamin HACI
zaminhaci@gmail.com

**Bir dostumuza İtaliyadan qonaq gəlibmiş, burdakı vəziyyəti görüb dostumuzu xeyli danlayıbdır. Deyib bu nə gün-saatdır siz yaşayırsınız, axı nə üçün inqilab eləmirsiniz, İtaliyada korrupsiya olsa da sizdəki qədər deyil, sizin inkişafda İtaliyaya çatmağınız üçün iki nəsil dəyişməlidir, mərkəzdə tikdiyiniz dəbdəbəli binalar saxtakarlıq örnəyidir və sairə.**

O məşhur bayatımızda deyilən kimi, "gör nə günə qalmışam, bəyənmir bu da məni". Dünya üzərində mafiyanın, "Koza Nostra"nın vətəni kimi tanınan, korrupsiyaya bulaşan, adı arvadbazlıqda çıxan baş nazirlərinə küçə süpürdən, pornoulduzu deputat seçən bir camaat bizə lağ edir. Hələ onu demirəm ki, dövlətləri xəritədə ayaqqabıya oxşayır. Buna görə utanın ey! Bizim qartala oxşayan respublikamızla nə işiniz var? Düzdür, hazırda quyruq tərəfini alçaq düşmənlər bir qədər yolubdur, ancaq problem deyil. Lazım gəlsə ora tük əkərik.

Qartal demişkən, bu yaxında xəbər gördüm, YAP Bərdə rayon təşkilatının üzvü olan gənclər yerli polis şöbəsinin mayoru ilə birgə 30 qırqovul yetişdirib Kür qırağı meşələrə buraxmışdılar. Tədbir "Ana təbiəti qoruyaq" adlanırmış. Çox maraqlı, geopolitik məsələ idi, çünki ərəb şeyxləri şahinləri ilə vaxtaşırı ölkəmizə quş ovuna gəlməyə başlamışdır. Şahinlərin tutması üçün qırqovul tədarükü görmək məqsədəuyğundur. Hansı məqsədə, onu siz bilməzsiniz. Siz yaxşı olar qırqovul becərilməsində vətəndaş borcunuzu həyata keçirin. Bərdəlilər bu əmək fəaliyyətlərinə görə qarşıdan gələn deputatxana seçkilərində Zahid Orucun növbəti dəfə deputat qoyulacağı ilə mükafatlandırılıblar. Özlərini yaxşı aparsalar Zahid müəllimə Bərdəni Makedoniyada təmsil eləmək hüququ da veriləcəkdir.

Bundan başqa, hazırda dünyada proseslər Azərbaycana oxşamaq istiqamətində gedir. Özbəkistanın daimi və dönməz ulu öndər prezidenti İslam Kərimov təzəlikcə 40-cı dəfə prezident seçildi, hardasa 400 faiz səs yığdı. Bunun andiçmə mərasimində çıxışını dərc eləyiblər, İslam müəllim sözün əsl mənasında hətərən-pətərən danışıbdır. Sitat: "Biz heç vaxt lovğalanmırıq. Bizim ÜDM-miz 8 faiz artıb. Bundan ötrü hazırlıqlar görülmüşdü. Hər gün hazırlıq gedirdi. Müstəqil olandan bəri biz planlar cızırıq. Bizim beş prinsipimiz var, biz heç zaman, heç yerdə, istər böyük tribina olsun, istər kiçik, heç vaxt özümüzü göstərmirik. Əgər lazım olarsa, mən yenə də deyəcəm, lovğalanmaq lovğalanmaqdır, kim lovğalanırsa, lovğalanmaq bir ölkəyə aiddir, hansının ki adı var və biz o yolla getmirik".

Tanış gəldimi? Bizdə 200 ildir Elmar Məmmədyarovla Artur Rasizadə bu cür danışır, heç bir problem də yaranmır. Demək dövlətçilik siyasətimiz artıq Özbəkistana təsir eləyir.

Misal üçün, bir də görürsən Elmar müəllim deyir: "ATƏT-in Minsk qrupu danışıqlarda prinsiplərin aparılması məsələ ondadır ki, suverenlik təmin olunması ərazi bütövlüyündə bizə söz deyilməsi əhəmiyyətli addımdır, çünki istəsək Qarabağda yaxşı armud bitir". Xalq da bunu alqışlayır. Alqışlamasa adam 200 il nazir qoyula bilərdimi?

Yaxud, Artur müəllim baş nazir işlədiyi 300 il müddətində xalqımızın qan yaddaşına bu vacib çıxışı ilə möhür vurmuşdur: "Mən deyirəm qışda təzə xiyar yeməyəsiniz çünki bu zaman inflyasiya baş verir, mənim də başım ağrıyır, çünki mən öz-özlüyündə baş nazirəm. Özü də məndən yazmaq asandır, hələ heç kimi tutdurub Kürdəxanı türməsinə salmamışam, hünəriniz varsa dövlət başçısını da tərif edin. Ən düzgünü olar ki, biz hamımız xarici maşınlara minək, çünki burda inkişaf göstəricisidir. Çıxışımın sonunda Elmar müəllimi dəstəkləyərək demək istəyirəm ki, doğrudan da armudun yaxşısı hamamda olur. Hrmətli deptatlar. Hi-hi".

Yazını isə daimi oxucularımızdan Bəhram Basqallının məktubu ilə bitirmək istərdim. Düzdür, bu məktubun, orda qaldırılan məsələnin şəxsən bizə heç bir dəxli yoxdur, ancaq guya bu dünyada nəyin bir-birinə dəxli var? Guya sizin hamınıza Azərbaycan adlı dövlətin nəsə dəxli var? Heç vacib də deyil, hamı başını aşağı salıb işini görür, türkün məsəli. (Bu mövzuda yaxşı lətifə də var, Mətbuat Şurası qadağan eləməsəydi burda yazardım).

Uzun sözün qısası, Bəhram bəy yazır ki, sosial şəbəkədə Avropa Oyunları haqda nəsə tənqidi şərh yazıbmış, bundan sonra iqtidaryönlü jurnalistlərdən biri (adı olsun Fırtışqulu - çünki əsl adı Tofiq Abbasovdur və bunun məsələyə dəxli yoxdur, mən də yazmıram - Z.H.) buna söyübdür. İndi Bəhram bəy yazır ki, gör bunlar nə qədər qudurublar, tənqidi şərh yazanları söyürlər və sairə.

Lap axırda isə qeyd edim ki, Müsavat gələcək, zülm bitəcək! Dəqiq söhbətdir.

# Fransanın Azərbaycana aprel reveransının pərdəarxası

**Fransa prezidenti Fransua Ollandın aprelin 25-də Bakıya gələcəyi təsdiqlənib. Ollandın ölkəmizə haradan təşrif buyuracağı da bəllidir - İrəvandan. O da məlum olub ki, Ermənistan paytaxtında keçiriləcək saxta "soyqırımın" 100 illik tədbirinə Serj Sərkisyandan savayı cəmi iki prezident qatılacaq - Cənubi (yunan) Kiprin başçısı və... Fransua Olland. Ermənistan rəsmisi artıq etiraf edib ki, mərasimdə yerdə qalan ölkələr, yəqin ki, ən yüksək səviyyədə yox, aşağı ranqlı nümayəndə heyətləri ilə təmsil olunacaqlar.**




# Olland Bakıya xüsusi missiya ilə gəlir

## Türkiyəni "soyqırım"da suçlayan, Vatikan və Rusiyadan da artıq ermənilik edən bir dövlətin Qarabağ məsələsində qərəzsiz arbitr imici artıq korlanıb; işğalçının 1 nömrəli havadarının yeni "sülh təklifi"ni Azərbaycan qardaş ölkəyə həmrəylik əlaməti olaraq geri verə bilər...

Təkcə Rusiya prezidenti Vladimir Putinin gəlib-gəlməyəcəyi tam dəqiq deyil. Hərçənd, ehtimal ciddidir ki, Rusiya "genosid" yubileyində ən yaxşı halda 2-ci şəxslə - baş nazir Dmitri Medvedyev səviyyəsində təmsil olunacaq.

*****

Fransanın "genosid" törəninə belə önəm verməsi, özü də bunun xeyli öncədən, sanki Türkiyəyə acıq kimi Fransa prezidentinin dilindən dönə-dönə səslənməsi, üstəgəl, Ollandın İrəvana Fransanın imkanlı erməni lobbistləri ilə eyni təyyarədə gəlməyə hazırlaşmasına normal baxmaq da olardı, əgər Fransa Minsk Qrupunun 3 həmsədrindən biri kimi Qarabağ danışıqlarında neytral arbitr roluna iddia etməsəydi.

Məsələ də ondadır: Ermənistanın hərbi-siyasi müttəfiqi olan Rusiyanın, yaxud üçüncü həmsədr dövlətin - ABŞ-ın liderləri İrəvana getmir, Fransa prezidenti isə gedir. Belə davranış, əlbəttə ki, Türkiyə ilə yanaşı, Azərbaycanı da yaralamaq deməkdir və vasitəçiliklə bir araya sığmır. Həmçinin, rəsmi Parisin torpaqlarımızın işğalına açıq dəstəyi anlamına gəlir. Çünki düşmənin 24 aprel yubiley mərasimlərindən güddüyü iki əsas hədəfdən biri məhz "əzabkeş xalq"ın Azərbaycan ərazilərini işğalına haqq qazandırmaqdır.

*****

Maraqlıdır ki, Rusiya saxta soyqırım mərasimlərinə münasibətdə yetərincə təmkinli mövqe sərgiləməkdədir. Bir neçə gün öncə canlı yayımdakı mətbuat konfransı zamanı isə Putin Roma Papasının məlum açıqlamasına münasibət bildirərkən olduqca korrekt danışdı, Türkiyəni incidəcək heç bir şey demədi, "soyqırım" sözünü dilə gətirmədi və aprelin 24-də İrəvana gedəcəyini söyləmədi.

Fransa isə, əksinə, 24 aprel İrəvan şousunda ən yüksək səviyyədə təmsil olunmaq azmış kimi, hələ üstəlik, öz deputatları timsalında Avropa Parlamentinin anti-Türkiyə qərarının qəbul edilməsində ən fəal rol oynadı, əlindən gələni elədi. Yeri gəlmişkən, 1987-ci ildə Avroparlament ilk dəfə saxta genosidi məhz Parisin ciddi səyləri nəticəsində qəbul eləmişdi...

*****

Bu dövlət sanki hər addımda və fürsətdə ermənipərəst mövqedə durduğunu, Ermənistana Rusiyadan da etibarlı dost olduğunu nümayiş etdirməyə çalışır. Ollandın sələfi Nikola Sarkozi də ondan geri qalmırdı, "soyqırımı" inkara görə cəza nəzərdə tutan sənədi israrla parlamentdə qəbul etdirməyə çalışırdı...

Qardaş ölkəyə qarşı zaman-zaman belə haqsız mövqe sərgiləyən, işğalçı Ermənistanı "Fransanın kiçik bacısı" sayan, Vatikandan da çox ermənilik edən (heç Roma Papasının özü İrəvana getməyəcək) bir dövlətin Dağlıq Qarabağ məsələsində vasitəçiliyi, əlbəttə ki, nonsensdir. Çünki Türkiyəyə qarşı ədalətsizlik Azərbaycana qarşı da ədalətsizlikdir və belə bir ölkə sülh danışıqlarında qərəzsiz münsif ola bilməz.

Şəxsən Fransua Ollandın Türkiyəyə antipatiyası bu ilin yanvarında "Charlie Hebdo" jurnalının əməkdaşlarının öldürülməsinə etiraz olaraq Parisdə keçirilən çoxminli mitinq zamanı bir daha ortaya çıxmışdı. O zaman Olland digər ali qonaqlardan fərqli olaraq baş nazir Əhməd Davudoğlu ilə çox aşağılayıcı tərzdə, olduqca soyuq görüşmüş, Davudoğlunun əlini bir müddət havada saxlamışdı...

*****

Ümid edək ki, rəsmi Bakı qapalı danışıqlarda bu qəbildən iradları, qatı ermənipərəstliklə ədalətli vasitəçiliyin bir araya sığmadığını Fransa prezidentinin nəzər-diqqətinə çatdıracaq. Bakıdakı müzakirələr bu üzdən çətin ki, heç nə olmayıbmış kimi, konstruktiv ab-havada keçsin və ya Ollandın ötən payızdakı səfəri kimi nəticə versin.

Hər halda, sağlam məntiq bunu diktə edir. Məntiq eyni zamanda onu deyir ki, Türkiyə ilə həmrəylik jesti olaraq prezidentlərin növbəti görüşü ilə bağlı Fransa liderinin budəfəki təklifini Azərbaycan rəhbəri geri də verilə bilər. Onsuz da Əliyev-Sərkisyan təmasları indiyədək ciddi nəticəyə gətirməyib. Ancaq Ollandı umsuq eləməklə ədalət heç olmasa, qismən bərpa olar. Bu, "soyqırımı" tanıyanlara ciddi bir etiraz mesajı, 1 nömrəli strateji müttəfiqimizlə isə növbəti ortaqlıq, qardaşlıq nümayişi olardı...

*****

Təbii ki, saxta genosid məsələsində ifrat canfəşanlığın ölkəmizdə doğurduğu neqativ reaksiyadan Fransa lideri də xəbərdardır. Bu mənada o, əslində Bakıya Qarabağ missiyasından daha çox, öz ölkəsinin Azərbaycan və Türkiyə qarşısında sifətini saxlamaq, obrazlı desək, günahını "yumaq" və balansı saxlamaq üçün gəlir.

Onu da unutmaq olmaz ki, son vaxtlar Minsk Qrupunda Fransanın istər Dağlıq Qarabağ, istərsə də saxta genosid məsələsində qat-qat obyektiv mövqe tutan Almaniya ilə əvəzlənməsi yönündə təkliflər xeyli ciddiləşib. Ollandın uydurma soyqırımla bağlı mövqeyi bu təklifləri aktual edir və Azərbaycana əlavə arqumentlər verir.

Şübhə yox ki, rəsmi Paris vəziyyətin fərqindədir. Hər halda, vasitəçilikdən uzaqlaşdırılmaq Fransanın böyük dövlət kimi həm imicinə, həm də ona qarşı dünyadakı etimada zərbə olardı.

❑ **Siyasət şöbəsi**

# Türkiyədə terrorçunun məzarını ziyarət edənlər həbs olundu

**Türkiyədə prokuroru girov götürərək, öldürən terrorçu Şəfəq Yaylanın qəbrini ziyarət edənlər həbs ediliblər.**



Musavat.com-un məlumatına görə, Ş.Yaylanın məzarını ziyarət etməyə İstanbuldan izdihamlı bir qrup gedib. Qrupla polislər arasında qarşıdurma baş verib. Nəticədə məzar üstünə gələnlərdən 53 nəfəri həbs edilib.

Məlumatda bildirilir ki, məzarı ziyarət edənlər İstanbuldan Giresuna 2 avtobusla gəliblər. Yolda polislər avtobusları saxlatdıraraq, axtarış aparmaq istəsələr də qrup buna imkan verməyib.

Polislər isə məzarın üstünə bütün qrupun yox, 3-4 nəfərin getməsini təklif ediblər. Təkliflə razılaşmayan qrup 3 saat avtobusda gözlədikdən sonra plakat qaldıraraq, şüarlar səsləndiriblər. Polislərin müdaxiləsi nəticəsində qarşıdurma yaranıb və 53 nəfər həbs edilib.

Qeyd edək ki, martın 31-də terrorçular İstanbulda Ədliyyə binasına girərək, prokuror Səlim Kirazı girov götürmüşdülər. Xüsusi təyinatlıların xilasetmə əməliyyatında prokuroru qətlə yetirən terrorçular öldürülmüşdülər.

# Putinin İrəvan müəmması

## Qabil Hüseynli: "Rusiya prezidenti İrəvana getməsi müqabilində Türkiyənin könlünü ala biləcək nələrisə etməlidir"

**Rusiya prezidenti Vladimir Putinin aprelin 24-də İrəvanda keçiriləcək qondarma "erməni soyqırımının" 100 illiyi ilə bağlı tədbirlərdə iştirak edib-etməyəcəyi məlum deyil. Doğrudur, ötən müddətdə Putinin İrəvana gedəcəyi və keçirəcəyi görüşlərlə bağlı bir sıra mənbələrdən məlumat verilib, lakin Rusiya Prezident Administrasiyasından səfər proqramı ilə bağlı rəsmi açıqlama hələlik yoxdur.**



Son olaraq iki gün əvvəl Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib ki, Putin aprelin 24-də keçiriləcək tədbirdə Fransa prezidenti Fransua Ollandla birlikdə iştirak edəcək və bu zaman iki liderin görüşü baş tuta bilər. Bundan başqa bir qədər əvvəl Putin və Sərkisyan arasında telefon danışığı olub və "ikitərəfli əlaqələrlə bağlı planlar, həmçinin "soyqırımın" 100 və Böyük Vətən müharibəsində qələbənin 70 illiyi münasibətilə keçiriləcək tədbirlərdə birgə iştirak məsələləri müzakirə olunub".

Qeyd edək ki, aprelin 24-də Türkiyə dövləti də beynəlxalq tədbir keçirəcək. Çanaqqala qələbəsinin 100 illiyi münasibətilə Türkiyədə təşkil olunacaq bayram tədbirlərinə 100-dən artıq dövlətin rəhbərliyi, o cümlədən Putin də dəvət olunub. İndiki vaxtda Türkiyə-Rusiya əlaqələrinin yüksək səviyyədə inkişaf etdiyi bir zamanda Putinin Türkiyə prezidentinin, yoxsa ənənəvi müttəfiqi Ermənistanın yanında olacağı maraqla qarşılanır.

Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Qabil Hüseynli Türkiyənin son illərdə dünyada baş verən proseslərin fonunda Rusiya ilə xeyli dərəcədə yaxınlaşmasına diqqət çəkir. Onun fikrincə, indi Türkiyə ilə Rusiya arasında xeyli dərəcədə yaxın münasibətlər var və bu səbəbdən də indi Putin İrəvana getmək məsələsində ciddi tərəddüd keçirir: "Putin Avropanı parçalamaq xətti tutub və buna qismən də olsa nail ola bilib. NATO-nun içərisində də bu sindromları yarada bilib. Məsələn, Yunanıstan, Sloveniya, Macarıstan, Çexiya, hətta Polşanın özü Rusiyaya qarşı sanksiyalar məsələsində xeyli tərəddüdlərə qapılıblar. Yunanıstan isə hətta Avropa zonasından ayrılmaq haqqında anonslar verir. Türkiyə NATO üzvü olsa da, tamamilə sərbəst siyasət yürüdür. Məsələn, Türkiyə Rusiyaya qarşı sanksiyalara qoşulmayıb. Üstəlik, Rusiya ilə strateji əməkdaşlıq haqqında müqavilə imzalayıb. Bu gün Rusiya sanksiyaları yarmaq və özünün qaz vasitəsilə siyasət yeritmək imkanlarını Türkiyə vasitəsilə həyata keçirməyə çalışır. Hətta Ukraynadan yan keçməklə Türkiyə ərazisindən Avropa sərhədlərinə çıxarılacaq yeni qaz kəməri layihəsini "türk axını" adı ilə tarixə salıblar. Üstəlik, Türkiyə Rusiyanın köməyi ilə nüvə dövlətinə çevrilməyə çalışır. Hətta bir ara Türkiyə Avrasiya Birliyinə daxil olmaqla bağlı niyyətini ortaya qoydu. İndi isə Çin, Rusiya və digər dövlətlərin iştirakı ilə Asiya İnfrastruktur və Əməkdaşlıq Bankının təsisçiləri sırasına daxil olub. Bu isə o deməkdir ki, Türkiyə tamamilə üzünü Avrasiyaya doğru çevirib. Rusiya yaxşı başa düşür ki, Türkiyənin xətrinə dəysə, onun Qərbə qarşı qurduğu siyasət iflasa uğraya bilər. Bu səbəbdən də İrəvana getmək məsələsində Putin ciddi tərəddüdlər keçirir".

Lakin bütün bunlarla yanaşı, Q.Hüseynli Putinin İrəvana gedəcəyini proqnozlaşdırır. Onun fikrincə, Putin bunun əvəzində Türkiyənin könlünü almaq üçün hansısa addımlara gedə bilər: "Zənnimcə, Putin İrəvana gedəcək. Və orada həm Qarabağ məsələsi ilə bağlı, həm də Türkiyə-Ermənistan sərhədlərinin açılmasına dair müəyyən bir sazişə ya nail olacaq, ya da nail olmağa çalışacaq. Çünki o, İrəvana getməsi müqabilində Türkiyənin könlünü ala biləcək nələrisə etməlidir. Əks təqdirdə, yüksələn xətlə inkişaf edən Türkiyə-Rusiya münasibətləri maneələrə rast gələ bilər. Ona görə də Putin İrəvanda ehtiyatlı davranmaqla yanaşı, bölgədəki problemlərin həll çözülməsinə də müəyyən töhfə verməyə də səy göstərəcək".

❑ KƏNAN

# Los Ancelesdə Qarabağa dair konfrans keçirilib

## QHT Şurasının dəstəyi ilə keçirilən tədbirdə nüfuzlu şəxslər iştirak ediblər...

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə ABŞ-ın Los Anceles şəhərində Loyola Marymount Universitetində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr edilən elmi konfrans keçirilib.**



Konfrans ABŞ-ın bir sıra mötəbər beyin mərkəzləri və universitetləri, o cümlədən Atlantik Şura, Los Anceles Beynəlxalq Məsələlər Şurası, Cənubi Kaliforniya Universiteti və Çapman Universiteti tərəfindən təşkil olunub. Tədbirdə beyin mərkəzlərinin tanınmış ekspertləri, Almaniya Bundestaqının üzvü və ATƏT-in Parlament Assambleyasının sədr müavini Doris Barnet, sabiq ABŞ və Avstraliya diplomatları, Cənubi Kaliforniya, Börkli, Çapman və Stanford universitetlərinin professorları və digər nüfuzlu şəxslər iştirak edib.

Azərbaycanın münaqişə üzrə mövqeyini konfransda Milli Məclisinin üzvü Asim Mollazadə təqdim edib.

Mədəniyyətlərarası və qlobal kommunikasiya sahəsində tanınmış mütəxəssis Vençan Cianın moderatorluğu ilə keçirilən Qarabağ panelində ilk çıxışı millət vəkili Asim Mollazadə edib. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına diqqət çəkən millət vəkili bu işğal faktının dondurulmuş münaqişəyə çevrilməsində əsas məsuliyyətin beynəlxalq təşkilatların üzərinə düşdüyünü bildirib.

O qeyd edib ki, BMT, ATƏT kimi beynəlxalq təşkilatların Ermənistana hər hansı konkret təzyiq etməməsi Ermənistan tərəfindən işğalçı siyasətin davam etdirilməsinə rəvac verir. Deputat həmçinin vurğulayıb ki, bu durumdan, sadəcə, azərbaycanlı qaçqın və məcburi köçkünlər əziyyət çəkmir, eyni zamanda, ciddi sosial-iqtisadi böhranla üzləşən Ermənistan cəmiyyəti də mövcud işğalçı siyasətin qurbanına çevrilib. Çıxışında Xocalı soyqırımı zamanı törədilən vəhşiliklərdən də bəhs edən millət vəkili Ermənistan tərəfindən azərbaycanlılara qarşı sistemli etnik təmizləmə siyasətinin aparıldığını vurğulayıb. O qeyd edib ki, bu gün bu münaqişədə real sülhə nail olmaq üçün ilk növbədə Ermənistan öz həqiqi müstəqilliyinə qovuşmalı, öz suveren iradəsini nümayiş etdirməyi bacarmalıdır. "Əks təqdirdə, Ermənistan-Azərbaycan münaqişəsinin yaxın perspektivdə həlli qeyri-mümkündür", - deyə o bildirib.

A.Mollazadə həmçinin qeyd edib ki, Azərbaycan qədim dövrlərdən bəri multikulturalizm diyarıdır, burada bütün dini etiqadlar, eləcə də müsəlmanlar, yəhudilər və xristianlar qardaşlıq və qarşılıqlı hörmət şəraitində yaşayırlar.

Azərbaycanın apardığı xarici siyasət kursuna da toxunan deputat vurğulayıb ki, bölgə iqtisadiyyatının 80%-ni əhatə edən Azərbaycan öz müstəqil siyasətini inkişaf etdirir, regional və beynəlxalq səviyyədə çoxsaylı uğurlu layihələr həyata keçirir. "Bu səpkidə Azərbaycan bir çox ölkələrin, o cümlədən ABŞ, Avropa və İsrailin enerji təhlükəsizliyinə ciddi töhfələr verir", - deyə o vurğulayıb.

Çapman Universitetinin əməkdaşı dr. Ceyms Koyl isə çıxışında ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin şəkildə tənqid edərək, bu qurum tərəfindən indiyə qədər görülən işlərin, irəliyə sürülən təkliflərin heç bir nəticə vermədiyini, fəaliyyətinin real sülhün təmin edilməsi baxımından yarıtmaz olduğunu qeyd edib. C.Koyl ATƏT-in Minsk qrupunun həmsədrlərindən ibarət hazırkı formatın uzun illər keçməsinə baxmayaraq özünü doğrultmadığını vurğulayaraq, bu Qrupa Türkiyə və Almaniyanın da həmsədr kimi daxil edilməsinin vacibliyini bildirib.

Çıxışlardan sonra natiqlər iştirakçıların çoxsaylı suallarını cavablandırıblar.

Tədbirdə iştirak edən Azərbaycanın Los Ancelesdəki baş konsulu Nəsimi Ağayev konfransın təşkilatçılarına belə bir önəmli və aktual mövzuya yetirdikləri diqqətə görə təşəkkürünü bildirib.

❑ M.MAHRIZLI

# Acizlər bir gün dirçəlsə...



Hüseynbala SƏLİMOV

**Rusiyalı hərbi analitiklərin ABŞ-ın yeni milli təhlükəsizlik doktrinası ilə əlaqədar yazdıqları mənə iki aspektdən maraqlı göründü. Amma əvvəlcə çox maraqlı bir detalı qeyd etmək istərdim...**

Bu ölkədə beynəlxalq mövzuda yazanlar yazılarını hələ də Valentin Zorin üslubunda yazırlar. Halbuki həmin adamın -V.Zorinin özü hələ bir neçə il bundan əvvəl jurnalistlik fəaliyyətinə görə bütün keçmiş sovet adamlarından üzr diləmişdi. Ona görə ki, sovetlərin vaxtında onun yazdıqları, dedikləri, yumşaq şəkildə desək, böyük hesabla yalan idi...

Keçək hərbi analitiklərin mülahizələrinə. Əslində qeyri-adi bir şey yoxdur. Əsas diqqət çəkən məsələ odur ki, rusların ABŞ-la bağlı bir ağrılı yeri var. O da budur ki, onların fikrincə, bu ölkə "yerli şəraitləri", "tarixi reallıqları nəzərə almadan" demokratiya ixrac etməklə məşğuldur...

Onlara elə gəlir ki, bununla ABŞ siyasətinin ən qaranlıq nöqtəsinə toxunurlar.

Amma başa düşmürlər ki, belə fikrilərlə bəlkə özləri də istəmədən bu ölkənin siyasətinin qaranlıq yerlərini də ağartmaqla məşğuldurlar...

Əgər Azərbaycanda da oxşar fikrilər tez-tez səslənməsəydi heç buna toxunmazdıq. Amma burada da belə "fikirlər" hakimiyyəti təmsil edən jurnalsitlərin və analitiklərin əsas "iradı"dı, lap açığını desək, yaralı yeridir. O sarıdan da məsələ bizə maraqlı göründü...

Bəs real vəziyyət necədir? ABŞ demokratiya ixrac edirmi? Sözsüz ki, bu ölkə başqa yerlərdə demokratiya uğrunda çarpışanlara ən azı böyük mənəvi dəstək verir. Bəli, mənəvi dəstək var. Amma bir çox hallarda bundan uzağa getmir və yaxud proseslərin gedişində açıq-aşkar yarımçıqlıq duyulur...

Son illərədə ABŞ ən çox "ərəb baharları"na görə qınanır. Təbii ki, çox mürəkkəb məsələdir. Amma bir detalı heç kim inkar edə bilmir - bu ölkələrin demək olar ki, hər birində despotik rejimlər hökm sürürdü...

Nə edəsən ki, həmin ölkələrin cəmiyyətlərinin də potensialı çox deyildi. Elə o səbəbdən də proseslər öz məntiqi yekununu, davamını ala bilmədi...

Qərəz, bu haqda çox danışmaq və yazmaq olar. Əvvəldə dedik ki, məsələ heç də trivial deyildi. Amma nə etmək olar? Görünür ki, stabil halına çatana qədər elə proseslər var ki, cəmiyyətlərin hamısı ondan keçməlidir...

Müxtəlif vaxtlarda biz də bu proseslərlə bağlı öz mülahizələrimizi və iradlarımızı bildirmişik. Amma ABŞ-ı demokratiya ixrac etməkdə deyil, axıra qədər ardıcıl olmamaqda, axıra qədər bu proseslərə dəstək verməməkdə qınamışdıq...

Amma rusiyalı analitiklər və onların azərbaycanlı həmkarları nə deyir? Faktiki olaraq özləri də etiraf edirlər ki, demokratiya, necə deyərlər, onların ən "yaralı yeridir" və praktiki olaraq öz mülahizələri ilə demokratiyadan nəinki çəkindiklərini, hətta ondan patoloji olaraq qorxduqlarını etiraf edirlər...

Amma burada bir etiraf da var. O da budur ki, nə Rusiyada, nə Azərbaycanda, nə də keçmiş SSRİ-nin bəzi bölgələrində demokratiya və siyasi azadlıqlar yoxdur. Onlar özləri də hiss etmədən və duymadan bunu etiraf edirlər... Bəlkə də duyurlar və qərəzli şəkildə belə edirlər, hər halda, bu, daha pis variantdır...

Demokratiya əleyhdarlarının sözlərindəki daha bir məntiqsizlik nədən ibarətdi və özünü nədə biruzə verir?..

Bu adamlar faktiki olaraq etiraf edirlər ki, bəzi cəmiyyətlərin "seçimi" elə sözün əsl mənasında despotik rejimlər, diktaturalrdır. Amma baxın, dünyada bu vaxta qədər haradasa insanlar diktaturlara səs veriblərmi?..

Əgər haradasa bu, sonradan baş veribsə, o, hakimiyyətin uzurpasiyası yolu ilə bərqərar olub. İnsanlar sadəcə, bunun qarşısını ala bilməyiblər, bunun qarşısında aciz qalıblar. Aciz qalmaq isə hələ razı olmaq demək deyildir və bu, siyasətdən çox-çox uzaq olan adi uşağa da aydındır...

Haradasa rusiyalı analitikləri başa düşmək olar. Onlar nə yazırsa, onu geopolitka prizmasından yazırlar. Bu prizma mürtəcə də ola bilər, onun bəzi yanlışlıqları da ola bilər, amma ABŞ Rusiyanın geosiyasi rəqibidi. Hərçənd ki, uzun illərdir ABŞ-da daha Rusiyanı fövqəldövlət hesab etmir və onu regional dövlət sayırlar...

Amma azərbaycanlılara nə düşüb? Onlar niyə ABŞ-ı yalnız qara rəngdə görürlər? Bunun bir cavabı var: o, da budur ki, Azərbaycandakı siyasi rejimin maraqları belə tələb edir. Bu rejim kimini "deputat", kimini də baş "jurnalist" edib. Onlar da bunun müqabilində rejimə sədaqətlərini sübut etmək istəyirlər.

Sübut edə bilirlərmi? Əfsus. İnsanlar hər şeyi yaxşı başa düşür. Bir az əvvəldə dedik ki, bəzən onlar mürtəce rejimlər qarşısında aciz olurlar. Amma acizlik razılıq demək deyil və elə bir vaxt gəlib çatır ki, həmin acizlər böyük qüvvəyə çevrilir. O vaxt belə "deputat"ların və "baş jurnalistlər"in o qüvvənin qarşısında olmasını istəməzdik...

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015







# "Laçın" və "Xalqlar dostluğu"nu qara günə kim qoyub?

## İki ticarət mərkəzi 72 saatdır işıqsızdır; rəhbərlik 3 milyon borcun yığıldığını iddia edir, ancaq...

**Bakının tanınmış ticarət mərkəzlərindən olan "Laçın" və "Xalqlar dostluğu" ticarət mərkəzlərində 3 gündür işıqlar yanmır. Bu barədə Lent.az-a "Xalqlar dostluğu" ticarət mərkəzinin satıcıları məlumat veriblər.**

Bildirildiyinə görə, yaxınlıqda yerləşən "Lotos" və "Diqlas" ticarət mərkəzlərinin də işıqları kəsilsə də, sonradan yandırılıb. Satıcılar işıqlar yanmadığından bir neçə gündür işləyə bilmədiklərini deyiblər.

"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev isə açıqlamasında bildirib ki, sözügedən ticarət mərkəzlərinin işıqlarının kəsilməsi "Azərişıq"la əlaqəli deyil: "Biz nə borca, nə də yenidənqurma işlərinə görə heç bir ticarət mərkəzinin işığını kəsməmişik. Ola bilər həmin ticarət mərkəzlərinin işıqları daxili problemlərlə əlaqəli kəsilib".

Adı çəkilən ticarət mərkəzlərindəki özəl qaynaqlarımızdan bu müəmmalı hadisə ilə bağlı ilginc məlumat almışıq. Deyilənlərə görə, buradakı obyektlərin sahibi iki qardaş olan sahibkarlardır. Onlar şikayətə gedən icarədarlara bildiriblər ki, 3 milyon manat elektrik enerjisindən istifadə haqqı yığılıb qaldığı üçün işığı kəsiblər. Ancaq icarədarlar bu iddia ilə razılaşmır. Onların sözlərinə görə, hətta elektrik enerjisinin kəsildiyi bu günlərdə hər gün üçün 40 manat icarə haqqı ödəyirlər və bura elektrik enerjisi haqqı da daxildir. Lakin 72 saatdır qaranlıqda qalmalarına baxmayaraq, rəhbərlik heç bir güzəştə getmir. Hətta iddialara görə, müştərilərin elektrikin kəsilməsi, fəaliyyət göstərə bilmədikləri ilə əlaqədar şikayətə gedənlərə "hara gedirsinizsə, gedə bilərsiniz, sizi burda məcburi saxlayan yoxdur" deyib qapını göstərirlər.

Müdiriyyət bildirib ki, guya işığın kəsilməsi ərazidə təmir işlərinin aparılması ilə bağlıdır. Lakin icarədarlar bunun bəhanə olduğunu deyirlər. Satıcıların sözlərinə görə, xüsusilə alverin normal getdiyi yerlər - geyim mallarının icarəyə verildiyi obyektlər idi. Ancaq son günlər onlar şam və lampa işığında müştəriləri qəbul etməli olurlar ki, bu da alıcılıq qabiliyyətinə kəskin təsir edib, zərərə işləyirlər. Belə davam edərsə, iş adamlarının aksiya keçirəcəyi də iddia olunur.

Bazar günü olduğundan rəsmi qurumlarla məsələnin mahiyyətini aydınlaşdıra bilmədik.

Mövzuya qayıdacağıq.

❑ **Vüqar MURAD**



# Qafa tasının yarısı olmayan Qarabağ qazisi imdad diləyir

## Bədənində 27 güllə və qəlpə yarası gəzdirən 1-ci qrup əlil Mehman İsmayılov: "Müalicəmə pul tapmıram..."

**Qarabağ müharibəsində öz sağlamlığını itirmiş xeyli qazimiz hazırda ciddi problemlərlə üz-üzədir. Müharibə veteranlarının böyük hissəsi sosial problemlərin öhdəsindən gələ bilmir. Buna da ən böyük səbəb maddi imkansızlıqdır.**
**Qazilərin bəziləri dövlət tərəfindən heç bir müavinət ala bilmirlər. Bəziləri isə müavinət alsalar da, bu, onlara kifayət etmir. Nəzərə alaq ki, Qarabağ əlillərinin pensiya və müavinətləri 185 manat civarındadır.**

Birinci qrup əlillər isə 260-280 manat alır. Qarabağ müharibəsi veteranlarının bu vəsaitlə normal yaşamaq imkanları yoxdur.

"Yeni Müsavat" olaraq, eyni problemləri yaşayan, döyüşlərdə iştirak edib, indi isə ağır şəraitdə yaşayan qazilərimizin problemlərini işıqlandırmaqda davam edirik. Budəfəki qəhrəmanımız Mehman İsmayılovdur.

Mehman İsmayılovla bir başqa reportajımız zamanı tanış olmuşdum. Onun döyüşlərdə göstərdiyi şücaəti və indiki yaşayış durumu haqda öyrəndikdən sonra, bu haqda yazmağa qərar verdim.

M.İsmayılov Ağdam rayonundandır. Qarabağ döyüşlərində iştirak edib. Və dəfələrlə yaralanmasına baxmayaraq, qəhrəmanca döyüşüb. Hazırda isə Binəqədi rayonu, 4 saylı fəhlə yataqxanasında yaşayır və iki övladı var. Evinə qonaq gedirik və söhbətimizə başlayırıq.

*****

Qazi deyir ki, uzun illərdir köhnə və artıq yararsız hala düşmüş yataqxanada məskunlaşıb: "Mənim evlənməli oğlum, gəlin köçəsi qızım var. Birinci qrup Qarabağ əliliyəm və birotaqlı yataqxanada qalıram. Dəfələrlə müraciətlər ünvanlamışam, amma baxan yoxdur. Ya gözləyin deyirlər, ya da heç cavab vermirlər. 1994-cü ildən bu fəhlə yataqxanasında qalıram. Bir dəfə də qapımı döyüb, halımı soruşan olmayıb. Şikayət məktubları isə o qədər çoxdur ki, otaqda onları qoymağa yer tapmıram. Bədənimin 27 yerində güllə və qəlpə yarası var. Müxtəlif rayonlarımızda, kəndlərimizdə düşmənlə savaşmışam. Bu vaxta kimi xatırlayıram. Şuşa və Xankəndinə gedən yolda 19-cu post deyilən yerdə qolumdan yaralanmışdım. Döyüş yoldaşlarım gülləni qolumdan dişləri ilə çıxarmışdılar".

M.İsmayılovdan başındakı yara haqqında soruşuruq: "Bu yara mənə Seyidlidən qalan xatirədir. Döyüş zamanı başımdan qəlpə yarası aldım. Hazırda qafa tasımın (kəllə qutusu-red.) sol hissəsi yoxdur. Sadəcə dəri olduğu üçün beynimin döyüntüsü görünür. Bu yaranı isə (sinəsindəki yara izlərini göstərir) Xocalı istiqamətində gedən döyüşlərdə almışam. Sinəmdəki izlər açıq-aşkar görünür. Qollarımda da yara izləri var".

### "Müalicəm üçün götürdüyüm krediti ödəyirəm..."

M.İsmayılov ciddi maddi sıxıntılar içindədir: "Aldığım müavinətin yarısından çoxunu banka ödəyirəm. Yoldaşım da xəstədir. 3 dəfə ağır əməliyyat keçirib, sağ ayağında metal mil var. Özüm də məlum məsələdir. Qafa tasının yarısı olmayan, bədənində qəlpə, güllə izləri olan bir adam necə ola bilər? Bankdan 5000 manat kredit götürmüşəm. Həmin pulla yoldaşım və mən İrana müalicə almağa getdik. İndi həmin krediti ödəyirik. Aylıq 300 manata yaxın müavinət alıram. Onun cəmi 130 manatı mənə qalır. Həmin pulla dolanırıq. Bu boyda ailə 130 manatla bir ay keçinməlidir. Dərmanlarımın pullarını güclə verirəm. Müalicəmə pul tapmıram. Dövlətin mənə verdiyi müavinətlə sağlam və tək yaşasam belə, dolanmaq çətin olar. Nəinki 4 nəfərlik ailə"...




AZƏRBAYCAN RESPUBLİKASI
QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Poçt indeksi: Az 1122
Bakı şəhəri, Tbilisi prospekti - 129
Telefaks: ... E-mail: ...

"31" 10 201_-cü il №_____

Binəqədi rayonu, Dərnəgül qəsəbəsi
A.Cərayəvli küçəsi 4 saylı yataqxana
İsmayılov Mehman Zahid oğluna

Sizin yaşayış sahəsi ilə təmin olunmağınıza köməklik göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə ünvanlanmış, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinə daxil olmuş ərizənizə baxılmışdır.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məcburi köçkünlərin mənzil şəraiti ilə təmin olunmalarını Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Dövlət Proqramı, Fərman və Sərəncamlarda göstərilən konkret köçürülmə obyektləri üzrə həyata keçirir.

Qeyd edirik ki, Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 21 fevral tarixli Sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na təsdiq edilmiş "Əlavələr"in 1.7-ci bəndə əsasən Bakı şəhəri ərazisində yataqxanalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi nəzərdə tutulmuş və ... təmin etmək məqsədi ilə Abşeron rayonu qəsəbəsi ərazisində torpaq sahəsi ayrılmış və hündürmərtəbəli yaşayış binalarından ibarət qəsəbənin tikintisinə başlanılacaqdır.

Tikinti işləri başa çatdıqdan sonra ailənizin qanunla nəzərdə tutulan qaydada baxılacaqdır.

Məskunlaşma, miqrasiya, məşğulluq və status şöbəsinin müdiri: Sənan Hüseynov



### "İstəyirəm ki, gözüm arxada qalmasın, bilim ki, ailəm, balalarım çöldə qalmayıb, evləri var..."

M.İsmayılov etdiyi şikayət və müraciətlərin faydası olmadığını da deyir: "Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Məskunlaşma, miqrasiya, məşğulluq və status şöbəsinin müdiri Sənan Hüseynova dəfələrlə müraciət ünvanlamışam. Faydası yoxdur. O qədər çox şikayət etmişəm ki, artıq bezmişəm. Məktubların böyük hissəsini yandırmışam. Heç bir şeyə faydası yoxdur. Niyə saxlayım? Ümumiyyətlə, qazilərə diqqət və qayğı yoxdur. Bizi adam hesab etmirlər. Qardaşım Əjdər İsmayılov Qarabağ müharibəsində 7 erməni texnikası vurub. Bunun sənədləri və sübutları məndə var. Buna baxmayaraq hazırda kirayədə qalır. Qazandığı pulla ancaq kirayəsini ödəyir və ailəsini saxlamağa çalışır. Heç bir ad verilməyib. Müraciətlərinə də baxan yoxdur. Qardaşım üçün veteran sənədini belə pulla almışıq".

### "Bizə çatası evlər pulla satılır..."

M.İsmayılov daha sonra bildirdi ki, onlara verilsi olan evləri satırlar: "Qaçqın və müharibə veteranları üçün binalar, evlər tikilib. Amma çoxu satılır və artıq satılıb. Əlimdə elan kağızları da var. Evləri pulsuz verməlidirlər, amma satırlar. Sanki biz o qədər çox müavinət alırıq ki, ev almağa da pulumuz var. Amma istəmirik. Yataqxanada qalırıq".

Qazinin sözlərinə görə, onun tək istəyi normal bir evlə təmin edilməkdir: "Mənim tək istəyim budur - normal bir mənzil versinlər. Mənim bu günüm var, sabahım yoxdur. Bədənində bu qədər yara olan insan nə qədər yaşaya bilər? Bir insan maksimum nə qədər qan itirə bilərsə, mən ondan 3 dəfə çox qan itirmişəm. Dəfələrlə yaralanmışam. Mən öləndən sonra ailəmi evdən çıxaracaqlar. Ona görə də, sənədlə ev istəyirəm ki, mən öldükdən sonra gözüm arxada qalmasın. Bilim ki, ailəm, balalarım çöldə qalmayıb. Evləri var".

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Qarabağ danışıqları - 24 apreldən sonrakı gözləntilər...

## Erməni tərəfinin "soyqırım" iddiaları və bu iddialara Qərbin bəzi dairələrinin dəstəyi problemin həllini daha da qəlizə salacaq; Türkiyədən işğalçıya və havadarlarına sərt mesaj: "Ermənistana qapılarımız həmişə açıqdır, ancaq öncə Qarabağ məsələsi həll olunmalıdır..."



**Gözlənildiyi kimi, uydurma erməni "soyqırımı"nın 100 illiyi onsuz da dalana dirənmiş Qarabağ danışıqlarına öz neqativ təsirini göstərdi. Və çətin ki, Fransa prezidenti Fnansua Ollandın aprelin 24-dən sonra başlayacağı yeni təşəbbüskarlığı nəyisə dəyişə bilsin. Ona görə ki, sülh danışıqlarında əsas olan qarşılıqlı etimadın yaradılmasıdır ki, bu yöndə də ən kövrək ümidlər Ermənistanın məqsədli şəkildə ortaya atdığı "yubiley" mərasimləri və təbliğatı ilə basdırılmış oldu.**

Ermənistan-Türkiyə münasibətlərinin bir qədər də gərginləşməsi, heç şübhəsiz, Qarabağ nizamlanmasına mənfi təsirlərini göstərəcək. Əfsus ki, bəzi ölkələrin və beynəlxalq qurumların (Roma Papası, Avropa Parlamenti), ermənilərin digər havadarlarının "oda yağ tökməsi" nəticəsində Qarabağ məsələsində İrəvan bir az da destruktiv mövqeyə köklənəcək. Zatən, erməni tərəfinin əsas məqsədlərindən biri də elə uydurma məsələdə beynəlxalq dəstəyi Qarabağ məsələsinə yönəltmək, işğala haqq və bəraət qazandırmaqdır.

Erməni rəsmiləri və ekspertləri bunu artıq gizlətmirlər də. Onlar "genosid" mövzusunun beynəlxalq gündəlikdə qalmasını "iki erməni respublikasının - "DQR" və Ermənistanın mövcudluq qarantlarından biri" sayırlar. Çünki onların nəzərinə görə, bununla "bir yandan, Türkiyə Ermənistana, digər yandan isə Azərbaycan beynəlxalq qınaqlardan ehtiyat edərək Dağlıq Qarabağa mümkün hücumlardan çəkinmiş olur".

Qısası, özünə havadarları hesabına "genosid" ideologiyası seçmiş belə bir marionet ölkədən öz əsas qonşuları olan Türkiyəyə və Azərbaycana qarşı tezliklə xoş məram, praqmatik münasibət gözləmək sadəlövhlük olardı. Hərgah, konkret olaraq rəsmi Ankara heç vaxt qapıları bağlı saxlamayıb.

***

"Bizimlə və qardaşlarımızla problemi olan erməni diasporudur, Ermənistan dövlətidir". Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan saxta genosidlə bağlı Avropada yaşanan isteriyaya, müəyyən dairələrin ermənilərə verdiyi təbliğati dəstəyə və Türkiyəyə ünvanlı əsassız çağırışlara münasibət bildirərkən söyləyib.



Türkiyə lideri bir daha xoş məramdan çıxış edərək bəyan edib ki, Türkiyə dövləti olaraq dəfələrlə Ermənistana əl uzadılıb, yaxşı niyyətlər ortaya qoyulub, ancaq Ermənistan erməni diasporunun və digər ölkələrin maraqlarına xidmət etdiyi üçün heç bir nəticə əldə olunmayıb.

O, əlaqələrin normallaşmasının əsas şərtini bir daha diqqətə çatdırıb: "Ermənistana qapılarımız hələ də açıqdır. Qondarma soyqırım iddiaları və Qarabağ münaqişəsində doğru addımlar atsalar, onlarla birgə işləməyə hazırıq. Bu cəsarəti nümayiş etdirəcək erməni siyasətçiləri ilə, Ermənistanı idarə edənlərlə görüşməyə, danışmağa daima hazırıq. Amma əvvəlcə Qarabağ münaqişəsi həll olunmalıdır".

Türkiyə prezidenti haqlı olaraq Minsk Qrupunun həmsədr ölkələrini də qınayıb: "Qarabağ məsələsində ABŞ da üzərinə düşən vəzifəni yerinə yetirə bilmədi. Rusiya da vəzifəsini yerinə yetirmir, Fransa da elə. Minsk Qrupu, beynəlxalq qurumlar Azərbaycanı haqlı göstərdiyi halda, Azərbaycanın hüququnu qorumadılar. Soyqırım məsələsini siyasətçilərin deyil, tarixçilərin üzərinə buraxsalar, məsələ həllini tapar. Bu həmçinin azərbaycanlı qardaşlarımızın qanayan yarası Qarabağ məsələsinin də həllinə şərait yaradacaq. Bizim mövqeyimiz bu qədər konkretdir, açıqdır".

***

İqtisadi-sosial problemlər içində boğulan Ermənistan rəhbərliyinə isə hələ ki, belə çağırışlar təzir eləmir. Rəsmi İrəvan hələ də Türkiyə ilə sərhədlərin qeyd-şərtsiz açılmalı olduğunu deyir. Bu isə qeyri-mümkündür, çünki əvvəla, indiyədək Türkiyənin sərhəd siyasətinin yanlış olduğunun Ankara tərəfindən etirafı olardı, ikincisi isə Azərbaycan torpaqlarının bir qarışını belə azad eləmək fikrində olmayan təcavüzkarı daha da şirnikləndirərdi.

Üçüncü yandan, təcavüzkarla sərhədləri bağlı saxlamağı ən əvvəl işğalçı ölkələrə müasir dünyanın, beynəlxalq birliyin, beynəlxalq hüququn, Qərbin özünün yanaşması diktə edir. İndi necə olur, Krımı ilhaq elədiyi üçün Rusiyaya qarşı sanksiyalar tətbiq edilir və bu sanksiyaların götürülməsinin əsas şərti kimi Kremlin işğalçı siyasətə son qoyması tələb edilir, ancaq Ermənistana gələndə val dəyişir?

Türkiyə nədən erməni qəsbkarlarına bu lütfkarlığı göstərməlidir - Qərb Ermənistana qarşı Rusiya kimi sanksiyalar tətbiq eləməli olduğu halda? Ən önəmlisi, Krıma görə Rusiyaya soyuq müharibə açan Qərb dövlətləri nə üçün işğalçı və xristian Ermənistana qarşı bunca loyaldır? Türkiyə və Azərbaycanı daim təzyiq altında saxlamaq üçünmü? Nəhayət, Ərdoğanın da vurğuladığı kimi, niyə məsələdə ABŞ üzərinə düşən vəzifəni yerinə yetirə bilmir, Rusiya öz vəzifəsini yerinə yetirmir, Fransa da elə?

***

Sözsüz ki, ədalətli nizamlamanı əngəlləyən əsas dövlət Rusiyadır. Kremlin Qarabağ məsələsində maraq və hədəfləri isə çoxdan bəllidir. Moskva separatçı hərəkatlar və rejimlər vasitəsilə postsovet məkanının "sözəbaxmayan" ölkələrini öz təsir dairəsinə qaytarmağa çalışır. Prezident Vladimir Putinin Ukraynadakı iki separatçı qurumu - qondarma Donetsk və Luqansk Xalq respublikalarını tanıya biləcəklərini istisna eləməməsi buna bir daha bariz sübutdur.

Bu barədə o, Rusiya telekanallarının birinə müsahibəsində bildirib. Sitat: "Moskva ortaya çıxacaq reallıqlara baxacaq və ona uyğun da hərəkət edəcək. İndi mən bu haqda danışmaq istəməzdim. Çünki nə desəm, hamısı kontur-produktiv ola bilər. Biz yaranacaq reallıqları əsas götürəcəyik".

Deməli, Rusiyanın fors-major vəziyyətdə Dağlıq Qarabağdakı separatçı rejimə yanaşmasında da bənzər planın olması istisna deyil. Bu yerdə bəlli bir faktı bir daha yada salaq ki, Ukraynanın Avropa Birliyinə qoşulacağı təqdirdə Krımın Rusiyaya birləşdirilməsi variantı hələ xeyli öncədən Putinin masası üstündə olub. Şübhəsiz, onun Dağlıq Qarabağa münasibətdə də A, B və hətta C planı var.




## Londonda kəlbəcərli girovlara azadlıq tələb olundu

### Ermənistan səfirliyi önündə Dilqəm və Şahbaz çağırışları səsləndi...

**Böyük Britaniyadakı Ermənistan səfirliyi qarşısında Dağlıq Qarabağda saxlanılmış azərbaycanlı girovların azad edilməsi tələbi ilə aksiya keçirilib. Məlumata görə, aksiya Londondakı azərbaycanlı tələbə təşkilatlarının təşəbbüsü və Avropa Azərbaycan Cəmiyyətinin dəstəyi ilə həyata keçirilib.**

Nümayiş iştirakçıları ötən il Dağlıq Qarabağda erməni qüvvələri tərəfindən saxlanılmış biri Rusiya vətəndaşı olan azərbaycanlılar - Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsini tələb ediblər. Ermənistan səfirliyi etiraz aksiyasına münasibət bildirməkdən imtina edib.

Xatırladaq ki, Dilqəm Əsgərov və Şahbaz Quliyev ötən il Dağlıq Qarabağda erməni qüvvələrin nəzarəti altında olan Kəlbəcər rayonunda valideynlərinin qəbrini ziyarət edərkən saxlanılıb. Bu zaman soydaşlarımızla birgə olan Həsən Həsənov qətlə yetirilib. Dilqəm Əsgərov və Şahbaz Quliyev isə iki ermənini öldürməkdə, bir nəfəri yaralamaqda, "sərhədi diversiya məqsədilə" keçməkdə ittiham olunublar. Qondarma rejimin saxta məhkəməsi əsasında Dilqəm Əsgərova ömürlük, Şahbaz Quliyevə isə 22 illik həbs cəzası kəsilib.

Onu da qeyd edək ki, Dilqəm Əsgərov Rusiya vətəndaşı, Şahbaz Quliyevin həyat yoldaşı isə rusdur. Girovlarımızın azad edilməsi və ya dəyişdirilməsinin vacibliyi barədə indiyədək Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ dövlət katibinin müavini Viktoriya Nuland, ardınca Dövlət Departamentinin digər rəsmisi bir neçə dəfə erməni tərəfinə çağırış ediblər. Lakin bu çağırışların hamısı hələ ki, eşidilməz qalır.

Bu arada isə ABŞ-ın ATƏT-dəki səfiri Daniel Baer Azərbaycan və Ermənistan rəhbərliyinə müraciət edib. Vyanada ATƏT-in daimi şurasında iştirak edən səfir münaqişə tərəflərini Qarabağ konflikti zamanı girov və itkin düşmüş şəxslərlə bağlı informasiya mübadiləsinə səsləyib.

"ABŞ Azərbaycan və Ermənistan prezidentlərinin Paris sammitində Qırmızı Xaç Komitəsinin himayəsi altında girov və itkin düşmüş şəxslərlə bağlı informasiya mübadiləsi barədə götürdüyü öhdəlikləri alqışlayır. Tərəfləri bu mübadilə üçün konkret addımlar atmağa və ATƏT-in Minsk qrupunun etimad yaratmaq üçün təklif etdiyi səyləri dəstəkləməyə çağırırıq", - deyə səfir qeyd edib.



# Məktəbli qızı qaçırılan anadan şok iddia

## "Onu Dubaya satmağa aparacaqlar..."

**Fevralın 22-də Xırdalandakı 9 saylı orta məktəbin XI sinif şagirdi, 1997-ci il təvəllüdlü Aytən Məmmədovanın (ad şərtidir) xalası oğlu tərəfindən qaçırılması çoxuna bəlkə də adi hadisə kimi gəldi. Çünki qız qaçırma, hər necə olsa da, adiləşib.**

Ən maraqlısı odur ki, qaçırılan qızın anası - Abşeron rayonu, Quşçuluq massivi, Hüseyn Arif küçəsi, 2-də yaşayan Təhminə Vəliyevanın sensasion sayılacaq açıqlaması da qulaqardına vuruldu. O iddia edirdi ki, bacısı oğlu azyaşlı qızını yüngül həyat tərzinə cəlb etməklə pul qazanmaq üçün qaçırıb. Harayının heç yerə çatmadığını deyən Təhminə Vəliyeva virtualaz.org saytına müraciət edərək özünün və digər azyaşlı qızının da həyatının təhlükədə olduğunu bildirib.

"Fevralın 22-də bacım Rəna Vəliyeva və onun oğlu Kamran Ağamalıyev bizə gəldi. Qızım onların məqsədini başa düşdü, tez o biri otağa keçib qapını bağladı. Bacım oğlu üstümə hücum etdi, məni döyməyə başladı. Bacım isə qızı qolundan tutub sürüyə-sürüyə çölə çıxardı və apardı. Kamran qızıma dedi ki, mənimlə gəlməsən, balaca bacının başına oyun açacam, ananı isə öldürəcəyəm. Qız qorxusundan maşına mindi. Maşının arxasınca qaçdım, qolumu maşının qapısının arasında qoydular, məni sürüyə-sürüyə evə saldılar. Fevralın 24-də isə Xırdalandakı polis bölməsinə rəsmi ərizə ilə müraciət etdim. Mənim qızım azyaşlıdır, onu zorla qaçırdılar. Bacım oğlu Kamran polis bölməsinin həyətində mənə dedi ki, qızından istifadə edəndən sonra geri qaytaracam. Hələ "balaca qızının da qiymətini de, onu da alacam" deyə qışqırmağa başladı. Bundan sonra bacımdan SMS mesajlar aldım. O yazırdı ki, oğlum qızından istifadə edəndən sonra geri qaytaracaq".

Qızı qaçırılan Təhminə Vəliyeva bacısı Rəna ilə münasibətimiz həmişə kəskin olduğunu, illər küsülü qaldıqlarını deyib: "Mən həyat yoldaşımdan ayrılmışam, dərzilik edərək ailəmi dolandırıram. Həyat yoldaşım daim bizi döyüb-söyüb təhqir edirdi. Bir gün anamgilə, bir gün əmimgilə sığına-sığına uşaq böyütmüşəm. Bacım da mənim kimsəsiz, yoxsul olduğumu bilirdi. Hətta bir dəfə təklif etdi ki, gəl səni də özümlə Dubaya aparım, orada pul qazanarsan, özünə ev, maşın alarsan. Mən onun dediklərinə əhəmiyyət vermirdim. Amma qardaşım da mənim qızımı bacım oğluna verməyimi istəyirdi. Mən də şərt kəsdim ki, toy yalnız qız məktəbi bitirəndən sonra olmalıdır. Onlar da razılaşdılar. Amma Kamran sonradan qızımdan siqaret, qəlyan çəkməyi öyrənməyi tələb etdi. Qıza deyirdi ki, naz-işvə bilmirsən, özünü dəyişməlisən. Sonra Kamranın narkotikdən istifadə etdiyini eşitdim. Buna görə də nişanı geri qaytarmağı tələb etdim. Bacım Rəna bilir ki, arxam-dayağım yoxdur. Ona görə də mənim köməksizliyimdən istifadə edərək qızlarımın başına bu cür oyun gətirir. İndi qardaşım da deyir ki, öz işinizdir, özünüz həll edin, məni bu məsələyə qatmayın".

Təhminə xanım qızının Dubaya aparılacağından əmin olduğunu deyir: "Bacım dilini başa düşmədiyim Əhməd adlı oğlanla tez-tez Dubaya gedir. Əhməd Dubay vətəndaşıdır. Rəna martın 3-də mənə mesaj yazıb. Yazıb ki, "darıxma, oğlum qızını bir az işlətsin, doyanda geri qaytaracaq". Bu mesajdan sonra mən ona necə inanım? Bacım qızıma deyir ki, çox utancaqsan, aktiv ol, belə vəziyyətdə heç kim səninlə maraqlanmaz, mənə ev işi lazım deyil, sənin aktivliyin lazımdır, sən anan kimi olmayacaqsan, səni Dubaya aparacam, özünüzün maşınınız olacaq. Qız almaq istəyən qayınana onun siqaret çəkməsini niyə istəsin? Bacım deyir ki, özün kimi kasıb yaşamaqdansa mənim kimi varlı yaşasınlar. İndi də deyirlər ki, qızım 2 aylıq hamilədir. Balaca qızım IX sinifdə oxuyur. O da qorxub, dərsə getmir. Keçən dəfə məktəbə getmişdim, oğlan bizi maşını ilə izləyirdi..."

Qeyd edək ki, Təhminə Vəliyeva "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinə də müraciət edib. Birliyin sədri Mehriban Zeynalova sayta deyib ki, məsələ ilə bağlı Daxili İşlər və Təhsil nazirliklərinə, Ailə, Qadın və Uşaq Problemləri Komitəsinə müraciət edəcək.

Abşeron rayonu, Quşçuluq massivinin sahə müvəkkili Kamal Şükürov bildirib ki, nəzarət etdiyi ərazidən onlara qız qaçırılması ilə bağlı şikayət daxil olmayıb: "Ümumiyyətlə, son illər qız qaçırılması ilə bağlı şikayət daxil olmayıb. Lakin şikayətçi əlaqə saxlayıb təhqiqatın kim tərəfindən aparıldığını söyləyə bilər. Bundan sonra öyrənib məsələyə münasibət bildirə bilərəm". K.Şükürov onu da deyib ki, yetkinlik yaşına çatan şəxslərin müstəqil qərar qəbul etmək hüququ var.



# Çörəyini qanqaldan çıxaranlarla bir gün

## Yol qıraqlarında bu bizneslə məşğul olanlar xalq təbabətinin üstünlüyündən danışdılar; Bakı-Qazax magistralında hepatit, serroz və böyrək xəstəliklərinə qarşı "ot müalicəsi" təklif edilir...

**Onları yol qırağında az qala hər addımbaşı görmək olar. Ancaq hər zaman yox. Bunun da bir dövrü, mövsümü var. Adətən yaz aylarında işləri "xod" gedən bu adamlar əslində satqıları ilə nə dərəcədə insan orqanizminə fayda verdiklərini çoxu bilmir. Əksəriyyəti şübhə edir, ya da məsxərəyə qoyur. Hərçənd, əllərində yaşıl rəngli ot tutub şütüyən maşınlara əl edən o adamların satdıqlarının xalq təbabəti də, tibb elmi də faydalı olduğunu təsdiqləyib.**

Diqqətini cəlb etməyə nail olan bu insanlara ən azından maraq üçün sükanı saxlayıb, onlara yaxınlaşanlar olur. İstər-istəməz sual yaranır, görəsən, bu adamların əlindəki otlar nədir, nə satırlar, niyə satırlar, hardan əldə edirlər?

Ötən həftə Kürdəmirdən qayıdarkən yol boyunca yaşayış məntəqələri olmayan ərazilərdə, kəndlərdən aralıda, Hacıqabulun yaşayış məntəqələrindən keçən yol üstündə bu adamları görəndə avtomobili saxlamalı olduq...

Az sonra yeniyetmələrlə tanış oluruq. Evinə bir tikə çörək aparmaq üçün belə bir işə baş vuran gənclərin sözün əsl mənasında çörəyi otdan çıxır. Daha dəqiq desək, qanqal otundan. Çörəyini qanqal otundan çıxaranların bu orijinal biznesi çox böyük gəlir gətirmir. Əziyyətli əmək olan qanqal toplamaq və satmaq artıq onların tək dolanışıq mənbəyidir. Bu cavanlar da gördükləri işlə barışıblar, işsizlikdən...

Deyirlər ki, onları işləməyə çox zaman qoymurlar. Gəlib ilişir, yol üstündə dayanıb piştaxta qoymağı qadağan edirlər. Amma bu kənd uşaqlarının başqa qazanc yeri də yoxdur, çarəsizlikdən gizli-aşkar qanqal otu dərib satırlar. Əslində baha da deyil - 1 dəstəsinə bir manat ödəməklə "çox xeyirli bir müalicə kursu keçmək olar". Nədən ibarətdir bu müalicəvi qanqal otunun mahiyyəti?

Topladığı otları bir ipə bağlayıb satan Əfzələddin danışır: "Sən soruş ki, bu nəyə xeyir deyil? Gedin həkimlərdən də öyrənin. Min bir dərdə dərmandır. İndi buna qanqal otu deyirik. El arasında belə adlanır. Əsl adı təbabətdə dəvətikanıdır. Deməli, əgər qanqal otundan davamlı istifadə etsən, qaraciyərdə narahatlığın bir qram da qalmayacaq. Bax, hepatit, serroz, qaraciyər böyüməsinə qarşı çox faydalıdır. Əsas qaraciyər xəstəliklərinin düşmənidir. Sonra böyrəklərin daha yaxşı işləməsinə kömək eləyir. Sidiyə gedəndə çətinliyi olanların problemin həll edir. Bizim millət əhəmiyyət vermir. Dəvətikanı çox əla otdur. Bax bunu al, öd yollarının açılmasına kömək edəcək. Gündə 3-4 damla bir fincan suya tök iç".

Əfzələddin inanır ki, qanqal otundan istifadə etməklə dediyi problemlər həll olunur. Onun sözlərinə görə, şəhərdə yaşayan insanlar çox zaman bu otun əhəmiyyətinə fikir vermir: "Çünki dadsızdır, adı da qanqaldır. Hamı fikirləşir ki, mal-heyvanın yediyi otdur. Ancaq bilmirlər ki, qanqal otunu apteklərdə dəvətikanı kimi satırlar. Bunu soyursan, tikanlarını atırsan, üstünə azca duz töküb yeyirsən, çox dadlı olur. Özü də susuzluğu da yatırır".

Yol üstündə qanqal satan digər bir gənclə həmsöhbət oluruq. Adı Valeh olan satıcı deyir ki, apteklərdə qanqal yağı da satılır: "Gəl belə başa salım da. Bunun yağı qaraciyər, mədə və bağırsaq problemlərində ən gözəl dərmandır. Sonra göbələkdən və digər müxtəlif zəhərlənmələrdə istifadə olunur. Həkim var bizim rayonda, adı Firuzdur, dostumdur. Deyir, ürək-damar problemi, dəri xəstəlikləri, hətta qadın problemlərində bu yağ çox xeyirlidir. Həm də yaralarda, yanma və donmalarda istifadə olunur. İndi biz də bunun otunu satırıq. Fikirləşərsən ki, yol kənarında bitir, zərərlidir. Amma gör orqanizmə necə mənfəəti var. Get gündə 3 dəfə yeməkdən yarım saat əvvəl 1 çay qaşığı 1 ay müddətində qəbul elə. İmkan varsa, lap yeməklərə də qat. Sonra, sən bilirsən ki, təzə yetişmiş qanqalı soyub yemək çürümə gedən dişlərin sağlamlaşmasına kömək edir, gözün görmə qabiliyyətini artırır? Hardan biləsən. Biz ucuz qiymətə insanlara sağlamlığını satırıq. Gedib analizə, həkimə pullar tökürlər, səhv diaqnoz qoyur, bahalı firma dərmanı yazır, axırda səni soyur. Soyulmaqdansa, qoy qanqal soyulub yeyilsin ki, dərd tapmayasan".





Qanqal satanlar deyirlər ki, onlar hər gün səhər sahələrdən bu bitkini yığaraq satışa çıxarırlar. Qanqal yığarkən tikanlarının ələ batmaması üçün əlcəkdən istifadə olunur. Satıcılar qanqalın bir dəstəsini 50 qəpik-1 manat aralığında alıcılara təklif edirlər. Onlar gün ərzində 20-30 dəstə qanqal satdıqlarını deyirlər.





Məlumat üçün bildirək ki, ala qanqal toxumu güclü antioksidantdır, qaraciyəri zərərli maddələrdən qoruyur, hüceyrənin yenilənməsinə kömək edir.

**❑ "Yeni Müsavat"ın Reportyor Qrupu**

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015

**Hər zaman mübahisə mövzusu dəfn mərasimləri qaydalara əsasən aparılacaq. Azərbaycanda insanın dəfn edilməsi qaydaları, qəbirlər, məzar daşları və onların ölçüləri ilə bağlı qanun layihəsi hazırlanır. Yeni qaydalara görə, təzə qəbiristanlıqlarda ailəvi məzarlıqlara icazə verilməyəcək.**

# Dəfn qaydaları dəyişdirilir, bəs qaydalara əməl edən olacaqmı?

## İlahiyyatçı: "Əslində bu dəyişikliklər çoxdan edilməli idi..."

Yalnız ər və arvadın vəsiyyətnaməsinə əsasən onun yanında həyat yoldaşını basdırmaq üçün bir yer saxlanıla bilər. Digər qohumlar isə qəbiristanlığın qeydiyyat kitabındakı nömrələnmə siyahısına uyğun basdırıla bilər. Hər bir məzarın ümumi sahəsi 5 kvadratmetr olacaq. Məzarın içi 1 metr, uzunluğu isə 2 metr, baş daşının hündürlüyü 60 santimetr, eni 40 santimetr kimi müəyyənləşdirilir. Sinə daşının yerdən olan hündürlüyü isə 30 santimetr kimi nəzərdə tutulub.

Azərbaycanda dünyasını dəyişən insanların dəfni ilə bağlı bütün xərclərin dövlət və bələdiyyələr tərəfindən ödənilməsi təklif edilir. Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev hələ ötən il qəbrin yerlərinin icra hakimiyyəti orqanları, yaxud bələdiyyələr tərəfindən vətəndaşlara verildiyini deyib: "Ancaq qəbrin hazırlanması, qəbir daşının sifarişi, qoyulması, ümumiyyətlə, dəfn prosesinin təşkili xərclərini vətəndaşlar ödəyirlər".



Ümumiyyətlə, uzun zamandır dəfn mərasimlərində müəyyən dəyişikliklər, bahalı və təmtəraqlı qəbirlərə qadağa qoyulması ilə bağlı müzakirələr gedir. Təəssüf ki, Azərbaycanda elə qəbir daşları var ki, sadəcə, oturub tamaşa etmək istəyirsən və fikirləşirsən ki, bu cür qəbir daşı qoyduran insanın məqsədi nədir. Qonşu ölkələrin qəbiristanlıqlarına nəzər salsaq, orada ölülərin standart qəbirlərdə, baş daşları ilə dəfn olunduğunu görərik. Bir çox ölkələrdə Azərbaycanda olduğu kimi VİP qəbirlər və qızıl qiymətinə bərabər olan baş daşı anlayışı yoxdur.

Dəfn qaydaları haqqındakı qanuna öz münasibətini bildirən ilahiyyatçı Bəhruz Camal bu dəyişikliklərin çoxdan edilməli olduğunu bildirdi: "Əslində bu dəyişikliklər çoxdan olunmalı idi. Çünki qəbiristanlıqlara daxil olduqda sosial və ictimai statuslardakı fərqlilikləri görmək mümkün idi. Halbuki varlısının da, kasıbının da özü ilə apardığı yalnız bir neçə metr bez parçasından artıq bir şey deyil".

Məzar daşları və onların ölçüləri ilə bağlı məsləyə gəlincə isə şəriət baxımından qəbirin dərin olmasının vacibliyini bildirən ilahiyyatçı bunun həm də qəbirlər arasındakı varlı-kasıb təbəqələşməsinin aradan qaldırılması üçün atılan bir addım olduğunu dedi: "Əslində şəriət baxımından qəbirin dərinliyi o qədər olmalıdır ki, vəhşi heyvanlar və sairə tərəfindən meyitin iyinə əsasən cənazənin çölə çıxarılması ehtimalı olmasın. Lakin baş daşlarının və qəbirlərin uzunluğunun da eyniləşdirilməsi qərarı, çox güman ki, dəbdəbəli məzarlıqların alternativi olaraq səliqə sahmanlı olması və qəbirlərin birinin digərindən seçilməməsi üçün qərara alınıb".

❑ **Günel MANAFLI**

# "Qızım həkimin səhvi nəticəsində ölüb"

## Türkan sakini Gülmurad Mirzəyev: "Təcili yardımın həkimləri deyib ki, buna kim belə sistem qoyub?"

**Türkan qəsəbə sakini 21 yaşlı qızının həkim səhlənkarlığı ucbatından öldürüldüyünü bildirir. Gülmurad Mirzəyev qəzetimizə yazdığı şikayət məktubunda qeyd edib ki, bu ilin yanvarında qızı Günay Rəhmanova həkimin yanlış müalicəsi nəticəsində bir neçə saatlıq iynə-dərmandan sonra həyatını itirib.**




"Yanvarın 14-də qızımın övladı dünyaya gəlib. İki həftə sonra o, soyuqladı, boğazı ağrıyırdı. Biz də həkimə apardıq ki, bunun uşağa ziyanı olub-olmadığını öyrənək. Çünki uşağa ana südü verirdi. Həyat yoldaşı Vüqar qəsəbədəki 17 saylı xəstəxanaya gedib ərazi üzrə həkim İlahə Sadıqovanı evə gətirib. O da gəlib qızıma baxıb və müalicə lazım olduğunu bildirdi. Deyib ki, gəlin, mən müalicə edim. Vüqar da deyib ki, sən uşaq həkimisən, ananı necə müalicə edə bilərsən. İlahə Sadıqova da "həkim həkimdir də, sizin üçün nə fərqi var" deyib. Sonra resept yazıb qızımın yoldaşına verib, o da gedib aptekdən həmin dərmanları alıb gətirib. İçində dimedrol da olub, bunları qarışdırıb sistem düzəldib. Elə evdəcə qızıma sistemi qoşub, deyib yatsın. Deyib ki, üç saatdan sonra oyananda heç bir problemi qalmayacaq. Həmin sistemdən sonra qızımın vəziyyəti pisləşib və dünyasını dəyişib. Qızım Günay həkimin günahı ucbatından ölüb".

Gülmurad Mirzəyevin sözlərinə görə, qızı hamiləlik dönəmində və uşaq doğulan zaman da sağlam olub: "Səhhətində heç bir problem olmayıb. Analizlərin nəticələri də normal çıxıb. Həkim uşaq doğulandan bir neçə gün sonra heç bir problem olmadan xəstəxanadan evə buraxıb. Yanvarın 24-də bir də 26 saylı xəstəxanaya doğuş həkiminin yanına aparmışıq, müayinə olunub, problem olmayıb. O, həkimin səhv müalicəsi nəticəsində dünyasını dəyişib".

Şikayətçi bildirib ki, sistemdən bir saat sonra qızın öldüyünü görüb təcili yardım çağırıblar və həkimlər sistemə səhv dərmanların qoşulduğunu bildiriblər: "Qızım onda keçinibmiş. Təcili yardımın həkimləri deyib ki, buna kim belə sistem qoyub? Hər şeyi bir-birinə qatıb. İlahə Sadıqovanın özü də gəldi, dedi mən əlimdən gələni etmişəm. Mərdəkanda ekspertizada dedilər ki, qızınız ona qoyulan sistemdən ölüb. Dərmanları düzgün qarışdırmayıb. Amma sonra rəsmi rəydə yazdılar ki, qızımda ağciyər xəstəliyi və ürək çatışmazlığı olub. Amma fakt budur ki, qızım 9 ay Mərdəkanda 26 saylı poliklinikada nəzarət altında olub, tez-tez müayinə olunub. Heç bir problemi də olmayıb. Ağciyər xəstəliyi və ürək çatışmazlığı olan qadın doğuşa necə girə bilərdi?".

O bildirib ki, məsələ ilə bağlı Xəzər Rayon Polis İdarəsi 1-ci Polis Bölməsində araşdırma aparılır: "Ancaq həkim İlahə Sadıqova 2 ay işdən kənarlaşdırılsa da, yenidən işə çıxır. İstintaq başa çatmamış o, niyə işə çıxmalıdır? Eşitmişəm ki, onun birinci ölüm işi deyil, bir neçə ana və uşaq onun əlində ölüb".

Onun sözlərinə görə, ekspertiza yalan rəy verib və onlar növbəti ekspertizanın rəyini gözləyirlər: "Həmçinin, dövlət başçısına da müraciət yazmağı planlaşdırıram. Yazıb işə baxılması üçün köməklik istəyəcəm".

❑ **RÖYA**

# Hökumətin yeni "başdaşı islahatları"



**Kənan RÖVŞƏNOĞLU**

**Hökumət indi də qəbir daşlarında islahat həyata keçirməyə başlayacaq. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, bununla bağlı yeni qanun layihəsi hazırlanır. Layihəyə əsasən qəbir adi daşdan, hündürlüyü 50 sm, sinəüstü daş 60 sm olacaq. Qəbirlərin ara məsafələri də müəyyən olunub. Layihədə pullu məzarlıqlar məsələsi yoxdur. Qəbirlər sıralanacaq, yalnız ər və arvad üçün istisnalar olacaq, yəni ərin məzarının yanında arvadın, arvadın məzarının yanında ər üçün yer saxlanıla bilər.**

Doğrudur, bu iş hələlik layihə formasındadır, nə zaman qəbul olunub qüvvəyə minəcəyi məlum deyil. Amma bu məsələ ötən il başlayan "ehsan islahatlarını" yada salır. Ötən ilin yayında hökumət qəflətən ölkədə yas məclislərində yemək verilməsini qadağan etdi. Qadağanın konkret müəllifi bilinməsə də, ilk günlərdə bütün rayon icra hakimiyyət orqanlarına, QMİ-nin axund və mollalarına yas məclislərinin sadə, yeməksiz keçirilməsi ilə bağlı tapşırıq verildi.

Ancaq az sonra məlum oldu ki, ölkənin baş ruhanisi bu qərara qarşıdır. Bunun bariz nümunəsi QMİ-nin yerləşdiyi Təzə Pir məscidindəki mərasim zallarında necə deyərlər qadağanın ilk günlərində belə ehsan süfrələri açılmaqda idi. Beləliklə, qadağa faktiki olaraq qüvvədə olmadı. İndi hal-hazırda Azərbaycanda yas mərasimlərində ehsan verilməsinin qadağan olub-olunmadığını heç kim dəqiq bilmir.

İndi isə hökumət "milli israfçılığın" daha bir faciəvi nümunəsi olan qəbir daşları ilə bağlı hansısa islahatlara əl atmağa çalışır. Yeri gəlmişkən, ehsan qadağası ilə bağlı cəmiyyətdə gedən müzakirələrdə əsas arqumentlərdən biri ehsan qadağası ilə bağlı normativ aktın, sənədin olmaması, sadəcə şifahi tapşırıqla olması ilə bağlı idi. İndi isə görünür, hökumət bu iraddan ibrət alaraq məzar daşları ilə bağlı qanun layihəsi hazırlamağa qərar verib.

Əlbəttə, bu mövzunun dini tərəfləri dəfələrlə yazılıb, bəyan olunub. Azərbaycan insanının böyük əksəriyyətinin etiqad etdiyi İslam dininə görə, israfçı, bədxərcliyə səbəb olan hərəkətlər günahdır. Eyni zamanda dünyadan köçən adamın sadə şəkildə dəfn olunması, qəbrinin müəyyən müddətdən sonra torpağa qarışmasına səbəb olacaq sadəcə qəbir daşından istifadə olunması tövsiyə olunur.

Ancaq məsələ artıq dini mahiyyətdən çox kənara çıxıb və cəmiyyətin bəlasına çevrilib. Təxminən son 15 ildə Azərbaycanda müxtəlif üsul və vasitələrlə yas mərasimləri, qəbir daşları məsələsində normal qaydalar tətbiq olunub. Lakin bütövlükdə ölkə üçün keçərli olan bir variant tapılmayıb. Yalnız Naxçıvanda inzibati qadağalar vasitəsilə bu məsələdə müəyyən nəticələrə nail olunub. Eyni zamanda ölkənin bəzi rayon və ya kəndlərində yerli əhalinin təşəbbüsü ilə hansısa islahat adına işlər edilib. Ancaq bütövlükdə bu israfçı vəziyyətdən xilas olmaq mümkün olmayıb.

Hazırkı qəbir daşı islahatlarının nə cür nəticə verəcəyi təxmini olaraq bəllidir. Əgər ehsan süfrələrini Şeyxin marağına cavab vermədiyi üçün ləğv etmək mümkün olmadısa, aydın məsələdir ki, illik dövriyyəsi milyonlarla dollarla ölçülən mərmər monopolistləri də qəbir daşı "islahatlarının" qüvvəyə minməsinə mane olacaqlar. O da bəllidir ki, bu işin arxasından hansısa vəzifəli məmur çıxacaq, hansı ki, mümkündür ki, Şeyxdən də qüdrətli olsun.

Əlbəttə, azərbaycanlıların bahalı başdaşı və dəbdəbəli ehsan süfrələri həvəsinin arxasında dini biliklərin azlığı və ya xurafat dayanmır. Təbii ki, bu vəziyyətin yaranmasında yuxarıda sadaladığımız faktorlar rol oynayıb, lakin bu gün bu adətlərdən imtina edə bilməməyin arxasında dayanan amil milli "qonşudan qalma dala" prinsipidir. Və təbii ki, müsbət nümunə çatışmazlığı. İstər ehsan qadağası, istərsə də başdaşı tənzimləmələrinin işləməsi üçün ilk növbədə bu yöndə qanunların işlək olmasıdır. Cəmiyyət görməlidir ki, hər kəs qanunlara qarşı ehtiramlı davranır, varlı insanlar, məmurlar və siyasi elita bu məsələdə qəbul olunan qanunlara hörmət edir. O zaman təbii ki, sadə insanlar da bu qanunlara, normativlərə riayət edəcək. Əks təqdirdə uzun illər imperiya "təcrübəsi" keçmiş insanlar hansısa bir vasitə ilə işləməyən qanunları tapdamağa çalışacaqlar. Təbii ki, burda böyük maddi maraqları olan biznes sahiblərinin də maraqlarını unutmaq olmaz.

# Manatın devalvasiyası ən çox lombardların işinə yarayıb

## Bankların kredit faizlərini artırması üəündən paytaxtda fəaliyyət göstərən lombardlara üz tutanların sayı artıb










**Manatın devalvasiyasından sonra kommersiya banklarının manatla kredit verməkdən imtina etməsi və dollarla kreditlərin faizini artırması səbəbindən paytaxtda fəaliyyət göstərən lombardlara üz tutanların sayı artıb. Burada kredit şərtlərinin daha asan olması, iş yerindən arayış, zamin və sair tələb olunmaması vətəndaşları lombardlara üstünlük verməyə vadar edib.**

Bəs, görəsən devalvasiyadan sonra lombardlarda vəziyyət necədir? Müştərilərin sayında artma, yoxsa azalma müşahidə olunur? Lombardlarda kredit manat yoxsa, dollarla təklif olunur?

Bu suallara aydınlıq gətirmək məqsədilə "Yeni Müsavat"ın müxbiri paytaxtın mərkəzində fəaliyyət göstərən lombardlara üz tutub.

Lombardda çalışanlar da bildirir ki, son zamanlar müştərilərin sayı artıb. Buna səbəb isə lombardların hələ də manatla kredit verməsidir. Bir neçə ildir lombardda işlədiyini deyən Fərahim Abbasov bildirir ki, artıq onlar da manatla borc vermək istəmirlər: "Biz də tədricən dollarla kreditə keçmək istəyirik. Çünki bu cür sərf eləmir. Banklar bizə pulu dollarla verir, biz isə müştəriyə manatla veririk. Əgər bir müddət sonra dollar yenidən bahalaşsa, biz ziyana işləyəcəyik. Ancaq dollar adı çəkən kimi müştəri ofisi tərk edir. İndi heç kim dollarla borc almağa risk eləmək istəmir".

Başqa bir lombard işçisi də qeyd edir ki, lombardlarda şərtlər daha sadədir: "Sadəcə, girov qoyacağın qızılı və şəxsiyyət vəsiqəsini gətirmək kifayət edir. Burada qızılın və digər qiymətli əşyaların dəyəri ölçülür və ona uyğun borc verilir. Məsələn, 250 qram 750 əyarlı qızıl girov qoymaqla 5000 manat pul götürmək mümkündür. Müştəri ilə girov müqaviləsi bağlanır. Borca görə hər ay faizin ödənəcəyi gün müəyyən olunur və müştərinin istəyindən asılı olaraq borcun ödənilmə tarixi göstərilir. Borc müddəti 1 aydan 1 ilə kimi uzadıla bilər. Əgər borc vaxtında ödənilməzsə, bizim girov qoyulan qızılı satmaq hüququmuz var. Adətən borcunu ödəyə bilməyən müştəriyə 1 ay 10 gün əlavə vaxt tanınır. Ancaq biz bəzən 2-3 ay da gözləyirik".

Lombard işçilərinin sözlərinə görə, onlara əsasən əhalinin kasıb təbəqəsi müraciət edir. Borc olaraq götürülən kreditlərin həcmi isə 1000 manatdan yuxarı deyil. Lombard işçisi Fərahim Abbasov deyir ki, bəzən müştərilər gəlib 30-40 manat borc istəyirlər, ancaq lombardlarda borc məbləği 50 manatdan başlayır. Aylıq faiz dərəcəsi isə 8 faiz təşkil edir.

Lombard sahibləri indi manatın yenidən ucuzlaşmasından ehtiyat edirlər. Onlar banklardan dollarla pul götürdüyündən bu valyutanın bahalaşması ilə itki verəcəklərini deyirlər. Ancaq bir məqam da var ki, lombardlar əsasən, girov kimi qızıla üstünlük verir. Bu isə o deməkdir ki, dolların bahalaşması qızılın da bahalaşması ilə nəticələnir. Bu baxımdan banklardan fərqli olaraq lombardlar elə də risk daşımır.

İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, lombardlara tələbin artması gözlənilən idi. Manatın məzənnəsinin ucuzlaşmasından sonra lombardlara tələbatın artacağı gözlənilirdi. Çünki kommersiya bankları istehlak kreditlərinin həcmini azaldıblar. Əgər banklar manatın devalvasiyasından əvvəl orta hesabla 6-80 min manat arası istehlak krediti təklif edirdisə, indi istehlak kreditlərinin məbləği 2-4 min manat arasında dəyişir. Praktik olaraq istehlak kreditlərinin məbləği azalıb. Məbləğin azalması ilə yanaşı kreditlərin alınması prosedurları da çətinləşdirilib, faiz dərəcələri artırılıb. Bu baxımdan kommersiya banklarından kredit ala bilməyənlər lombardlara üz tuturlar. Lombardların faizi daha yüksəkdir, çünki onlar faizi aylıq hesablayırlar, kommersiya bankları isə illik hesablayırlar".

Ekspertin fikrincə, məhz kredit şərtlərinin asan olması və kredit məbləğini razılaşdırmaqda sərbəstliyin verilməsi səbəbindən vətəndaşların lombardlara marağı artıb: "Digər bir səbəb isə odur ki, lombardlar banklardan fərqli olaraq hələ də krediti manatla təklif edirlər. Ancaq bəzi lombardlar da dollarla kredit təklif etməyə başlayıb. Lombardlarda borc verilməsi prosedurlarının asan olması tələbatı daha da artırır. Bankların əksəriyyəti qızılı girov kimi götürmürlər, ancaq lombardlarda qızılı girov kimi qəbul edirlər. Ailələrin əksəriyyətində qızıl var və demək olar ki, evində qızıl zinət əşyası olmayan ailə çox azdır. Bu da imkan verir ki, qızılı girov kimi təklif etməklə ailə lombardlardan borc götürüb problemini həll edə bilsin. Lombardlar üçün istənilən halda risk yoxdur. Çünki indiki halda dollar bahalaşsa belə avtomatik olaraq qızıl da bahalaşacaq və bu, lombardların ziyana getməməsini təmin edəcək".

❑ **Nərgiz Liftiyeva**
**Fotolar müəllifindir**

# Azərbaycanda dəhşət: polis öldürüldü, meyiti yandırıldı...

**Azərbaycanda tükürpədici cinayət hadisəsi baş verib. Avropa.info-nun bölgə müxbirinin verdiyi məlumata görə, İmişli rayonu polis idarəsinin əməkdaşlarından birinin Bakıda yanmış vəziyyətdə meyiti tapılıb.**

Məlumata görə, Rayon Polis Şöbəsinin əməkdaşı, 1988-ci il təvəllüdlü Kazımov Muxtar Nəcəf oğlu bir neçə gün öncə avtomobil almaq məqsədilə Rabil İbayev adlı polis əməkdaşı olan yoldaşı ilə Bakıya gəlib. Onlar Bakıya gələrkən M. Kazımovun üzərində 12500 dollar pul olub. Daha sonra, M. Kazımov gəldiyi Bakı şəhərində yoxa çıxıb.

Dünən Bakıda tapılan naməlum kişi meyitinin üzərində araşdırma aparan tibbi ekspertiza cəsədin M. Kazımova aid olduğunu müəyyən edib. Əldə olunan məlumata görə, M.Kazımov qətlə yetirildikdən sonra meyiti yandırılıb.

İmişli polisindən əldə olunan məlumata görə, onunla Bakıya gələn Rabil İbayev hazırda şübhəli şəxs qismində saxlanılıb. O da bəlli olub ki, M.Kazımov R.İbayevlə birgə Polis Akademiyasının qiyabi şöbəsində təhsil alırmış. Hər iki polis əməkdaşı Bakıya imtahan sessiyasına gəlibmiş. Kazımovla İbayev sessiya müddətində paytaxtın Xətai rayonunda ev kirayələyib.

M.Kazımovun qohumları bir neçə gün öncə onun yoxa çıxdığını bildiriblər. Polis axtarışlara başlayıb. Polisin ilk dindirdiyi şəxs Kazımovun otaq yoldaşı Rabil İbayev olub. O isə Kazımovun harada olması barədə heç nə bilmədiyini deyib. Halbuki M.Kazımov elə İbayev tərəfindən öldürülübmüş. İbayev törətdiyi cinayətin üstünün açılacağından qorxaraq Kazımovun meyitini dəniz kənarına aparıb və izi itirmək üçün onu yandırıb. Məlum olub ki, M.Kazımov bundan az əvvəl şəxsi avtomobilini satıbmış. Maşının pulu da R.İbayev tərəfindən oğurlanıb.

Lakin polis Kazımovun qətlinin motivlərini açıqlamağa hələ tələsmir. Məsələ burasındadır ki, qətli törədən Rabil İbayevin səhhətində ciddi problemlər var, bu üzdən az öncə həyat yoldaşından da boşanıb. Belə ehtimal var ki, İbayevi bu cinayəti törətməyə sövq edən səbəblər arasında onun psixoloji problemləri amili də var.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*
*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
- ✓İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓Əla tələffüz və güvənlə danışmaq
- ✓Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 83 (6111) 20 aprel 2015

**İnsanların, medianın maraq göstərdiyi mövzulardan biri də dünya milyonerləri ilə bağlıdır. Elə gün olmur ki, onların nə yeyib-içdikləri, həyatları mövzusunda yeni detallar çıxmasın. Kim daha xəsisdir, kim daha əliaçıq... Saniyəsi milyonlarla ölçülənlər, bir ayaqqabını on il dalbadal geyinənlər...**


Bill Gates


Paris Hilton

# Orta təhsili olmayan milyonerlər...

## Dünyanın varlıları arasında "McDonalds"da nahar edən də var, 20 ildir pulqabısını dəyişməyən də...

Kimin hekayəsi necədir? Pul hamıya xoşbəxtlik gətirirmi?

**Onlar bir saniyədə pul qazanır, bir gündə yox...**

Məsələn, dünyanın ən varlı insanları gündə yox, saniyədə pul qazanırlar. Bu məbləğ isə kasıbların gözlərini hədəqəsindən çıxarır. Amma bu pulları xərcləyərkən çox diqqətli davranırlar. Məsələn, "Forbes" jurnalında tez-tez ən varlı adamların sırasında yer alan, 67,8 milyard dollarlıq sərvəti ilə birinci olan Karlos Slim 12 yaşından bu günə qədər yediyi, içdiyi və aldığı paltarlar da daxil olmaqla bütün xərclərini bir kənara qeyd edir. 13 ildən sonra dünyanın ən varlı insanı ünvanını əldən qaçıraraq ikinci olan Bill Gates isə dünyanın ən bahalı evində yaşayıb. Amma özəl bir təyyarəsi, gəmisi olmayıb. Heç lüks partilərə də qatılmayıb. Sərvəti 56 milyard olan Gates gündə 17 saat çalışıb və saniyədə 250 dollar qazanır. Dünyanın ən varlıları siyahısında üçüncü olan Varren Buffetti isə maliyyə dünyasının dahisi adlandırılar. Amma bu dahi 20 ildir eyni pulqabından istifadə edir.

Paris Hilton isə lüks həyat tərzi və su kimi pul xərcləməsi ilə diqqət çəkən varlılardandır. Hilton qatıldığı lüks məclislərlə yanaşı, həftə ərzində 30 saatını alış-verişə xərcləyir.

Dünya varlıları siyahısındakı daha bir məşhur- iş adamı Carlos Slim isə 67 yaşındadır və müxtəlif sektorlarda 200-ə yaxın şirkətə rəhbərlik edir. Slim bahalı restoranlarda yemək yeməkdən və bahalı alış-verişlərdən xoşlanmır. Dünyanın ən varlı adamlarından biri olmasının ona nə hiss etdirməsi sualına cavabda isə "pul heç vecimə də deyil" deyir.

**Ən xəsis milyonçu**

1930-cu il təvəllüdlü iş adamı Varren Buffett isə öz sərvətinin 31 milyard dolarını Bill & Melinda Gates Vəqfinə keçirməklə ABŞ-da bu günə qədərki ən böyük xeyriyyə əməlinə imza atıb. 6 yaşında ikən Coca Colaları 5 sentlik gəlirlə sataraq pul qazanmağa başlayıb. Hələ də 1958-ci ildə satın aldığı 31 min 500 dollarlıq evdə yaşayır. Varren harasa getmək üçün sürücüdən istifadə etmir. Bayaq da dediyimiz 20 ildir eyni pulqabından istifadə edir. Və ən maraqlısı: günorta yeməyini yemək üçün özünün idarə etdiyi maşınla McDonalds-a gəlir.

Düzdü, bayaq Paris Hiltonu alış-veriş xəstəsi kimi təqdim etdik. Amma onun barəsində də bilmədiklərimiz var. 50 milyon dollarlıq bir sərvətə sahib olan, 1981-ci il təvəllüdlü Paris Hiltonun gördüyü işlər sırasında modellik, müğənnilik, aktrisalıq da var. Hər səhər 6-da yuxudan oyanır. O ərəfədə hansı işlə məşğul olursa, səhər saatlarında o işin dalınca gedir. Cəmi bir gecədə qatıldığı bir məclisə və ya tanıtım tədbirinə görə 1 milyon dollar qazana bilir. Elə bunun nəticəsidir ki, Hiltonun 6,2 milyon dollarlıq evində 200 kvadrat metr sahəyə malik bir geyim otağı var. Həftədə orta hesabla 30 saatını alış-verişə sərf etsə də, bu, sərvətini azaltmır. Əksinə, bəzi markalar ona öz mallarını havayı verirlər ki, reklam olsun. Məhz bu cür məsuliyyətsiz davranışlarına görə isə bu xanım babası Barron Hiltonun 335 milyon dollarlıq sərvətindən məhrum edilib.

**Dünya varlılarının vətəni - London və Nyu York**

Varlıların harada yaşamasına gəlincə, qeyd edək ki, onlar daha çox London və Nyu York şəhərlərini tərcih edirlər. Araşdırmalara görə, dünyada illik xərclənə biləcək sərvəti 100 milyon dollardan çox olan 63 min nəfər yaşayır. Bu adamların toplam sərvətləri isə 39,9 trilyon dollar təşkil edir. Rəqəmlərlə bu qədər. Bu günlərdə mərkəzi Nyu Yorkda olan The Luxury Institute maraqlı bir araşdırma hazırlayıb. Həmin araşdırmaya görə, sərvət sahibləri və milyarderlərin lüks həyat tərzi ilə bağlı bir çox yanlışlar var. Yanlışların sıralaması isə belədir:

1.Varlılar pulu asanlıqla qazanıb, asanlıqla xərcləyirlər. Halbuki onlar nəyisə satın almadan öncə yanlarında çalışan araşdırmaçıları onlara məlumat verir, ən ucuz və sərfəlisini alırlar.

2.Varlılar başqa bir aləmdə yaşayan harınlardır. Bu da elə birinci bənddəkinə bənzər bir yanlışdır. Əslində varlılar bir çox kasıblardan və ya orta sinif nümayəndələrindən fərqli olaraq daha az alış-veriş edir. Milyonerlərin həyata dair ən böyük narahatlığı isə uşaqlarını yaxşı yetişdirmək, yaşadıqları həyat standartını qoruya bilmək, eyni şəkildə valideynlərinin də yaşlılıqlarında rahat yaşayışını təmin etməkdir.

3.Milyonerlər üçün bir malın bahalı olması hər şeydən önəmlidir. Bunun yanlışlığını isə iqtisadi araşdırmalar ortaya qoyub. Varlılar həyat təcrübəsinin də qatqısı ilə keyfiyyətli malı dərhal ayırd edə bilir. Onların qabağına onlarla marka qoysan, mütləq ən keyfiyyətlisini seçəcək.

4.Varlı müştərilər heç vaxt müştəri məmnunluğu ilə bağlı rəy sorğularına qatılmırlar. Əksinə, əksər varlı müştərilər savadlı olduqları üçün bilirlər ki, markanın önəmini bu cür rəylər müəyyənləşdirir. Ona görə də maksimum aktiv olurlar.


Carlos Slim


Varren Buffett

6.Milyonerlər internetdən çox istifadə etmir. Bu da yanlış bilgidir. Vaxtının çoxunu işləməklə keçirən varlılar onlara zaman qazandıra biləcək hər şeydən istifadə edirlər. Bunların sırasında isə internet üst yerlərdədir. Onlar internetə daha çox lüks mallar, lüks xidmətləri axtarmaqla yanaşı, işlərini daha sürətlə icra etmək üçün baş vururlar. Yeni bank əməliyyatları və internet vasitəsilə alış-veriş üçün...

7.Bazar araşdırmaları və rəyləri varlıların satın alma qərarları üzərində təsirli deyil. The Luxury Institute'un araşdırmasında məlum olub ki, varlıların 80 faizi güvənli hesab etdikləri şəxslərin və qurumların qərarlarına önəm verir.

8.Lüks marka sahibləri sadəcə ən varlıları hədəf almalıdır. Əslində araşdırmalar göstərib ki, savadlı və həyatı anlayan varlılar üçün uşaqlarının, özünün səyahət planları, sağlam yaşam tərzi daha çox önəm daşıyır.

**Dünyada neçə cür varlı var?**

Dünya iqtisadiyyatı üçünsə varlılar iki kateqoriyaya ayrılır. Bunlardan ilki "HNWI (High-net-worth individuals-Yüksək dəyərli fərdlər) adlanır. Bu sinfə daxil olan zənginlər 1 milyon dollar və ya daha çox var-dövlətə sahibdirlər.

İkinci sinfə aid olanlar isə "U-HNWI (Ultra high-net-individuals-Ultra yüksək dəyərli fərdlər) adlanır. Bu sinfə daxil olanlar isə 30 milyon dollardan daha çox var-dövlətə sahibdilər. Araşdırmalar onu da göstərib ki, yeni varlı olmuş insanlar daha öncəki varlılara görə ilk mərhələdə daha çox pul xərcləyirlər. Onlar özvar-dövlətini daha çox göstərməyə çalışırlar. Çox bahalı evlər, maşınlar alırlar. Tanınmış və çox varlı insanların getdikləri klublara üzv olmağa çalışırlar.

İkinci mərhələdə isə ailə ilə bağlı məfhumlara önəm verməyə başlayırlar. Evli deyillərsə, ailə qururlar. Uşaqlarına yaxşı bir təhsil vermək üçün uğraşırlar. Vergi məsələlərinə daha çox diqqət edirlər. Üçüncü mərhələdə isə xeyriyyə işlərinə maraq göstərirlər. Bu müddətin uzunluğu zəngindən-zənginə fərqlidir. Bəzən 10, bəzən 20, çox vaxt isə 30 il ala bilər.

Bu arada onu da deyək ki, son 10 ilin milyonerləri daha çox var-dövlətə özləri sahib olanlardır. Halbuki 50-60-cı il öncəyə qədər insanlara var-dövlət miras olaraq qalırdı.

"Forbes" Jurnalı diplomu belə olmayan, dünya üzrə 25 məşhur multimilyonerin adını açıqlayıb. Həmin siyahıda Türkiyədən Əhməd Nazif Zorlu da yer alıb. Məlum olub ki, Zorlu 15 yaşında liseyi tərk edib. Buna səbəb ailəsinə maddi yardım etmək üçün işləmək istəməsi olub. "Forbes"in siyasının başında liseyi 17 yaşında ikən tərk edən məşhur aktyor Robert De Niro da var. Məşhur multimilyonerlərin arasında olimpiada çempionu, boksçu George Foreman, maneken Gisele Bundchen, Jim Clark, aktyor Sidney Poiter, aktrisa Uma Thurman ve Jessica Simpson yer alır.

Bızi multimilyonerlərin qısa hekayəsi isə belədir:

Amancio Ortega: ZARA tekstil və mağaza zəncirlərinin sahibi olan iş adamı 14 yaşında liseydən qovulub. Hazırda 25 milyardlıq bir sərvəti var.

Francois Pinault: Fransanın ən varlı üçüncü adamı isə Gucci, Converse ve Somsonitenin sahibidir və heç orta təhsili yoxdur.

Billy Joel: "Columbia Universitetine getməyəcəm. Əvəzində Columbia Plak şirkətinə gedəcəm. Orada isə lisey diplomuna ehtiyac yoxdur" deyib. O, hazırda 160 milyon dollarlıq sərvətə sahibdir.

Catherine Zeta-Jones: Londonda 15 yaşında liseyi kino ulduzu olmaq üçün tərk edib. Hazırda 45 milyon dollarlıq sərvətə sahibdir.

Carl Lindner: Süd satmaq məqsədi ilə qapı-qapı gəzmək üçün liseydən çıxıb. Chiquita bananlarının sahibi və dondurma kralı ünlü iş adamıdır. Sərvəti 1.7 milyard dollardır.

Curtis James Jackson (50 Cent): Məşhur qaradərili müğənni də New Yorkun Jamaica məhəlləsində getdiyi məktəbi 12 yaşında tərk edib.

**Milyoner olmağın xüsusi sirləri varmış...**

Amerikanın ən varlı adamlarından biri olan New Yorklu daşınmaz əmlak kralı Donald Trump uğurlu iş həyatının təcrübələrini kitab halına salıb. Necə varlı olmaq olar? adlı kitabda varlı olmağın ipucları bunlardır:

1- Geyim-gecim: İlk vaxtlar ucuz geyimlər aldığım üçün özümlə qürur duyurdum. Düşünürdüm ki, 100 dollara bir geyim ala bilərəmsə, nə üçün buna daha çox pul xərcləyim. İllər mənə öyrətdi ki, bu, səhvdir. Çünki ucuz ayaqqabılar, paltarlar çox tez xarab olur. Digər tərəfdən, unutmayın ki, insanla bağlı ilk təəssürat onun geyiminə görə yaranır. Amma bunu edərkən çevrə ilə ayaqlaşmağı da unutmayın. Məsələn, diqqətçəkən bir geyim tərzi Beverly Hillsdə diqqət çəkə bilər, amma Wall Streettə (iş çevrəsi) pis qarşılanır.

2. Qarşınızdakını sınamaq istəyirsinizsə, təhrikedici bir söz söyləyin, ya da elə bir davranış sərgiləyin. Mən bəzən bir iclasda çox təəccüb yaradacaq şərh verərək masa ətrafındakıların reaksiyasını yoxlayıram. Kim öz reaksiyası ilə mənim xoşuma gəlməyə çalışır, kim səmimidir, anlayıram. Dost-düşməni tanımaq üçün belə sınaqlar vacibdir.

3. Özünüz özünüzün maliyyə məsləhətçisi olun. Mən dəfələrlə şahid olmuşam ki, maliyyə məsləhətçiləri insanların fəlakətinə səbəb olur. Wall Street Journal, Forbes, Business Week, Fortune kimi etibarlı qaynaqları bir müddət izləyin, sonra da özünüz özünüzə maliyyə məsləhətçisi kimi baxın.

4. Heç kimə etibar etməyin. Kimsə sizə zərər vermək istəyirsə, onunla insidentə girməkdən çəkinməyin. "İncil"də də deyildiyi kimi, gözə göz, dişə diş. Unutmayın ki, ən yaxın dostunuz belə həyat yoldaşınızı və ya pulunuzu əlinizdən almaq istəyə bilər.

5. Mümkün qədər əllə salamlaşmayın. Mikrobların əl sıxışma yolu ilə keçdiklərini unutmaq olmaz.

6. İntuisiyanıza etibar edin. Bəzən aldığınız yüksək ali təhsil belə 6-cı hissinizə məğlub ola bilər.

7. Pozitiv olun, amma hər zaman ən pis ssenariyə hazırlıqlı olun. Ortaya çıxa biləcək problemləri təxmin etmə bacarığı mənə çox şey qazandırdı.

8. Detallara hər zaman önəm verin.

9. Evlənmədən öncə həyat yoldaşınızla mütləq nikah müqaviləsi bağlayın.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 83 (6111) 20 aprel 2015



## Rahiblər evlənmək istəyir

Almaniyanın Münhen Universitetinin klinikasında professor Ekhard Frik və araşdırma qrupu bu günə qədər bənzəri görülməmiş bir araşdırma aparıblar. Bir neçə gün əvvəl nəticələri yayımlanan araşdırmanın Katolik kilsəsinə ciddi təsirləri olacağı gözlənilir. Mütəxəssislərin sözlərinə görə, katolik din adamlarının böyük bir hissəsi evlənmə qadağasından narazıdırlar. Araşdırmada iştirak edən rahiblərin dörddə biri karyeralarına yenidən başlama şansları olsa, bu işi seçməyəcəklərini deyiblər. Digər dörddə bir hissə isə qərarsız olduqlarını deyiblər. Rahiblərin digər yarısı isə yenidən bu həyatı seçəcəklərini bildiriblər. Rahiblər bir ailəyə və uşaqlara bağlı olmadan həyat yaşamağı çətin olduğunu deyiblər. Bir çox rahib özlərini tək hiss etməkdən şikayətçidir. 2012-2014-cü illərdə aparılan araşdırmada 8 min 600 rahib iştirak edib.

## Bu telefonlardan uzaq durun!

Ekspertlər elektromaqnit şüalanması baxımından sağlamlıq üçün təhlükəli smartfonların reytinqini açıqlayıblar. Mütəxəssislər xüsusi absorbsiya dərəcəsini (Specific Absorption Rate, SAR) ölçüblər. Buna əsasən, vahid vaxtda orqanizm tərəfindən udulan elektromaqnit şüalanmanın miqdarı təyin edilir. Bu barədə ICT yazır. Ekspertlərin fikrincə, "lider" "HTC One Mini 2" smartfonudur. İkinci və üçüncü yerlərdə "Nokia Asha 503" və "iPhone 5s" dayanır. SAR-ın aşağı səviyyəsi "Samsung Galaxy Note", "LG G3", "Samsung Galaxy S6 Edge", "BlackBerry Passport" və "HTC Desire 620" smartfonlarında aşkar olunub. Həmçinin məlum olub ki, "Samsung Galaxy Mega" smartfonu "iPhone 6"-ya nisbətən daha az zərərlidir.

# 20 dollara kostyum aldı, 137 min dollara satdı



Viviyen Linin "Küləklə sovrulanlar" filmində geyindiyi kostyum ABŞ-ın Kaliforniya ştatında Beverli Hillzdə keçirilən hərracda 137 min dollara satılıb. Aktrisa 1939-cu ildə ekranlara çıxan filmdə baş qəhrəman Skarlett O'haranı canlandırıb. Bu məşhur kostyum boz jaketdən və qara ziqzaqvari tikişləri olan ətəkdən ibarətdir. Həmin geyimi və filmdən olan daha 150 əşyanı Ceyms Tamblin adlı şəxs satışa qoyub. O, əvvəllər "Universal Studios" kinostudiyasının qrim bölməsinə rəhbərlik edib. Tamblin "Küləklə sovrulmuşlar" filminə aid əşyaları və butaforiyanı (teatr tamaşası üçün lazım olan şeylər) hələ 1960-cı ildən yığmağa başlayıb. Aktrisanın hərraca qoyulan kostyumuna görə isə cəmi 20 dollar ödəyib. Qeyd edək ki, "Küləklə sovrulmuşlar" filmi "Metro-Goldwyn-Mayer" (MGM) şirkətinin istehsalıdır. 1939-cu ildə çəkilən film Amerikada vətəndaş müharibəsi dövründən bəhs edir. Filmin kassa dövriyyəsi isə dünya kino prokatı tarixində maliyyə rekordları vurub.

# Dünyanın ən böyük dilli ailəsi

Dünyanın ən uzun dilli adamı olaraq "Ginnesin rekordlar kitabı"na girən adamın dilinin eni təxminən 8,6 santimetrdir. Qızının dili də bir o qədər enlidir. Byron Slenker adlı kişinin qızının dilinin eni isə 7,6 santimetrdir. Mütəxəssislər onlarının dilinin İpone 6 markalı telefonlardan 2 santimetr daha enli olduğunu deyirlər. Byronun qızı Emili dərs üçün "Ginnesin Rekordlar kitabı"na göz gəzdirərkən ən enli dili olan adamın dilinin 7,9 santimetr olduğunu görüb və müqayisə etmək üçün öz dilinin enini ölçüb: "Atamın dilini ölçdükdən sonra hər ikimiz üçün rekordlar kitabına düşmək üçün müraciət etdik. Hazırda dünyanın ən böyük dilli ailəsi bizik".





## Uşağın bədənini dondurdular

Tayvanda yaşayan bir ailə 2 yaşında beyin xərçəngindən ölən qızlarının bədənini -196 dərəcədə dondurub. Çarəsiz qalan ailə Mathern Naavorat adlı qızlarının bədənini onun bir gün diriləcəyini güman edərək dondurduqlarını deyiblər. -196 dərəcə qızın bədənini Alcor adlı şirkətin əməkdaşları dondurub. Bu iş üçün 80 min dollar ödəyən ailə qızlarının beyninin yaşaması üçün hər il 770 dollar da ödəməli olacaq. Mathernin alim olan ata-anası onun üçün əllərindən gələn hər şeyi etdiklərini, 12 dəfə beyin əməliyyatı, 20 radioterapiya, 20 kimyaterapiya keçirən qızı yaşada bilmədiklərini deyiblər. Balaca qızın atası həm onun bədənindən çıxan xərçəng hüceyrələrini, həm də beynini araşdıracaqlarını deyib. Onlar qızlarının bir gün yenidən canlanacağına ümid edirlər.

## Qoroskop (20 aprel)




QOÇ - Neçə gündən bəri yığılmış gərginliyiniz ümumi ovqatınızı aşağı salacaq. Odur ki, ciddi işlərə girişməyə dəyməz. Səhhətinizi qoruyun. Axşama yaxın maraqlı adamlarla görüşləriniz olmalıdır.

BUĞA - Bu gün Bakı vaxtı ilə saat 13:43-də sizin bürc başladığı üçün hamıdan enerjili olacaqsınız. Maliyyə planlarınızın reallaşması sürətlənəcək. Həmkarlarınızla aranızda yaranmış soyuqluğu dəf edin.

ƏKİZLƏR - Maddi problemləriniz olsa da, işlə bağlı heç bir çətinliyiniz olmayacaq. Ulduzlar gələcək planlarınızı məxfi saxlamağı məsləhət görür. Hətta ən yaxın adamlarınıza belə sirr açmayın.

XƏRÇƏNG - Mövcud gərginlikdən qurtulmaq üçün uzaq səfərə çıxmağınız məsləhətdir. Çünki həm fiziki, həm də zehni cəhətdən çox yorulmusunuz. Sevgi münasibətlərində səmimi olun.

ŞİR - Bir çox yeniliklərin şahidi olacaqsınız. Bununla yanaşı, uğurlu sövdələşmələr aparmaq, banklarla işləmək üçün şanslarınız artacaq. Himayənizdəki uşaqların qayğısına qalın.

QIZ - Qarşınızda maraqlı bir təqvim durur. Bu səbəbdən də fürsətinizi fövtə verməyin. Sevdiyiniz adamlarla bir yerdə olun. İşgüzar münasibətlərdə ölçülü-biçili davranmağı da unutmayın.

TƏRƏZİ - İxtiyarınızda olan bu təqvimi məhəbbət istiqamətinə yönəldin. Çünki gün ərzində ən yüksək ovqatı məhz sevgidən alacaqsınız. Nahardan sonra müəyyən qədər işlə məşğul olmaq olar.

ƏQRƏB - Ətrafınızdakı insanların sizə münasibətinin dəyişməsi işlərinizə hopan gərginliyi azaldacaq. Xüsusən də saat 15-dən sonra şəxsi işlərinizdə irəliləyişlər və şanslar baş verəcək.

OXATAN - Təzə xəbərlər yolunuzu gözləyir. Ürəyinizcə olan və gələcəyiniz üçün böyük önəm daşıyan təkliflər də ala bilərsiniz. Bir sözlə, bu təqvim taleyinizdə əsaslı dönüş yarada bilər.

OĞLAQ - Yaxşı olar ki, günün əsas hissəsini mənzil şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, açıq havada olmaq müəyyən qədər uğursuzluq gətirə bilər. Dinə zidd hərəkətlərə yol verməyin.

SUTÖKƏN - Göy qübbəsi yalnız səfərlər üçün uğurlu təqvim yaşayacağınızdan xəbər verir. Doğmalarınıza, yaxınlarınıza baş çəkməyə dəyər. Hətta pulunuz olmasa belə, bir qədər borc götürün.

BALIQLAR - O qədər də uğurlu gün deyil. Bir tərəfdən səhhətinizlə bağlı problemlər, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə anlaşılmazlıqlar ovqatınızı poza bilər. Təmkinli olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Varlıların beyni böyük olurmuş...



Mütəxəssislər yoxsul uşaqların beyinlərinin yaşayış səviyyələri və qidalanmaya görə zəngin uşaqlarına nisbətən 6% daha balaca olduğunu deyiblər. Amerikanın məşhur elm jurnalı "Nature Neuroscience"da yayımlanan məqalədə göstərilir ki, uzun müddət davam edən araşdırmalar nəticəsində məlum olub ki, zəngin ailələrin uşaqlarına ata-anaları daha çox diqqət göstərir, onlar daha çox kitab oxuyur və daha yaxşı qidalanırlar. Stressli ailə şəraitində böyüyən uşaqların məktəbdə yaxşı oxuya bilməmələrinin bir səbəbi də yaxşı qidalana bilməmələridir. Yaşları 3-20 arasında dəyişən uşaqlar və gənclər arasında aparılan araşdırmalar göstərib ki, illik gəliri 150 min dollardan çox olan ailələrin uşaqlarının beyni illik gəliri 25 min dollardan az olan ailələrin uşaqlarının beynindən daha böyükdür.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300